Xalqın qəzeti!

# Xalq qəzeti

№ 240 (30356) 2 noyabr 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## Günün sözü

**Prezident İlham ƏLİYEV:**

**Azərbaycan xalqı çox gözəl bilir ki, 44 günlük müharibə dövründə kim bizimlə bir yerdə idi. Bu, Türkiyə və Pakistan idi. Hər iki ölkə müharibə zamanı ciddi siyasi dəstək nümayiş etdirdi. Bu gün Pakistanı tam əminliklə Azərbaycanın Türkiyədən sonra dünyadakı ikinci əsas strateji müttəfiqi hesab etmək olar.**

# Azərbaycan dost ölkələrin dəstəyini yüksək qiymətləndirir

## Prezident İlham Əliyev Pakistan Silahlı Qüvvələrinin Quru Qoşunları komandanını qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Pakistan Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı Asim Muniri qəbul edib.**

Dövlətimizin başçısı ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən, hərbi sahədə uğurla inkişaf etdiyini bildirdi.

Prezident İlham Əliyev Ermənistanın Azərbaycana təcavüzü dövründə Pakistan hökumətinin və xalqının ölkəmizə göstərdiyi davamlı dəstəyi yüksək qiymətləndirdi. Dövlətimizin başçısı Pakistanın Ermənistanın təcavüzünə görə bu ölkə ilə diplomatik əlaqələr qurmamasını Azərbaycana göstərilən qardaşlıq münasibətinin nümayişi kimi dəyərləndirdi.

Prezident İlham Əliyev İkinci Qarabağ müharibəsi dövründə də Pakistanın Azərbaycana göstərdiyi siyasi dəstəyə görə minnətdarlığını ifadə etdi.

Dövlətimizin başçısı torpaqlarımızın işğaldan azad olunması kimi tarixi missiyanı başa çatdırdığımızı, suverenliyimizin tam bərpa olunduğunu, işğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı yenidənqurma işlərinə başlanıldığını məmnunluqla bildirdi.

Prezident İlham Əliyev Azərbaycan ilə Pakistan arasında hərbi sənaye sahəsində uğurlu əməkdaşlığın olduğunu deyərək, ölkələrimizin birgə hərbi təlim keçirməsinin önəminə toxundu.

Dövlətimizin başçısı beynəlxalq səviyyədə ölkələrimizin suverenliyi və ərazi bütövlüyü məsələsinə toxunaraq, Azərbaycanın qardaş Pakistanı Cəmmu və Kəşmir məsələsində hər zaman dəstəklədiyini bir daha qeyd etdi.

Prezident İlham Əliyev Asim Munirin səfərinin əməkdaşlığımızın möhkəmlənməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.

Asim Munir İkinci Qarabağ müharibəsində əldə olunan Qələbə və bu ilin sentyabrında həyata keçirilən antiterror tədbirlərində Azərbaycanın qazandığı uğurlar münasibətilə təbriklərini çatdırdı, bunun Pakistanda böyük sevinclə qarşılandığını qeyd etdi. Qonaq Pakistanın Azərbaycan xalqı ilə qardaşlıq əlaqələri nümayiş etdirərək, Ermənistanı bu günə kimi tanımadığını bir daha vurğuladı.

Asim Munir Cəmmu və Kəşmir məsələsində ölkəmizin dəstəyinə görə minnətdarlığını bildirdi.

**AZƏRTAC**

## Azərbaycan Prezidentinin müraciəti BMT-nin rəsmi sənədi kimi yayılıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 20-də Bakıda keçirilən "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciəti BMT-nin rəsmi sənədi kimi yayılıb.**

Dövlətimizin başçısı müraciətində Azərbaycanın XXI əsrdə kolonializmin davam etməsindən və kolonializmin yeni təzahürləri meyillərinin artmasından narahatlığını vurğulayıb, Afrika, Cənub-Şərqi Asiya, Sakit Okean, Latın Amerikasında onlarla ölkəni işğal edən, sərvətlərini talayan, xalqlarını uzun illər əsarətdə saxlayan Fransanın həmin ərazilərdə hərbi və bəşəriyyət əleyhinə çoxsaylı cinayətlər törətdiyini, etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini soyqırımına məruz qoyduğunu diqqətə çatdırıb, Fransa kolonializminin utancverici yeni metodlarının bu gün də davam etməsindən təəssüfünü bildirib. Prezident İlham Əliyev, eyni zamanda, Fransanın dünyada ən çox mina istifadə etmiş ölkələrdən biri olduğuna, Azərbaycanın mina partlayışından ən çox əziyyət çəkən ölkələr sırasında ön yerlərdən birini tutduğuna diqqət çəkib.

Dövlətimizin başçısı, həmçinin Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi kolonializmə qarşı mübarizə aparan və azad olmağa çalışan xalqları dəstəklədiyini diqqətə çatdırıb.

Qeyd edək ki, Prezident İlham Əliyevin sözügedən müraciətinin BMT-nin rəsmi sənədi kimi yayılması dövlətimizin başçısının, eyni zamanda, Azərbaycanın beynəlxalq proseslərdə oynadığı mühüm rolun, o cümlədən, dünyada kolonializmə qarşı mübarizə sahəsində birgə səylərin səfərbər edilməsinə, bəşəriyyətin rifahı, dünyanın kolonializmdən xilas olması məqsədilə yeni ideya və təşəbbüslərin irəli sürülməsinə töhfələrinin beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilməsinin əyani təzahürüdür.

**XQ**

## Makronun Mərkəzi Asiya fəallığı və vaxtsız banlayan xoruzun aqibəti

**Fransa Afrikada itirdiyi mövqeyini konpensasiya etməyə, xarici siyasətdə uğradığı məğlubiyyəti aradan qaldırmağa çalışır. Ölkə prezidenti Emmanuel Makronun Mərkəzi Asiya turnesi təşəbbüsünə, başlıca olaraq, məhz bu baxımdan yanaşmaq mümkündür. Elə dünyanın bir çox siyasi ekspertləri də mövcud xüsusda fikir bildirərək, rəsmi Parisin düşdüyü aciz durumun trayektoriyasını cızmaqdadırlar. Onların bəziləri Makronun Rusiyadan qisas almağa cəhd göstərdiyini bildirirlər. Nəzərə alaq ki, Fransanın bir çox müstəmləkələrində baş vermiş dövlət çevrilişləri nəticəsində hakimiyyətə Rusiya yönümlü qüvvələr gəliblər.**



Əlbəttə, Yelisey sarayı Makronun əsl niyyətini pərdələmək yolunu tutur. Onun yaydığı məlumatda Fransa prezidentinin Mərkəzi Asiya respublikalarında islahatları və modernləşməni dəstəkləmək niyyəti açıqlanır. Ancaq məsələ yalnız bu deyil: "Fransa islahatlar və modernləşmə yolunda Qazaxıstan və Özbəkistanı dəstəkləməyə, beynəlxalq əlaqələrin şaxələndirilməsinə töhfə verməyə, onların müstəqilliyini və suverenliyini dəstəkləməyə, Avropa ilə əlaqələrini gücləndirməyə hazırdır".

*(ardı 3-cü səhifədə)*

## "Forbes"in Ermənistan üçün iflas proqnozu

**Azərbaycanın 2020-ci il müharibəsindəki Qələbəsindən dərhal sonra Cənubi Qafqaz regionunda birgəyaşayış planları qurulmağa başlandı. Ermənistanla Azərbaycan arasında tezliklə sülh müqaviləsinin imzalanması barədə danışıqlar bu planları daha da stimullaşdırır. Heç kəs ölkələrdən sıx əməkdaşlıq gözləmir, amma ümid var ki, onlar bir-birinə, heç olmasa, öz ərazilərindən tranzit məqsədilə istifadəyə icazə verəcəklər. Bu fikirlər nüfuzlu "Forbes" jurnalının yayımladığı məqalədəndir.**




Məqalədə bildirilib ki, azərbaycanlıların Naxçıvana və Türkiyəyə çıxışa ehtiyacı var. Oraya getməyin ən asan yolu isə Ermənistan ərazisindən keçən dəmir yolunun bərpasıdır. Ermənilər üçün də Rusiyaya yeni çıxış lazımdır və onu əldə etmək üçün Azərbaycandan münasib yol yoxdur: "Düzdür, hər yerdə olduğu kimi, bu məsələdə də güclülərin hökmranlığı öz işini görür. İlk mərhələdə müzakirəyə çıxarılmış kommunikasiyaların açılması əvəzinə, faktiki olaraq, yalnız bir infrastruktur layihəsi – Ermənistan ərazisindən keçməklə Naxçıvana yol alan və Zəngəzur dəhlizi kimi adlandırılmış layihə müzakirə olunur".

*(ardı 3-cü səhifədə)*

## Anklavlara "sülh sazişi" aydınlıq gətirəcək



**Deyəsən, Azərbaycan və Ermənistan arasında yekun sülh sazişi kənar aktor-vasitəçi olmadan birbaşa dialoqda müzakirə ediləcək və tərəflər həmin sənədi Tbilisidə təsdiqləyəcəklər. Yəni, Cənubi Qafqazın ən uzunömürlü münaqişəsi başa çatacaq. Bununla da regionda maraqları kəsişən və elə bu səbəbdən, davamlı problem yaradan kənar güclərin müdaxiləsinə son qoyulacaq. İndi əsas müzakirə mövzusu sülh müqaviləsinin bu ilin sonuna qədər imzalanmasıdır.**

Faktiki olaraq, həm Bakı, həm də İrəvan bunun məhz bu il baş verəcəyinə inamını ifadə edib. Düzdür, Cənubi Qafqazın gündəmini zəbt etmiş bu məsələ ətrafında dəqiqləşdirilməli, kifayət qədər mübahisə doğuran məqamlar da mövcuddur. Həmin önəmli məqamlardan biri anklavlar problemidir. Hayastan mediası Paşinyan hakimiyyətinin anklavların Azərbaycana qaytarılması ilə bağlı müzakirələr apardığını yazır. Rəsmi İrəvan hələlik həmin kəndlərin Azərbaycana hansı prinsiplə qaytarılacağı üzərində düşünüb-daşınır.

*(ardı 4-cü səhifədə)*

## Yaxın Şərq: Qaçqın düşərgəsində partlayış...



Səhifə ⇨ 8

## Ələt Azad İqtisadi Zonası – dünya iqtisadiyyatına açılan qapı

**Prezident İlham Əliyevin "Ələt Azad İqtisadi Zonasının fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 31 oktyabr 2023-cü il tarixli Sərəncamı Azərbaycanın iqtisadi həyatı üçün mühüm hadisədir.**

*(ardı 7-ci səhifədə)*



## Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 905-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 323, № 12, maddə 1034; 2007, № 11, maddə 1105, № 12, maddə 1246; 2009, № 7, maddə 533, № 8, maddə 627, № 10, maddə 773, № 12, maddələr 983, 988; 2010, № 2, maddə 83, № 4, maddə 292, № 11, maddə 966; 2011, № 1, maddə 18, № 2, maddə 85, № 4, maddə 281, № 6, maddə 497, № 10, maddə 894, № 11, maddə 993; 2012, № 10, maddə 950; 2014, № 6, maddə 627, № 7, maddə 820, № 9, maddə 1029; 2016, № 1, maddə 77; 2017, № 2, maddə 184, № 10, maddə 1784; 2018, № 6, maddə 1205, № 7 (I kitab), maddə 1480; 2019, № 3, maddə 431, № 5, maddə 860, № 6, maddə 1044, № 12, maddə 1927; 2020, № 7, maddə 882; 2021, № 5, maddə 439; 2022, № 1, maddə 29, № 4, maddə 332, № 8, maddə 871; 2023, № 4, maddə 478) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə”nin 16.20-ci bəndi ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 1 noyabr 2023-cü**

# Azərbaycan regionda Koreyanın əsas tərəfdaşıdır



**Milli Məclisin Sədri Sahibə Qafarova Koreya Respublikasına rəsmi səfəri çərçivəsində noyabrın 1-də bu ölkənin Milli Assambleyasının Sədri Jin-pyo Kim ilə görüşüb.**

Jin-pyo Kim Koreyanın Azərbaycanın müstəqilliyinin ilk günlərindən sıx əlaqələr qurduğu ölkələrdən biri olduğunu, ötən il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd edildiyini vurğulayıb. Azərbaycanın Cənubi Qafqaz regionunda Koreyanın əsas ticarət tərəfdaşı olduğu, ticarət dövriyyəsinin durmadan artdığı diqqətə çatdırılıb.

Milli Məclisin Sədri Sahibə Qafarova ölkələrimiz arasında müxtəlif formatlarda qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirmək üçün yaxşı imkanlar olduğunu bildirib. O qeyd edib ki, ölkələrimiz ənənəvi format və təşkilatlarla yanaşı, yeni əməkdaşlıq formatlarında da birgə fəaliyyət göstərə bilər. Bunlardan biri Azərbaycanı, Mərkəzi Asiya ölkələrini və Koreya Respublikasını əhatə edən, müxtəlif sahələrdə mühüm imkanlar və üstünlüklər verə bilən əməkdaşlıq mexanizmi ola bilər.

Görüşdə təhsil, elm, mədəniyyət sahələrində əməkdaşlıq məsələləri də müzakirə edilib. Hazırda Koreyada 200-ə yaxın azərbaycanlı tələbənin təhsil aldığı, Azərbaycan və Koreya universitetləri arasında müxtəlif beynəlxalq tələbə mübadiləsi və ikili diplom proqramlarının mövcud olduğu diqqətə çatdırılıb.

**Əliqismət BƏDƏLOV**
**XQ**

# Xarici işlər naziri BƏƏ Prezidenti ilə görüşüb

**Oktyabrın 31-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) rəsmi səfəri çərçivəsində BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşüb.**



Görüş zamanı Azərbaycan və BƏƏ arasında əməkdaşlıq gündəliyinin genişləndirilməsində ali və yüksək səviyyəli siyasi dialoqun əhəmiyyəti vurğulanıb.

Diplomatik münasibətlərin qurulmasından ötən müddət ərzində iki ölkənin İslam həmrəyliyi, dostluq, qardaşlıq prinsipləri əsasında əməkdaşlıq əlaqələrinin inkişafı üçün səy göstərdiyi məmnunluqla qeyd olunub.

Həmçinin Azərbaycan və BƏƏ arasında mövcud çoxşaxəli nümunəvi əməkdaşlıq gündəliyinin davam etdirilməsi, turizm, təhsil, yüksək texnologiyalar kimi sahələrdə əməkdaşlığın daha da genişləndirilməsinin zəruriliyi vurğulanıb.

Görüş zamanı, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**XQ**

# Azərbaycan–Pakistan: hərbi əməkdaşlıq genişlənir



**Noyabrın 1-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Pakistan Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı general Asim Munirin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

General-polkovnik Z.Həsənov Azərbaycan–Pakistan–Türkiyə arasında həyata keçirilən ikitərəfli və üçtərəfli hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu vurğulayıb. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunda aparılan islahatlardan danışıb.

General A.Munir Azərbaycanın suverenliyi uğrunda canını fəda edən şəhidlərimizlə bağlı başsağlığı verib. Azərbaycan ilə Pakistan arasında hərbi əməkdaşlığın inkişaf etdirilməsində belə görüşlərin əhəmiyyətini xüsusi vurğulayıb. İki ölkə ordularının qoşun növləri qərargahları arasında danışıqların aparılması və əlaqələrin genişləndirilməsinin zəruriliyini qeyd edib.

Görüşdə, həmçinin ölkələrimiz arasında hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edilib.

*

Həmin gün müdafiə nazirinin birinci müavini – Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Pakistan nümayəndə heyəti ilə görüşüb.

Baş Qərargahda keçirilən görüşdə ölkələrimiz arasında hərbi əlaqələrin və strateji tərəfdaşlığın yüksələn xətlə inkişaf etdiyi vurğulanıb. İkitərəfli və üçtərəfli birgə təlimlərin intensivliyinin artırılmasının vacibliyi bildirilib.

*

Hərbi Hava Qüvvələrinin qərargahında müdafiə nazirinin müavini – Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirovla da görüş keçirilib. Qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

**XQ**

# İcmanın BMT-yə məktubu rəsmi sənəd kimi yayılıb

**Qərbi Azərbaycan İcması 2023-cü il avqustun 10-da BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı Folker Türkə məktub göndərərək, Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə aparması və onların evlərinə qayıtmasına əngəl törətməsi nəticəsində insan hüquqlarının kütləvi şəkildə pozulması barədə müfəssəl hüquqi qiymətləndirmə təqdim etmişdi.**

Həmin müraciət BMT-nin Təhlükəsizlik Şurasının və Baş Assambleyasının gündəliyinin soyqırımının, etnik təmizləmənin, insanlıq əleyhinə cinayətlərin qarşısının alınması, irqçiliyin və ksenofobiyanın aradan qaldırılmasına dair bəndləri altında həmin ali orqanların rəsmi sənədləri kimi yayılıb.

**XQ**

## Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Zati-aliləri cənab Abdelmacid Tebbuna

**Hörmətli cənab Prezident,**
**Əziz Qardaşım,**

1 Noyabr – İnqilab Günü münasibətilə Sizə və Sizin simanızda qardaş Əlcəzair xalqına öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Amansız müstəmləkəçilik siyasətinə qarşı xalqınızın azadlıq mübarizəsinə başladığı bu əlamətdar gün Əlcəzairin qəhrəmanlıqlarla zəngin olan tarixinin ən şərəfli səhifələrindən biridir. Yüz ildən artıq dövr ərzində əsarətə və kütləvi zorakılığa məruz qalan, misli görünməmiş qəddarlıq, insanlıq əleyhinə cinayətlərlə üzləşən Əlcəzair xalqı müstəqilliyini bir milyon yarım şəhidin canı bahasına əldə etmiş və bununla da iradəsinin sarsılmazlığını, yenilməzliyini, mətinliyini və azadlıq əzmini bütün dünyaya nümayiş etdirmişdir.

Otuzillik işğaldan əziyyət çəkmiş Azərbaycan xalqı Əlcəzair xalqının hisslərini yaxşı başa düşür. Şadam ki, bu gün ənənəvi dostluq və qardaşlıq telləri ilə bir-birinə bağlı olan ölkələrimiz arasında əlaqələr dinamik inkişaf edir. Eyni zamanda çoxtərəfli müstəvidə qarşılıqlı faydalı birgə fəaliyyətimiz məmnunluq doğurur.

Əminəm ki, qarşılıqlı etimad və dəstəyə əsaslanan dövlətlərarası münasibətlərimiz, səmərəli əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da birgə səylərimizlə uğurla inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, qardaş Əlcəzair xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

Hörmətlə,

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 30 oktyabr 2023-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 389** **Bakı şəhəri, 30 oktyabr 2023-cü il**

**“Zəngilan şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı”nın təsdiq edilməsi haqqında**

“Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Zəngilan şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı” təsdiq edilsin (əlavə olunur).

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**

# Vilayət Eyvazov vətəndaş qəbulu və sıra baxışı keçirib



**Oktyabrın 31-də və noyabrın 1-də Daxili İşlər Naziri general-polkovnik Vilayət Eyvazov Ağcabədi Rayon Polis Şöbəsinin inzibati binasında Ağdam, Bərdə, Laçın, Zərdab və Ağcabədidən qəbula gələn 96 vətəndaşı qəbul edib. Nazir səslənən problemlərin həlli üçün qurumun aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyəti yerində həllini tapıb.**

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov DİN Daxili Qoşunlarının Ağcabədidəki hərbi hissəsində olub, komandir heyəti ilə əməliyyat müşavirəsi keçirib, müvafiq tövsiyyə və konkret tapşırıqlarını verib.

Sonda general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib. Sıra baxışında iştirak edən polis orqanlarına xidmət etmək arzusunda olan gənclərin 42-si Vətən müharibəsi iştirakçısı, 3-ü isə şəhid ailələrinin üzvləri olmaqla xidmətə qəbulun şərtlərinə uyğun gələn 202 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

**XQ**

# Avropalı parlamentarilərin siyasi təxribatı



**Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi Avropa Parlamentinin deputatları Nikolas Bay, Mariyon Marişal və Vinçenzo Sofonun riayət etməli olduqları bütün qayda və davranış normalarını pozaraq, özünü ləğv etmiş və Azərbaycanın Qarabağ regionundan qaçmış keçmiş separatçı rejimin nümayəndələri ilə birbaşa əlaqə yaratması ilə bağlı təxribat xarakterli, qeyri-etik və faktiki olaraq qanunsuz, davamlı olaraq təkrarlanan hərəkətlərinə görə dərin narahatlığını və narazılığını ifadə edərək qəti şəkildə etirazını bildirib.**

Komitənin bəyanatında bildirilir: “Biz Avropa Parlamentinin rəhbərliyindən təkcə regionda bu təxribatçı fəaliyyətə müvafiq qiymət verməyə deyil, həm də humanitar məsələlərdən siyasi və təxribatçı məqsədlər üçün istifadənin dayandırılmasını, həmçinin Cənubi Qafqaz bölgəsinin daxili işlərinə qarışmamağı və bununla da sülh prosesinə zərər verməməyi tələb edirik”.

**XQ**

# Makronun Mərkəzi Asiya fəallığı və vaxtsız banlayan xoruzun aqibəti

## Afrikada rüsvay olmuş Fransa titanların rəqabət platformasında necə görünür?

**(əvvəli 1-ci səhifədə)**

Kolonial təfəkkür sahiblərinin idarə etdiyi ölkə Qazaxıstanın və Özbəkistanın müstəqilliyini dəstəkləyəcəkmiş. Üstəlik, bunu islahatlara və mödernləşməyə kömək göstərməklə edəcəkmiş. Hər halda, belə nağıl danışmaq yalnız Makron administrasiyasının ağlına gələ bilərdi. Tam aydındır ki, adını çəkdiyimiz ölkələr həm kifayət qədər moderndir, həm də yüksək inkişafları ilə seçilirlər. Məsələn, iqtisadi inkişaf tempinə baxsaq, Özbəkistan Fransanın özünü də qabaqlamaqdadır. Üstəlik, hər iki ölkə Rusiya ilə kifayət qədər ölçülü-biçili və bərabərhüquqlu münasibətlərə malikdir. Deməli, əsas məsələ Makronun onları necə təsəvvürə gətirməsidir. Fransa prezidentinin kif atmış müstəmləkəçi baxışlarına görə, həm Özbəkistan, həm də Qazaxıstan Moskvanın peykləridir və öz aləmində bu ölkələrlə əlaqələri gücləndirir ki, ümumən Mərkəzi Asiyadakı rus təsirinə zərbə vursun.

Yelisey sarayının məlumatında, həmçinin qeyd edilib ki, Qazaxıstan və Özbəkistanı Fransaya yaxınlaşdırmaqda məqsəd enerji, mühüm xammal tədarükü, nəqliyyat infrastrukturu, səhiyyə, kənd-ərzaq və müdafiə sahələrində əməkdaşlığı dərinləşdirməkdir. Elə buna görə də səfərlər zamanı Fransa şirkətlərinin iştirakı ilə iqtisadi forumların keçirilməsi nəzərdə tutulur.

Bu yerdə onu da vurğulayaq ki, istər Qazaxıstanın, istərsə də Özbəkistanın Rusiya ilə olduğu kimi, Fransa ilə də kifayət qədər səmərəli nəticələrə hesablanmış münasibətləri var. Ancaq məlumdur ki, hazırda Parisin gözləntisi bunun üzərindədir və əslində, gözləntinin təzahür formaları olan mesajların səslənməsi yalnız indinin söhbəti deyil.

Yada salaq ki, Qazaxıstan və Özbəkistan liderlərinin Fransaya ötən illərdə gerçəkləşmiş səfərlərindən sonra Parisdə ölkə parlamentinin himayəsi ilə "dəyirmi masa" keçirilmişdi. Nüfuzlu diplomatların və beynəlxalq əlaqələr üzrə ekspertlərin qatıldıqları həmin toplantıda Fransanın Mərkəzi Asiyadakı rolunun artırılmasına yönələn çağırışlar səslənmişdi. Ən əsası isə aşkar təxribatçılıq xətti götürülmüş və bildirilmişdi ki, Mərkəzi Asiya ölkələri Rusiyadan uzaqlaşır, guya, öz suverenlikləri və təhlükəsizliyi üçün qorxurlar və buna görə Fransa onları qorumalıdır.

Hər halda, Fransanın "qısır" siyasi sənayesindən bundan cəfəng arqument tapmasını gözləmək olar. Aydındır ki, Makron kimi, onun polittexnoloqlarının da başı müstəmləkəçilik məntiqi ilə işləməkdədir. Çox güman, özlərini orta əsr fransız cəngavərləri kimi hiss edirlər. Guya ki, gedib kimlərisə, indiki halda Mərkəzi Asiya ölkələrini "tiran Rusiyanın" ekspansiyasından qoruyacaqlar. O boyda tarixi ənənələrə malik ölkənin təklif etdiyi çürüklüyə bax! Allah ağıl versin!



Tutalım, Fransanın məqsədi Rusiyanı sıxışdırmaqdır. Tamam, bunu anladıq. Onsuz da ayrı-ayrı dövlətlər arasında rəqabət gedir. Ancaq bu rəqabəti aparmaq üçün tutarlı rıçaqların, əsaslı arqumentlərin mövcudluğu, zamanın və şəraitin düzgün qiymətləndirilməsi şərtdir. Görünür, Fransanın beyin mərkəzləri o qədər quruyub ki, özlərini ancaq keçmişin ritorikasında tapır, reallıqları düşünmürlər. Vəziyyət, təxminən, keçmiş SSRİ-nin kommunizmin dünya xalqlarına xoşbəxtlik gətirəcəyinə dair uydurma beynəlmiləl tezislər irəli sürərək təbliğat aparmasına oxşayır. Yox bir, Fransa Qazaxıstanı və Özbəkistanı Rusiyadan müdafiə edəcəkmiş. Görünür, Parisdə bilmirlər ki, Mərkəzi Asiya ölkələri belə nağıllara inanmayacaq qədər tədbirlidirlər. Hesab edirlər ki, Qazaxıstan və Özbəkistanın dünyadan, indiki halda Fransanın niyyətlərindən xəbərsizdirlər.

Gələk digər məsələ üzərinə. Yəni, real iş müstəvisi baxımından bir məqamı vurğulayaq. Məlumdur ki, Fransa ilk növbədə iqtisadi maraqlar güdür. Ölkə nüvə enerjisi istehsalı üzrə Avropada liderdir. Qazaxıstan isə uran hasilatı üzrə dünya liderliyinə sahibdir. Hazırda ölkə bu göstərici üzrə dünya tədarükünün 40 faizini təmin edir.

Onu da bildirək ki, hazırda Fransa və Qazaxıstan mövcud sahədə işbirliyinə malikdirlər. Belə ki, onların müştərək müəssisəsi olan KATCO fəaliyyətdədir. Lakin Afrika bazarının itirilməsindən sonra Paris KATCO-nun ölkədə hasil edilən uranın 15 faizini emal etməsi ilə kifayətlənə bilmir. Üstəlik, Fransa Rusiyanın "Rosatom"u ilə rəqabətdədir. Çalışır ki, onu sıxışdırsın. Afrikada fransız patronajının rus patronajı ilə əvəzləndiyi hazırkı durumda isə Makronun məsələyə prinsipial yanaşmasının əlavə sübuta ehtiyacı yoxdur. Göründüyü kimi, durum geosiyasi əhəmiyyət də daşımaqdadır.

Ancaq Fransa–Rusiya rəqabətinin Cənubi Qafqaz platforması da aktivdir. Paris özünün ermənipərəst mövqeyi ilə Moskvanı bu bölgədə sıxışdırmağı hədəf seçir. Makron administrasiyası həm iqtisadi maraqlar güdür, həm də dünya siyasətində üzləşdiyi acınacaqlı durumu, o cümlədən, özünə qarşı saymazyana münasibət trendini heçə endirməyə çalışır. Məsələyə bu baxımdan yanaşsaq və Fransanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığa can atmaq əzmini nəzərə alsaq, ortaya başqa məsələ də çıxır.

Rusiyanı bir kənara qoyaq, məlum olduğu kimi, Mərkəzi Asiya ölkələri, eyni zamanda, Türk Dövlətləri Təşkilatında təmsil olunurlar. Son zamanlar onların mövcud müstəvidəki rolu xeyli güclənib, habelə ideya və məzmun qazanıb. Və ermənipərəst mövqe tutan Makron Fransasının sözü bu təşkilatda fəal rol oynayan Azərbaycan və Türkiyə ilə düz gəlmir. Deməli, ölkənin mövcud istiqamətdə uğur qazanması həm də bu baxımdan mümkünsüzdür.

Digər tərəfdən, yenə də Rusiyanı bir kənara qoyaraq bildirək ki, Mərkəzi Asiya regionu ABŞ və Çinin nüfuz uğrunda bir-biri ilə fəal rəqabət apardığı platformadır. Hərçənd, Moskvanı mövcud platformadan kənar tutmaq mümkünsüzdür və bu amil sözügedən rəqabətə bir növ əlavə siyasi rəng qatmaqdadır. Hələ bölgə ilə bağlı ayrılıqda Türkiyə faktoru da var.

Göründüyü kimi, Afrikadan əli üzülmüş Fransanın siyasətdə piyada olduğu aşkardır. Onun itirilmişlərin bərpası üçün baş vurduğu Mərkəzi Asiya siyasi titanların platformasıdır. Bu platformada ölkənin bəsit iddialarını gerçəkləşdirməsi, qətiyyən mümkün deyil. Nəzərə alsaq ki, Makron çox fəallıq göstərir, belə dəstxətt seçməsi ilə, o, obrazlı desək, Fransanın rəmzindəki xoruza oxşayır. Vaxtsız banlayan xoruzu isə kəsirlər. Ən yaxşı halda, yolub buraxırlar.

***Əvəz RÜSTƏMOV***
***XQ***

# "Forbes"in Ermənistan üçün iflas proqnozu

## Jurnalın təhlilindən bu qənaət hasil olur ki, İrəvanın Bakının şərtlərini qəbul etməkdən başqa, çarəsi yoxdur

**(əvvəli 1-ci səhifədə)**

Məqalədə, eyni zamanda, bildirilib ki, Zəngəzur dəhlizi məsələsində onun təhlükəsizliyə zəmanətdən və istismar şərtlərindən tutmuş, adına qədər hər şey mübahisəlidir. Azərbaycanlılar "dəhliz" sözü ilə bu yoldan istifadə baxımından müstəsna hüquq qazanmaq istəyirlər. "Forbes" regionun strateji əhəmiyyətini nəzərə alaraq, bu istəyin təhlükəli olduğu qənaətinə gəlib. Jurnalın məqaləsində hesab edilib ki, Bakının nəzəri imkanları Ermənistanı İranla sərhədə çıxışdan məhrum etməyə qadirdir. Bu isə ermənilərin xarici dünyaya iki pəncərə əvəzinə, bir pəncərəsi ilə çıxması demək olacaq.

Maraqlıdır, jurnal nəzərə alırmı ki, Zəngəzur dəhlizi, belə demək mümkünsə, özünün klassik anlamında reallaşmasa, Ermənistanın dünyaya neçə çıxışı olacaq? Məlumdur ki, ölkənin baş naziri Nikol Paşinyanın da imzasının yer aldığı 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatda Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yoldakı təhlükəsizliyin Rusiya Federal Təhlükəsizlik Xidməti tərəfindən təmin ediləcəyi yazılıb. İrəvan hazırda bu müddəanı görməzdən gəlməkdə israrlıdır. Belə olan təqdirdə, məsələ Ermənistanın Rusiya ilə konfrantasiyası müstəvisinə daxil olur. O zaman birinci ikincidəki bazarları itirir. Üstəlik, "Forbes", vaxtilə dəfələrlə israr etməsinə baxmayaraq, hazırda Bakı üçün Ermənistandan keçən marşrutun cəlbediciliyinin itdiyini diqqətə çatdırır və əvəzində ideyanın İran vasitəsilə həyata keçirilə biləcəyinin gündəmə gəldiyini vurğulayır. Bu isə o deməkdir ki, İrəvan əvvəlki kimi, yalnız İrana çıxış imkanlarını saxlayacaq, böyük miqyaslı layihədən kənarda qalacaq. Deməli, Zəngəzur dəhlizi ideyasından imtina, Ermənistanı həm Rusiya bazarlarından, həm də sözügedən dəhlizin imkanlarından istifadədən məhrum duruma gətirəcək.

"Forbes" məqaləsində onu da bildirib ki, İran ərazisindən yolun çəkilməsi ehtimalı əvvəllər də müzakirə edilmişdi. Lakin söhbətlər ciddi qəbul edilməmişdi. Çünki bu halda, Bakının Ermənistana təzyiq üçün əsas motivlərindən biri aradan qalxırdı. Bakı öz ritorikası ilə nümayiş etdirdi ki, ona təkcə marşrut yox, ən əsası İrəvanın nəzarəti olmayan tranzit marşrutu lazımdır. Bu isə daha uzunmüddətli məqsəddir. Söhbət azərbaycanlıların Ermənistanın cənubuna köçürülməsindən gedir. Jurnal belə düşüncədədir ki, mövcud kontekstdə Bakının İrandan keçən dəhlizə razılığı, İrəvana güzəşt kimi görünür.

Ancaq məsələ burasındadır ki, hazırda Ermənistan tranzit marşrutlarının öz ərazisindən keçməsi naminə daha çox canfəşanlıq edir. Yəni, İrəvan bu işdə maraqlıdır. N.Paşinyan məsələyə, hətta, ad da düşünüb – "Dünya kəsişməsi". Amma Nikol istəyir ki, Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yola nəzarəti Ermənistanın təhlükəsizlik qüvvələri həyata keçirsinlər. Beləliklə, ölkəsi həm Şərq–Qərb, həm də Şimal–Cənub marşrutları üzrə ortaq nöqtəyə çevrilsin. Hadisələrin buna doğru getməyəcəyi, dəqiq desək, Zəngəzur dəhlizi ideyasının İrandan keçəcəyi təqdirdə, Ermənistanın aqibətindən, onun nələri itirəcəyindən bəhs etdiyimizdən, məsələnin üzərinə yenidən qayıtmaq istəməzdik.

***

Qeyd edək ki, "Forbes"in analitiklərini Azərbaycanın Ermənistan ərazisindən keçən yoldan imtinasını rəsmi Moskvanın asanlıqla qəbul etməsi təəccübləndirib. Məlum olduğu kimi, Rusiya Baş nazirinin müavini Aleksey Overçuk bildirib ki, bu məsələdə ölkəsinin maraqları baxımından heç bir fərq yoxdur. Əslində isə fərq var. Sadəcə oyun qaydalarını pozan Azərbaycan yox, Ermənistandır və bunu Rusiyanın rəsmi və siyasi dairələrində çox yaxşı anlayırlar. İndiki durumda əgər Bakı İrəvanın Naxçıvana gedən yolda təhlükəsizlik təminatı, gömrük-keçid məntəqəsi məntiqi ilə razılaşsaydı, bu, Kremlin maraqlarını heçə saymaq olardı. Çünki ortada az əvvəl barəsində danışdığımız üçtərəfli Bəyanat var.

Bəli, Azərbaycan prinsiplərə sadiqdir. Prinsiplərdə isə başlıca məsələ Azərbaycandan Naxçıvana gedən, böyük anlamda isə ölkəmizi Türkiyə ilə birləşdirən sərfəli marşrutun olmasıdır. Ölkəmiz üçün bu marşrutun Ermənistandansa, İrandan keçməsi təhlükəsizlik nöqteyi-nəzərdən daha məqsədəuyğundur. Birincisi, İran Ermənistandan fərqli olaraq müstəqil dövlətdir, öz maraqlarını düşünür, müxtəlif xarici qüvvələrin əlində alətə çevrilmir. Deməli, onun qlobal layihə üçün risk yaratma ehtimalı yoxdur. Həm də ona görə risk yaratma ehtimalı yoxdur ki, böyük anlamda Zəngəzur dəhlizi Çinin mallarının Avropa bazarına tez və səmərəli daşınma platforması kimi Orta dəhliz ideyasının tərkib hissəsidir. Pekinin Tehranla müsbət əlaqələrinin, o cümlədən, neft sazişlərinin mövcudluğunu isə xüsusi qeyd etməyə ehtiyac yoxdur. Hər şey aydındır.

Görünür, elə bu səbəbdən, "Forbes" bir sıra məqamlar vurğulayır və bu nəticəyə gəlir ki, Ermənistan üçün heç də hər şey Paşinyanın izahındakı qədər sadə deyil. Çünki ölkənin dəmir yolları Rusiyanın dəmir yolları strukturunun tərkib hissəsidir. Hazırda Ermənistanın İranla sərhədini Rusiya sərhədçiləri qoruduqlarından, bu, Kremlə yeni nəqliyyat arteriyası üzərində nəzarət imkanı qazandıracaq. Təbii ki, üçtərəfli Bəyanat məntiqi də var. Əgər yol Arazın o biri sahilindən keçirsə, onda sxemin fəaliyyəti dayanır. Eyni zamanda, İranın hazırkı şəraitdə Rusiyanın mühüm tərəfdaşı olduğu reallığı da var. Tehranın İrəvanla daha sıx surətdə yaxınlaşacağını təsəvvürə gətirmək, hələlik, mümkün deyil.

***

Bütün bunların fonunda "Forbes" analitikləri N.Paşinyanın bu il oktyabrın 26-da Tbilisidəki çıxışı üzərində dayanıblar. Onlar çıxışı gözlənilməz adlandırıblar. Məlumdur ki, Nikol Gürcüstan paytaxtındakı nitqi zamanı böyük ekranda Ermənistanın xəritəsini nümayiş etdirib. Onun hazırladığı slayddakı dörd ox – Qara dənizə, Xəzər dənizinə, Aralıq dənizinə və Fars körfəzinə doğru yönəlib. Haqqında söz açdığımız "Dünya kəsişməsi" elə budur. Paşinyan çıxışında göstərdiyi tranzitin hansı prinsiplər əsasında həyata keçiriləcəyini də təklif edib.




"Forbes" vurğulayır ki, əslində, bu nümayiş və təkliflərin səslənməsi İrəvanın məsələdəki narahatlığının təsviridir. Narahatlıq isə bundan ibarətdir ki, birincisi, Nikolun bildirdiyi kimi, "bütün infrastruktur, o cümlədən, avtomobil, dəmir, hava yolları, boru kəmərləri, kabellər, elektrik xətləri keçdikləri ölkələrin suverenliyi və yurisdiksiyası altında fəaliyyət göstərsin". Yəni, o bunun baş verə bilməyəcəyi ehtimalını yaxına buraxır. İkincisi, "hər bir ölkə dövlət orqanları vasitəsilə öz ərazisində sərhəd və gömrük nəzarətini həyata keçirsin, həmçinin infrastrukturun təhlükəsizliyini, o cümlədən, malların, nəqliyyat vasitələrinin və insanların təhlükəsizliyini təmin etsin". Erməni baş nazir, həmçinin qeyd edib ki, "ölkələr bir-birinin infrastrukturundan bərabərlik və qarşılıqlılıq əsasında yararlansın".

"Forbes" vurğulayır ki, Paşinyanın söylədikləri gözəl səslənir. Lakin bu, yalnız o halda işləyə bilərdi ki, Ermənistan Azərbaycan, Rusiya və Türkiyə tərəfindən bərabərhüquqlu tərəfdaş kimi qəbul edilsin. Hər üç oyunçunun isə özləri üçün daha yaxşı şərait yaratmaq imkanı var və onların mövcud istiqamətdə çalışacaqları şübhə doğurmur. Dolayısı ilə, jurnal Paşinyanın təklif verəcək və onu qəbul etdirəcək potensialda olmadığını vurğulayır. Nəşr məqaləsində onu da bildirir ki, İrəvanın dörd dənizə və iki okeana eyni dərəcədə rahat çıxış əldə etmək ideyası yalnız özünə lazımdır. Erməni politoloq Sergey Melkonyanın da dediyi kimi, Naxçıvan ticarət yollarının kəsişməsi kimi kifayət qədər münasibdir, Ermənistan isə dörd sərhədindən ikisi açıq olan nəqliyyat dalanıdır.

***

"Forbes"in yazdığına görə, Paşinyanın təklifi cəlbedici olsa da, Zəngəzur dəhlizi ideyasının klassik qoyuluşuna, daha doğrusu, Ermənistan ərazisindən özünə sərfəli şərtlərlə keçməyə artıq ehtiyac duymayan Bakı, prinsip etibarilə, İrəvanla sülh müqaviləsindən imtina edə bilər. Belə bir hal yaşansa, Ermənistanda vəziyyət tamamilə acınacaqlı olacaq. Çünki ölkənin nəqliyyat kommunikasiyaları yoxdur, Qarabağ əlindən çıxıb, Rusiya ilə münasibətləri korlanıb. Üstəlik, Azərbaycanla sərhəddəki vəziyyət təhlükəli olaraq qalır. Mövcud şəraitdə İrəvanın ata biləcəyi yeganə addım, bacardığı qədər, Gürcüstan və İranla münasibətləri gücləndirmək olacaq.

"Forbes" analitiklərinin qənaətincə, Bakının İran ərazisindən keçməklə Naxçıvana yol açacağı təqdirdə, Ermənistan üçün nisbətən yaxşı addım bu olar ki, ölkə Azərbaycanla bir-birinin ərazi bütövlüyünü tanımaqla, amma kommunikasiyaların açılmasını nəzərdə tutmayan sülh sazişi imzalasın. Belə olan halda İrəvanın Türkiyə ilə sərhədi açmaq imkanı qalacaq. Hələlik Ankaradan gələn siqnallar göstərir ki, bunun mümkünlüyü yalnız Bakı–İrəvan sülh razılaşmasından asılıdır. Digər tərəfdən, "Forbes" vurğulayır ki, Azərbaycanın 2009-cu ildə Ermənistanla Türkiyənin yaxınlaşmasına birbaşa müdaxilə etməsinə dair presedent var və prinsipcə heç nə Prezident İlham Əliyevə bunu təkrarlamağa mane olmur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Paris Qarabağ “orbitindən” uzaqlaşdırılır

## Bu, son iki ayda Bakının yeritdiyi uğurlu xarici siyasətin nəticəsidir

**Cənubi Qafqazda yeni münaqişə ocağı yaratmaqda maraqlı olan Fransanın Avropa İttifaqının xətti ilə reallaşdırmağa çalışdığı “planlar” baş tutmadı. Bölgəni oda bürüməklə “bir güllə ilə iki dovşanı vuracağına” ümidlənən Paris indi nəinki burnunun ovulduğu Qafqazda, “köhnə qitə”nin özündə belə ciddi qınaq obyektinə, məzəmmət ünvanına çevrilib. Ölkəsindəki erməni diasporunun təsiri altında impulsiv hərəkətlərə yol verən Fransa prezidenti Emmanuel Makron artıq Avropa İttifaqındakı dünənki tərəfdaşlarının tənqid və ittihamlarını eşitməyə məcburdur.**




### “Avropa İttifaqı öz tələsinə düşüb”

Fransanın Cənubi Qafqaz regionunda fəallaşmasına “stimul” verən əsas amilin bu ölkədəki erməni diasporu olduğu hamıya bəllidir. Fəqət bu gün Avropanın nəhəng və qosqoca dövlətinin başında duranlar hərdən etnik ermənilərin ölkənin milli maraqları ilə üst-üstə düşməyən tələblərinə uymasına şahidlik edirik. Hazırda Avropa İttifaqı çərçivəsində Fransanın, yaxud Almaniyanın müstəqil siyasət yürüdə bilməyəcəklərini dilə gətirən ekspertlər, politoloqlar bu zaman vurğunu məhz birinci ölkənin üzərinə yönəldirlər.

Mövzu ilə bağlı alman politoloq Aleksandr Rarın “NEWS.am”-ın əməkdaşının suallarına verdiyi cavablar maraq doğurur. “Avropa ölkələri arasında geosiyasi xarakterli məsələlərin birgə həlli ilə bağlı müəyyən razılıq var. Hazırda Qafqazda baş verənlər isə çox ciddi geosiyasi hadisələrdir. Buna görə də Fransa Avropa İttifaqının genişləndirilmiş əməkdaşlıq sahəsi üzrə özünün müstəqil siyasətini yeridə bilməz. Çünki bu sahəyə Ermənistan və Azərbaycan da aiddir. Avropa ölkələrinin sanki özləri qurduqları tələyə düşmüş vəziyyətdədirlər. Onlar, elə bil, hər zaman saatlarını Aİ-nin aparıcı dövlətlərinin saatı ilə tutuşdurmalı olurlar. Hərçənd, bu, o qədər də asan məsələ deyil. Axı, ortada müxtəlif ölkələrin bir-birindən fərqli maraqları var” – deyən almaniyalı ekspert hesab edir ki, Ermənistanı və Azərbaycanı Rusiyanın təsir dairəsindən çıxarmağa çalışan Qərb KTMT (Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı–red.) və AİI-yə (Avrasiya İqtisadi İttifaqı –red.) qarşı işlər görür. Amma bu işlərin axırının Aİ-nin özü üçün pis nəticələnəcəyini istisna etməyən Rar Qərbin Qafqazda nüfuzunun xeyli aşağı düşdüyünü bildirir. Burada Fransanın “ayı xidməti”nin üzərindən sükutla keçən almaniyalı siyasətçi Avropanın soyuq və məntiqli düşünəcəyi təqdirdə, ona bölgədə ikinci “qaynar nöqtə” lazım olmadığını bildirir. Çünki hesab edir ki, yeni münaqişənin fəsadlarından biri də “köhnə qitə”yə kütləvi mühacir axınının üz tutması ola bilər.

Alman dəqiqliyi və soyuqqanlılığı ilə yanaşanda, həqiqətən də, indiki durumda Aİ Rusiya və Qərb arasında Qafqazda təzə qarşıdurma nöqtəsinin, “ikinci Ukrayna”nın yaranmamasından ötrü əlindən gələn hər şeyi etməlidir.

### Qafqazda nə edəcəklərini bilməyənlər

Brüsseldə, eləcə də vaxtaşırı müxtəlif ölkələrdə özünün sammitlərini keçirən Aİ Şurasının prezidenti Şarl Mişel Bakı və İrəvan arasında sülh danışıqlarında vasitəçi olmaqdan vaz keçməyib. Doğrudur, münaqişənin son həll mərhələsi barədə onun ikibaşlı və ermənipərəst açıqlamaları rəsmi Bakının xoşuna gəlmədi və bu, diplomatik tərzdə cənab Mişelin diqqətinə çatdırıldı. İndi Aİ özünü nüfuzlu, sözükeçən qurum kimi göstərməyə çalışır. Bununla onu demək istəyir ki, o, Rusiya və ABŞ-la yanaşı, bölgədə çətin məsələlərin həllində aparıcı rol oynamağa qadirdir.

Əgər Avropa, doğrudan da, münaqişəyə birdəfəlik son qoymaq, kompromis tapmaq, və Cənubi Qafqazın tərəqqisinə töhfə vermək barədə düşünsəydi, Fransanın Azərbaycana qarşı açıq qərəzli və tərəfli siyasətinə qarşı çıxar, Parisin Aİ-dəki təkqütblü idarəetməsinə son qoyardı. Yoxsa, təqaüddəki fransız və alman polis və hərbçilərindən ibarət yarımülki missiyasını Ermənistanın Azərbaycanla sərhəd zolağına yerləşdirməklə, heç nəyə nail ola bilməyəcək. Nəhayət, avropalılar tərəflərə bu münaqişəni dondurmaq deyil, həll etmək niyyətində olduqlarını nümayiş etdirməlidirlər.

**Aleksandr Rar “NEWS.am”-a müsahibəsinin sonunda belə bir qənaətə gəlir ki,** bu gün avropalılar



Qafqazda nə edəcəkərini bilmirlər. Çünki onların vahid konsepsiyası və resursları yoxdur. ABŞ-ın özüməxsus geosiyasətinin olduğuna diqqəti yönəldən alman politoloq Vaşinqtonun başının Ukrayna cəbhəsinə möhkəm qarışdığına görə, bütün diqqətinin orda, bir də Şərqdə– Çinin üzərində cəmlədiyini deyir. Əlbəttə, məlum savaşdan kimin qalib ayrılacağını demək çətindir, amma qazanan tərəfin Çin olacağını düşünənlər də az deyil.

Hələ 2020-ci ilin avqustunda, İkinci Qarabağ müharibəsindən bir ay əvvəl Aleksandr Rar “Valday” klubunda aparılan diskussiyalarda bildirmişdi ki, ingilislərin və fransızların yüz il bundan əvvəl çəkdikləri Yaxın Şərqin xəritəsi artıq köhnəlib və ciddi suallar doğurur. Cənubi Qafqazın da həmin siyahıda yer aldığını söyləyən alman politoloq Avropanın regiona ciddi diqqət ayırmadığını etiraf edirdi: “Qafqazlıların Avropa haqqında təsəvvürləri yanlış, Avropada isə bütövlükdə Cənubi Qafqaz, konkret olaraq Azərbaycan barədə səhv qənaətdədirlər. Yadımdadır, keçən əsrin doxsanıncı illərində biz bir-birimizə yaxınlaşırdıq. İntəhası, bir-birimizi başa düşmədik. Amma, misal üçün, çinlilər avropalıların nəbzini tutmağı bacardılar, onları anlaya bildilər və yeni layihələr təklif etdilər. Avropanın problemi düzgün konsepsiyaya malik olmamasıdır”. Aleksandr Rar bir məsələnin onu daim düşündürdüyünü bildirirdi: “Azərbaycan, Orta Asiya ölkələri və bütün postsovet məkanı Avropa İttifaqından iqtisadi əməkdaşlıq gözləyirdi. Bu isə cənub sərhədlərindəki təhlükəni nəzərə almaqla, təhlükəsizliyin arxitekturasının birgə inşası demək idi. Fəqət Avropa Qafqazla münasibətlərini “ali dəyərlər və ali əxlaq” mövqeyindən seçməklə böyük səhvə yol verdi. Qərbi Avropa hesab edir ki, insan hüquqları məsələsində, guya, bütün planetin önündə gedir və dəyərlərin liberal sisteminin yaradılması hər şeydən üstündür. Yəni, “köhnə qitə” geosiyasi cəhətdən düşünməyi yadırğadı. Bu isə böyük səhvdir”.

### Paris indi kimə möhtacdır?

Aleksandr Rar bunları iki gün əvvəl deyib. Alman siyasətçinin üç il bundan öncə söylədikləri də bu gün öz aktuallığını saxlamaqdadır. Yəni, bölgədə reallıq dəyişib, amma Avropanın Qafqaza baxışlarında fərqli nəsə hiss olunmur. Özlüyündə ümumbəşəri dəyərlərin “qoruyucusu” missiyasına iddia edən Avropa Qafqaza və Orta Asiyaya yanaşmasında yerli və milli özəllikləri nəzərdən qaçırdı. Aydın məsələdir ki, Azərbaycan kimi, postsovet coğrafiyasındakı digər respublikalar da Avropa ilə fərqli münasibətlər qurmağı arzulayırdı. Onlar heç də “Qərb demokratiyasının şagirdləri” olmaq barədə düşünmürdülər. Fransanın dominantlıq etdiyi Avropa İttifaqı isə otuz il əvvəl tutduğu kursu dəyişməyə tələsmir. “Köhnə qitə”nin başbilənləri Qafqaz siyasətinə korrektələrin edilməsi zərurətini anlayanda çox gec ola bilər.

Taleyin ironiyasına baxın ki, Azərbaycanla ultimativ tonda danışmağa vərdiş etmiş ermənipərəst Paris indi təbii sərvətlərini satın almaqdan ötrü Qazaxıstanın və Özbəkistanın ayağına gəlir. Yəni, özünün enerjiyə olan tələbatını ödəməkdən ötrü Fransa türkdilli respublikaların qapısını döymək məcburiyyətində qalıb. İşğalçının, separatçının yanında dayananlara, haqqı və ədaləti unudanlara tarixin verdiyi dərs bu cür olur.

***İmran BƏDİRXANLI***
***XQ***

**Ekspert rəyi**



**Tofiq ABBASOV,**
**siyasi şərhçi:**

**İstər ABŞ, istərsə də Avropa İttifaqı İrəvana göstərmək istəyirlər ki, biz sizin yanınızdayıq. Yəni heç vaxt sizi tək qoymayacağıq. Əslində, həmin ABŞ-ın İrəvandakı səfirindən soruşmaq lazımdır ki, məgər Azərbaycan tərəfindən Ermənistanın ərazi bütövlüyünə təhdid var? Həm ABŞ, həm Fransa, Avropa İttifaqına daxil bəzi ölkələr, eləcə də Kanada bütün dünyaya göstərməyə çalışırlar ki, Azərbaycan “təhlükə istehsal edən məmləkətdir” və ona görə də Ermənistanı tək buraxmamalıyıq.**

**Bəli, Qərbin əsas istəyi ondan ibarətdir ki, Cənubi Qafqaz yenidən alova qərq olsun. Məhz bu səbəbdən Fransa bir ucdan Hayastanı silahlandırmaqla məşğul idi. Ardınca Hindistanı da bu oyuna qoşdular. Şərqi Avropa dövlətlərindən bəziləri də İrəvanla həmrəy olduqlarını göstərir, arxalarında duracaqlarını bildirirdilər. Hərçənd Azərbaycan qonşusuna heç bir təhdid yaratmırdı. Rəsmi Bakı ən yüksək səviyyədə bəyan edib ki, bizim Ermənistan ərazisində gözümüz yoxdur. İrəvandan fərqli olaraq, Bakı qonşu dövlətin ərazisinə qarşı hər hansı iddia irəli sürmür. Həmin avropalı missionerlər hər şeyi özlərinin arzuladığı kimi qələmə verməklə, erməniləri hərbi qarşıdurmaya təhrik edirdilər. Yeni münaqişədə isə planları Azərbaycanla yanaşı, Türkiyəni, Rusiyanı və İranı da günahkar çıxarmaq idi. Fransa müşahidə missiyası adı altında özünün hərbi kontingentini bölgəyə gətirməyə can atırdı. Amma, bu, baş tutmadı. Bakı qətiyyətli və uğurlu diplomatik gedişləri ilə, Fransa başda olmaqla, Qərbin və okeanın o tayındakı ermənipərəst qüvvələrin məkrli niyyətlərini gözlərində qoydu. Buna onların “kollektiv məğlubiyyəti” də demək olar.**

# Anklavlara “sülh sazişi” aydınlıq gətirəcək

## “Ermənistan tarixi” dərsliyində Qarabağ Azərbaycanın tərkibindədir

**(əvvəli 1-ci səhifədə)**

2023-cü ilin may ayında Paşinyan parlamentdəki çıxışında anklavlar mövzusuna bu cür aydınlıq gətirməyə çalışmışdı: “Bu məsələnin siyasi və hüquqi tərəfi var. Münxen və Brüssel formatlarında siyasi danışıqlar zamanı belə bir məqam oldu. Yəni biz qarşılıqlı olaraq anklavların, yəni Ermənistan Respublikasına aid olan Başkəndin və hazırda Azərbaycanın ərazimizdəki anklavların mövcudluğunu tanıyırıqmı? Bəs Azərbaycana aid olan Ermənistan ərazisi? Bəli, biz bunu siyasi səviyyədə tanıyırıq”.

Başqa sözlə, Hayastan baş naziri problemin həlli kimi anklavların dəyişdirilməsi variantını da yada salıb. Onu da qeyd edək ki, rəsmi İrəvan sülh sazişinin imzalanmasına əminliyini Azərbaycanla üç önəmli prinsip üzərində anlaşmanın əldə olunması ilə əsaslandırmağa çalışır. Əslində, bunu Ermənistanın mövqeyində pozitiv irəliləyiş saymaq olar. Aşağıdakı fakt bu pozitiv düşüncənin qonşu toplumun və onun önündə gedənlərinin alt şurunda oturuşmağa başlamasının əyani sübutu kimi qəbul olunmalıdır. Orta məktəblərin 7-ci sinif üçün “Ermənistan tarixi” dərsliyində Qarabağın Azərbaycanın tərkibində göstərilməsi bunun bariz təzahürüdür.




**“Sülh sazişi imzalananda anklavlar məsələsinə də tam aydınlıq gətiriləcək”. Bu sözləri iki gün bundan əvvəl parlamentdə jurnalistlərlə söhbətində Ermənistanın ərazi idarəetmə və infrastruktur naziri Gnel Sanosyan deyib.** Erməni nazirin sözlərinə görə, sülh müqaviləsi imzalananda onun müddəalarından biri sərhədin delimitasiya və demarkasiyası prosesi olacaq. Həmin məsələlərin mövcud hüquqi əsaslara söykənərək nəzərdən keçiriləcəyini nəzərə çatdıran Sanosyan anklav, yaxud ərazi üçün hüququn şərtlərinə müraciət olunmasını vacib sayır. “Onların kəndləri bizim ərazimizdə, bizim kəndimiz də onların ərazisindədir” – deyən nazir hökumətlərarası komissiyaların bu istiqamətdə müəyyən işi gördükdən sonra bu məsələnin hərtərəfli müzakirə olunacağını və konkret qərara gəlinəcəyini vurğulayıb. Sanosyan onların, ilk növbədə, Arsvaşen məsələsini də müzakirəyə çıxarmalı olduğunu deyib.



* * *

Oxucularımıza xatırladaq ki, Sanosyanın Arsvaşen adlandırdığı kənd sovetlər dönəmində Azərbaycanın Gədəbəy rayonu ərazisində ermənilərin yaşadığı Başkənddir. Mediaya verdiyi açıqlamada rəsmi Bakının geri alacağı anklavlarda sərhəd-nəzarət buraxılış məntəqəsi quraşdırmaq niyyətində olduğunu bildirən nazir bu təqdirdə Ermənistanın Tavuş vilayətinin sakinlərinin digər rayonlara getməkdən ötrü Azərbaycan sərhəd məntəqəsində yoxlamaya məruz qalacaqlarını qeyd edib. Yeri gəlmişkən, nəzərdə tutulan sərhəd nəzarət-buraxılış məntəqəsinin Ermənistan–Gürcüstan beynəlxalq magistralı üzərində qoyulacağı ehtimal edilir. Ermənistan parlamentindəki müzakirələrdə bu faktı xatırladan deputatlar da anklavların Azərbaycana qaytarılacağı halda, Ermənistanın Gürcüstan və İrana yollarının Bakının tam nəzarəti altına keçəcəyindən narahatlıqlarını bildiriblər. Bir faktı da yada salaq ki, həmin kəndlər SSRİ dövründə aparılan qeyri-qanuni delimitasiya işləri zamanı Azərbaycanın əsas hissəsindən ayrılaraq Ermənistana verilib.

Daşnakların elektron media tribunası sayılan “armenianweekly” saytında Benyamin Poqosyanın “Azerbaijan’s new shopping list” (“Azərbaycanın yeni alış-veriş siyahısı”) adlı məqaləsi dərc edilib. Həmin məqalədə diqqət çəkən məqamlardan biri məhz anklavlarla bağlıdır. Müəllif yazır ki, Nikol Paşinyan Azərbaycan ərazisini Alma-Ata Bəyannaməsinə əsasən, 86,600 kvadrat kilometr kimi tanıyır. “Bu isə o deməkdir ki, hazırda Ermənistanın nəzarətində olan Azərbaycan anklavları (söhbət 7+1 kənddən gedir – red.) geri qaytarılmalıdır” – yazan Poqosyanın fərziyəsinə görə, ümumi sahəsi 109 kvadrat kilometr olan səkkiz kəndi Ermənistan könüllü şəkildə qaytarmasa, Azərbaycan hərbi yola əl ata bilər.

**ARAYIŞ:** vikipediya açıq platformasının tərtib etdiyi yeni xəritədə Qazaxın 7 kəndi anklav kimi deyil, Azərbaycanın əsas ərazisinə birləşdirilmiş formada təsvir edilib. Hazırda Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Qazaxın 7 yaşayış məntəqəsi – Sofulu, Barxudarlı, Bağanis-Ayrım, Qızıl Hacılı, Yuxarı Əskipara, Aşağı Əskipara və Xeyrimli kəndləri Azərbaycanın Ermənistan ərazisindəki anklavları olsa da, yeni xəritədə “quru yolla” ölkəmizə birləşdirilib.

Həmin kəndlər sərhəddə, bir-birinə yaxın məsafədə, həm də olduqca önəmli mövqedə yerləşir. 1920-ci ildə Ermənistana verilən Başkənd isə sərhəddən 8 kilometr içəridə, dəniz səviyyəsindən 1500 metr hündürlükdə yerləşir. Əslində, Ermənistandan Başkəndə dağlıq ərazidən gələn yol keçilməz, kənd isə yaşayış üçün əlverişsizdir. Üstəlik, dörd tərəfdən Azərbaycan kəndləri ilə əhatə olunub. Eyni zamanda, məlumat üçün onu da qeyd edək ki, həmin 7 kənd 1990–1992-ci illərdə Ermənistan ordusu tərəfindən işğal edilib.

* * *

Müzakirələrə və mübahisələrə səbəb olacaq nüanslarla sülhə doğru irəlilədikcə Hayastanın bəzi məsələlərdə anlayış göstərməsi təqdir olunası haldır. Elə Qarabağın Azərbaycan ərazisi kimi yazıldığı həmin “Ermənistan tarixi” dərsliyi sağlam yanaşmanın, normal düşüncənin təzahürü hesab edə bilərik. Digər tərəfdən isə hüquqi nonsens ondadır ki, qonşuların mövcud konstitusiyasına əsasən, “Dağlıq Qarabağ” Ermənistana məxsusdur. İrəvanda isə hələ də “Dağlıq Qarabağ nümayəndəliyi” fəaliyyət göstərir. Bəs, bu hüquqi-siyasi yanlışlıqlar nə zaman aradan qaldırılacaq? Nə qədər ki, gözümüzün önündəki bu qeyri–reallıq dəyişməyib, iki xalq arasında barışığa nail olmaq çətin, sülh müqaviləsinin imzalanması isə müşkül olacaq.

Azərbaycanın sabiq xarici işlər naziri Tofiq Zülfüqarov haqlı olaraq hesab edir ki, Ermənistanın hazırkı konstitusiyası hüquqi baxımdan sülh müqaviləsinin imzalanmasını mümkünsüz edir. Ona görə ki, Paşinyan Qarabağı Ermənistanın tərkib hissəsi sayan konstitusiyaya dəyişiklik etmək səlahiyyətinə malik deyil. “Bizim Ermənistanda danışacaq kimsə yoxdur, çünki, siyasi elita cinayət törətdiyini anlamır. Nə üçün biz Paşinyanın və ya başqasının quru sözünə inanmalıyıq? Qoy onda Şarl Mişel desin ki, Ermənistan referendum keçirməli və bu hüquqi iddiaları aradan qaldırmalıdır”– deyən T.Zülfüqarovla razılaşmamaq mümkün deyil.

***İ.HƏSƏNQALA***
***XQ***



# Ulu öndər gənclərin timsalında dövlətin gələcəyini görürdü

## O, 1992-ci ildə Naxçıvandan 75 gənci Türkiyədə ali təhsil almağa göndərdi

**1992-ci ili həyatımın ən ziddiyyətli ili hesab edirəm. Çünki həmin il kədərlə sevinci, təəssüflə uğuru, ümidsizliklə ümidi bir arada yaşadım. Bir tərəfdən ermənilərin Naxçıvan iddialarının yenidən alovlanması, qədim diyara hücumların artması, ardı-arası kəsilməyən şəhid xəbərləri, yurdumuzun işğal təhlükəsi, digər tərəfdən, çoxsaylı sosial problemlər, işığın, qazın olmaması, çörəyin də qıta çəkilməsi... Belə bir vəziyyətdə mənim kimi, onlarca naxçıvanlı yeniyetmə universitetlərə qəbul imtahanlarına hazırlaşırdı. Qışın çox sərt keçdiyi, dizə qədər qarın yağdığı həmin günlərdə gecələr lampa işığında dərs oxuyur, səhərlər, necə deyərlər, buz kimi siniflərdə dərs keçirdik. Bəzən soyuqdan əllərimiz qələm tuta bilmirdi, bəzən isə qələm də soyuqdan yazmırdı... Gələcəyə isə ümidimizi heç vaxt itirmirdik. Çünki Naxçıvanda Heydər Əliyev kimi ümid yerimiz, söykənəcəyimiz bir dağ var idi. Təsadüfi deyil ki, belə bir çətin vəziyyətdə 75 gənc məhz Ulu öndərin təşəbbüsü ilə Türkiyəyə təhsil almağa göndərildi...**

Həmin il Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyən dahi şəxsiyyət martın 22-24-də Türkiyə Cümhuriyyətində səfərdə oldu və martın 24-də Ankarada diyarımız üçün çox əhəmiyyətli olan 13 maddədən ibarət "Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında işbirliyi protokolu" adlı müqaviləni imzaladı. Həmin müqavilədə 1921-ci il oktyabrın 13-də imzalanmış Qars müqaviləsi ilə Ankaranın üzərinə düşən öhdəliklər, Türkiyənin muxtar respublikanın təhlükəsizliyinə zəmanət verməsi məsələsi bir daha qeyd olundu. Burada, həmçinin Türkiyənin "Eksibank"ının qədim diyara 100 milyon ABŞ dolları dəyərində kredit verməsi, qardaş ölkənin dəstəyi ilə naxçıvanlı gənclərin Türkiyənin müxtəlif universitetlərində təhsil alması da nəzərdə tutulurdu.

Türkiyədən Naxçıvana gələn yüksək tələbə seçim qurumunun səlahiyyətli nümayəndələrinin iştirakı ilə 1992-ci il iyulun 4-də ölkəmizdə ilk dəfə test üsulu ilə imtahan keçirildi və təhsil almaq arzusunda olan 357 gəncdən 75 nəfəri Türkiyənin müxtəlif universitetlərinə qəbul oldu. Həmin gənclər arasında mən də var idim. Təbii ki, bunu öyrənəndə sevincimin həddi-hüdudu yox idi. Türkiyəyə yola düşməzdən əvvəl Ulu öndər ilə görüşəcəyimizi öyrəndikdə isə fərəhdən uçmağa qanadımız olmadı.

"Şərq qapısı" qəzetinin 7 oktyabr 1992-ci il tarixli nömrəsində geniş işıqlandırılan həmin görüş 1992-ci il oktyabrın 5-də Naxçıvan MR Ali Məclisinin iclas zalında baş tutdu. Ümummilli lider genişməzmunlu çıxışında Türkiyə universitetlərinə qəbul olan naxçıvanlı gəncləri təbrik etdi, bizə uğurlar arzuladı: "Türkiyənin universitetlərində yüksək təhsil sistemi var. Orada hazırlanan mütəxəssislər Azərbaycanın, o cümlədən, onun tərkib hissəsi olan Naxçıvanın gələcəyi üçün çox gərəklidirlər... Gənclərin Türkiyə universitetlərində təhsil alması, mən sizi inandırıram ki, Türkiyənin bizə ayırdığı 100 milyon dollar kreditdən də, göstərdiyi cürbəcür yardımlardan da çox-çox qiymətlidir. Çünki bu işin qiymətini heç bir pul, maddi dəyər ilə ölçmək olmaz. Bu bizim xalqın gələcəyidir, Naxçıvanın gələcəyidir, onun intellektual potensialıdır. Bu, bir də ona görə əhəmiyyətlidir ki, biz indi Azərbaycanda yeni dövlət quruluşu və eyni zamanda, yeni siyasi və iqtisadi sistem yaratmaq yolundayıq. Yeni siyasi və iqtisadi sistem, yeni sosial quruluş isə şübhəsiz ki, özünə uyğun mütəxəssislər tələb edir. Bu işdə isə Türkiyənin təcrübəsi çox böyükdür..."

Qeyd etdiyimiz kimi, həqiqətən də, o vaxtlar Naxçıvan çox çətin dövrünü yaşayırdı. Blokada və üstəlik müharibə şəraitində yaşayan, insanların normal yaşaması üçün zəruri ərzaq məhsullarına böyük ehtiyac duyduğu Naxçıvanda gənclərin yüksəkixtisaslı kadr kimi yetişmələrinə diqqət yetirilməsi bəzilərinə təəccüblü gələ bilərdi. Amma Ulu öndərimiz təkcə bu günü deyil, gələcəyi də düşünürdü. Dahi şəxsiyyət qeyd edirdi ki, mövcud şəraitdə tələb olunanlar bu gün üçün, təhsilli gənclər yetişdirmək isə gələcək üçün çox vacibdir. Təhsilsiz heç bir millətin gələcəyi yoxdur. Ona görə də Ulu öndər bizə yüksək ali təhsil almağı və hazırlıqlı kadr kimi Vətənə dönməyi, eyni zamanda, mənəvi dəyərlərimizə sadiq qalmağı tövsiyə edirdi: "Biz arzu edərdik ki, gənclərimiz orada bütün imkanlardan istifadə edib yüksək elmə, yüksək ixtisasa yiyələnsinlər. Bilməlisiniz ki, siz, sadəcə olaraq, orada təhsil almağa yox, Azərbaycanın gələcəyi üçün oraya göndərilirsiniz. Ona görə də bütün universitetlərin imkanlarından istifadə edib yüksək təhsil almaq lazımdır. Siz orada Azərbaycan xalqına xas olan yüksək tərbiyə, yüksək mədəniyyət, yüksək mənəviyyat nümunələri göstərməlisiniz. Türkiyənin həyatında olan bütün müsbət nümunələrə, adət-ənənələrə yiyələnməlisiniz".

Biz gənclər Ulu öndərin ata nəsihətindən qeyri-adi güc alırdıq. Hər birimizdə oxumağa, öyrənməyə olan həvəs birə on qat artırdı. Artıq zəif, kövrək duyğular bizi tərk etmiş, yerini gələcəyə olan inam almışdı...

1992-ci il oktyabrın 29-da – Türkiyə Cümhuriyyətinin yaranmasının 69-cu ildönümündə biz – 75 tələbə avtobuslarla Naxçıvan ilə İğdırı birləşdirən "Ümid" körpüsünü keçərək qardaş ölkəyə çatdıq. Əvvəlcə Qarsda, sonra Ərzurumda olduq. Ərzurumdakı Atatürk Universitetində Ərzurum valisinin və universitetin rektoru da daxil olmaqla akademik heyətin, tələbələrin iştirakı ilə möhtəşəm tədbir keçirildi. Adını xatırlamadığım valinin "Qardaş ölkədən Heydər Əliyevin tələbələri xoş gəliblər!" sözlərini hər kəs ayaq üstə alqışladı. Xatırlayıram ki, tədbirdə bir neçə tələbə yoldaşım da çıxış etdi, onlardan birinin oxuduğu şeir alqışlarla qarşılandı.

Həmin ildən sonra Türkiyənin, demək olar ki, əksər universitetlərində ən yaxşı oxuyan və sosial fəaliyyət baxımından ən fəal olan tələbələr azərbaycanlılar idi. Bu həmin dövrdəki Türkiyə rəhbərliyinin də diqqətini cəlb etmişdi. Təsadüfi deyil ki, hər bayramda Türkiyənin Baş naziri, siyasi partiya liderləri azərbaycanlı tələbələrə təbrik məktubları göndərir, təhsilimizdə əldə etdiyimiz yüksək uğurlar barədə məlumatlandırıldıqlarını və bizimlə fəxr etdiklərini bildirirdilər.

1994-cü il fevralın 10-u idi. Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyəyə rəsmi səfəri çərçivəsində İstanbula gəlmişdi. İstanbulda dahi şəxsiyyətlə görüşmək, onu yaxından görmək xoşbəxtliyi mənə də nəsib olmuşdu. Dahi şəxsiyyətdən xahiş etdim ki, universitetlərdə qış tətili dövrü olduğu üçün mənim də rəsmi heyətlə birlikdə Azərbaycana getməyimə icazə versin. Böyük insan heç tərəddüd etmədən "Əlbəttə, gedə bilərsən", – dedi və bununla bağlı tapşırıq verdi. Bu zaman ətrafdakı bəzi səlahiyyətlilərin mənə tərs-tərs baxdığını, ancaq məcburiyyətdən gülümsədiklərini də hiss etdim. Çünki bundan əvvəl onlardan xahiş etmişdim. Cavab isə belə olmuşdu ki, tələbə olduğuma görə rəsmi heyətlə gedə bilmərəm.

Ulu öndərimiz ölkəmizin hələ gərginlikdən xilas olmadığı həmin dövrdə də tələbələrin təhsili və yaşayış şəraiti ilə maraqlanırdı. Bu məsələlərin diqqətdə saxlanılması üçün ölkəmizin Təhsil Nazirliyinə xüsusi göstəriş vermişdi. Qısa müddət sonra dahi şəxsiyyət tələbələrin əsas problemi barədə məlumatlandırıldı. Bu, Vətənə gəlmək və geri dönmək məsələsi idi. Heydər Əliyev dövlətin imkanı olan kimi bu məsələnin həll edilməsini əlaqədar qurumlara tapşırdı. Eşitdiyimizə görə, Türkiyədə Ümummilli lider təkrar bu məsələyə qayıdanda həmin məmurlar təəccüblərindən donub qalıblar. Məsələnin nə yerdə olduğunu soruşan dahi şəxsiyyətə deyəcək sözləri olmadığı üçün vəziyyətdən çıxmağa çalışıblar, ancaq alınmayıb. Sonra əlaqədar qurumların rəhbərləri belə bir təklif irəli sürüblər ki, Türkiyədə təhsil alan tələbələr təyyarə biletlərini yarı qiymətinə alsınlar. Ulu öndər isə çox sərt bir şəkildə deyib ki, tələbənin bu qədər pulu haradandır?! Və ardınca Türkiyədə təhsil alan yüzlərlə gəncin hər il bir dəfə heç bir məbləğ ödəmədən Vətənə gəlmələrinin təmin olunması barədə xüsusi göstəriş verib. Xatırlayıram ki, bu xoş xəbər Türkiyədə təhsil alan yüzlərlə azərbaycanlı tələbə tərəfindən hədsiz sevinclə qarşılanmışdı.

Vaxtilə Ulu öndərin Türkiyədə təhsil almağa göndərdiyi həmin 75 tələbə isə təhsillərini başa vurduqdan sonra Vətənə qayıdaraq müxtəlif sahələrdə çalışmağa başladı. Onlar əldə etdikləri bilikləri, öyrəndikləri qabaqcıl təcrübəni öz sahələrində tətbiq etdilər. Bu gün Heydər Əliyev yoluna sədaqətləri ilə seçilən həmin kadrlar arasında tanınmış həkimlər, müəllimlər, jurnalistlər, mühəndislər, dövlət məmurları və sair var. Hər biri türk xalqının öz millətinə, dövlətinə sədaqətini görərək və bunu nümunə kimi qəbul edərək xalqına, millətinə, dövlətinə böyük məhəbbətlə xidmət edir. Daim borclu olduqları böyük insan isə, təbii ki, ulu öndərimiz Heydər Əliyevdir. Onlardan biri də söhbətin əvvəlində də hiss etdiyiniz kimi bu sətirlərin müəllifidir:

*Rauf ƏLİYEV,*
*Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının sədri*

# Milli mədəniyyətimizin misilsiz himayədarı

**Qədim yunan filosofu Sokrat deyirdi: "Dahilər müzakirə olunmur, onlar öyrənilirlər". Ulu öndər Heydər Əliyevin də bənzərsiz şəxsiyyəti tarixi hadisədir və dahilik zirvəsində əbədi yer alıb. Şəxsiyyəti tarix yaratdığı kimi, belə şəxsiyyətin həyat və fəaliyyəti də silinməz-pozulmaz bir tarixə çevrilir.**



XX əsrin son onilliyində Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra respublikamızın ictimai-siyasi, sosial-mədəni həyatında misli görünməmiş dəyişikliklər başlandı. Müstəqilliyimizin ilk dövrlərində qarşıya çıxan çətinliklərə baxmayaraq, milli dövlətçilik qorunub saxlandı və möhkəmləndirildi. Bu misilsiz nailiyyət məhz Ulu öndər Heydər Əliyevin dahi şəxsiyyət kimi çoxcəhətli fəaliyyətinin, müstəsna xidmətlərinin nəticəsi olaraq tarixə həkk edildi.

Ulu öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə gəlməsi respublikamızda həyatın bütün sahələrində yeniləşmə və milliləşmənin konseptual əsaslarının yaradılmasına meydan açdı. Çoxəsrlik milli-mənəvi dəyərlərin yeni tarixi şəraitdə dəyərləndirib yaşamaq hüququ qazanması kimi önəmli məsələdə Ümummilli liderin müstəsna diqqət və qayğısı ilə ən yüksək səviyyədə gerçəkləşdirildi.

Müstəqilliyin əvvəllərində Azərbaycan məktəbi də mürəkkəb keçid dövrü yaşayırdı. Elm və təhsilimizin misilsiz himayədarı Heydər Əliyevin rəhbərliyi altında təxirəsalınmadan təhsil sahəsində köklü dəyişikliklər dövrü başlandı. Həmin dövrün iqtisadi çətinliklərinə baxmayaraq, bu sahəyə kifayət qədər maliyyə vəsaiti ayrıldı. Məktəblərin tədris-maddi bazası möhkəmləndirildi. Ulu öndərin qayğısı nəticəsində təhsil sahəsində milli inkişaf başlandı. Məktəblərdə kommunist ideologiyasının zərərli təsir və qalıqları aradan qaldırıldı. Azərbaycan məktəblərində milli təfəkkürün dövlətçilik platformasında yetişib formalaşması yoluna düşdü.

Yeni tədris proqramları, dərsliklər və digər tədris vəsaitləri hazırlandı. Heydər Əliyevin himayəsi ilə orta məktəblər üçün "Azərbaycan tarixi", "Ədəbiyyat", "Azərbaycan dili" və başqa fənlər üzrə milli orijinal dərsliklər hazırlanıb nəşr olundu. Ali məktəblər üçün də ilk dəfə "Azərbaycan tarixi", "Azərbaycan coğrafiyası", "Azərbaycan iqtisadiyyatı" və digər zəruri dərsliklər yaradıldı.

Respublikamızda yeni tipli məktəblər şəbəkəsi quruldu, onlar üçün müasir binalar tikilib istifadəyə verilirdi. Ulu öndərin atalıq qayğısının nəticəsində keçən əsrin sonlarında respublikamızda 4,5 mindən çox ümumtəhsil məktəbi fəaliyyətini yeni dövrə uyğunlaşdırdı. Bu məktəblərdə yarım milyondan çox şagirdin təhsili yüksək səviyyədə yoluna qoyuldu. Bunlardan əlavə, respublikamızda xeyli müasir lisey və gimnaziya da fəaliyyətə başladı.

1993-cü ildə ali məktəblərimizdə ikipilləli təhsilə – bakalavr və magistr sisteminə keçildi. Heydər Əliyevin 2000-ci il iyun ayının 13-də verdiyi fərmanla ölkəmizdə ali təhsilin inkişafında yeni dövrün əsası qoyuldu. XX əsrin son illərində Azərbaycanda dövlət ali təhsil müəssisəsinin sayı 18-dən 28-ə yüksəldi. Ali məktəblərdə 120 mindən çox tələbənin təhsil almasına normal şərait yaradıldı. Onların arasında 30-dan çox xarici ölkənin 2 minədək vətəndaşı var idi. Təhsil sahəsində beynəlxalq əlaqələr də genişləndirildi.

Azərbaycan milli mədəniyyətinin inkişafı, müasir dövrdə bəşəriyyət tarixində qabaqcıl yer tutması da Ulu öndərin müqəddəs və unudulmaz adı ilə qırılmaz surətdə bağlıdır. 1993-cü ildə türkdilli ölkələrin mədəniyyət nazirlərinin daimi qurumu – TÜRKSOY yaranında onun ayaq açıb yeriməsinə Prezident Heydər Əliyev böyük dəstək verdi. Ulu öndərin təşəbbüsü ilə Azərbaycan 1996-cı ilin dekabr ayında UNESCO ilə əməkdaşlıq haqqında memorandum imzaladı. 1997-ci ilin yayında isə müstəqil dövlətimiz Avropa Mədəniyyət Konvensiyasına qoşuldu.

Xalqımızın qədim tarixini özündə əks etdirən epoxal söz abidəsinin – "Kitabi-Dədə-Qorqud" dastanının 1300 illiyini dünya miqyasında qeyd etmək üçün 1997-ci il aprel ayının 20-də Prezident Heydər Əliyev fərman imzaladı. Həmin unudulmaz yubiley 2000-ci il aprel ayında böyük təntənə ilə qeyd olundu. Prezident Heydər Əliyev mərasimdə bütün dünyaya bəyan etdi: "Kitabi-Dədə Qorqud bizim ana kitabımızdır. Dədə Qorqud bizim ulu babamızdır, əcdadımızdır. Biz fəxr edirik ki, "Kitabi-Dədə Qorqud" kimi ulu əcdadımız vardır".

Ulu öndər mədəniyyətimizə, musiqimizə ən dəyərli mənəvi sərvət kimi baxır və onların inkişafına hərtərəfli köməklik göstərirdi. O, Azərbaycanın zəngin mədəniyyəti ilə fəxr edirdi. 1998-ci ildə dövlət başçısının xoş məramı ilə M.F.Axundzadə adına Respublika Kitabxanası milli statusu aldı. Prezident Heydər Əliyevin göstərişi ilə XX əsrin son onilliklərində Azərbaycanın görkəmli mədəniyyət xadimlərinin ev muzeyləri yaradıldı.

Azərbaycan Milli Elmlər Akademiyası, onun nəzdində olan institutların milli elm və mədəniyyətimizin inkişafında mühüm yer tutması hər an Prezident Heydər Əliyevin diqqət mərkəzində idi. AMEA-nın institutları və digər elmi tədqiqat müəssisələri öz fəaliyyətlərində Ulu öndərin qarşıya qoyduğu vəzifələri layiqincə yerinə yetirir, mədəni inkişafımıza dəyərli töhfələr verir.

XX əsrin sonu – XXI əsrin ilk illərində milli mədəniyyətimizin bütün sahələrində Ulu öndər Heydər Əliyevin əvəzolunmaz xidmətləri çağdaş tariximizin ən parlaq və öyünclü səhifələrini təşkil edir. Biz Azərbaycan ziyalıları, bütün xalqımız mədəni inkişafımızda qazanılan uğurlar üçün Ulu öndərin ölməz xatirəsi qarşısında baş əyirik.

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin təhsil, elm, mədəniyyət sahələrində xalqımızın qarşısında qoyduğu tarixi vəzifələri Azərbaycan Prezidenti İlham Əliyev uğurla həyata keçirir. Ulu öndərin ən layiqli davamçısı olaraq cənab İlham Əliyev Qarabağı düşmən tapdağından xilas edib xalqımıza qaytarmaqla Şuşa kimi nadir bir tarix incisini ölkənin mədəniyyət paytaxtına çevirməklə Heydər Əliyevin müqəddəs ruhunu ən yüksək səviyyədə sevindirdi, onun mədəniyyət hamisi kimi yüksək missiyasını tarixi bir zirvəyə yüksəltdi.

*Yunis HÜSEYNOV,*
*tarix üzrə fəlsəfə doktoru,*
*Şuşa köçkünü*

# Qriqoryanın Malta səfəri

## yaxud Ermənistanın anti-Rusiya siyasətində yeni element

**Ermənistanın dövlət səviyyəsində apardığı anti-Rusiya siyasəti yeni “elementlər” qazanmaqdadır. Məlum olduğu kimi, bu il sentyabrın əvvəlində ölkənin baş naziri Nikol Paşinyanın həyat yoldaşı  Anna Akopyan Ukraynaya səfər etmiş, paytaxt Kiyevdə keçirilmiş  “Birinci xanımlar və cənablar” Sammitinə qatılmışdı. Akopyan, həmçinin, özü ilə ukraynalı məktəblilərə humanitar yardım da aparmışdı.**



Əlbəttə, ilk baxışdan burada qeyri-adi bir şey olmasa da, məsələ Rusiyanın siyasi dairələrində kəskin reaksiya doğurmuşdu. Mənfi reaksiyanın yaranmasına Qərb mediasının təhlilləri də əsas vermişdi. Qərb mediası Akopyanın səfərini Ermənistanın Rusiyaya qarşı növbəti demarşı kimi qiymətləndirmiş və müəyyən mənada birincini öyən ritorikaya üstünlük vermişdi. Hətta, iş o yerə çatmışdı ki, Paşinyan iqtidarı ölkənin birinci xanımının Kiyevə getməsini, sadəcə olaraq, humanitar məqsədli davranış kimi səciyyələndirmək yolu tutmuş və beləliklə gərginliyi yumşaltmaq, üzərindəki Rusiya təzyiqini neytrallaşdırmaq istəmişdi. Amma, necə deyərlər, sonradan atılan daş topuğa dəyər.

Əlqərəz, indi vəziyyət daha mürəkkəbdir. Ermənistan iqtidarı ölkənin təhlükəsizlik şurasının katibi Armen Qriqoryanın Maltaya səfərinə heç bir humanitar görkəm verə bilməyəcək. Kor-kor, görgör, hər şey ortadadır. İrəvan Ukrayna platformasını zənginləşdirmək yolunu tutmaqdadır. Söhbət Ermənistanın A.Qriqoryanın şəxsində rəsmi Kiyevin təşəbbüsü ilə Avropanın bu cırtdan ölkəsində təşkil edilmiş və Ukrayna Prezidenti Volodimir Zelenskinin irəli sürdüyü “Sülh qətnaməsi” ilə bağlı müzakirələrdə təmsil olunmasından gedir.

Ukrayna ikigünlük konfransdan konkret nəticələr gözləyir və istəyir ki, Rusiya hakimiyyətini mühakimə etmək üçün xüsusi tribunal yaradılsın. Tribunaldan söz düşmüşkən, məlum olduğu kimi, Ermənistan bir neçə həftə əvvəl Beynəlxalq Cinayət Məhkəməsinin Roma statutuna rəsmi şəkildə qoşuldu. Əvvəl ölkə parlamenti sözügedən sənədi ratifikasiya etdi, ardınca statutun Ermənistanın yurisdiksiyasının tərkib hissəsi olduğunu təsdiqləyən prezident fərmanı imzalandı. Qeyd edək ki, indiki şərtlər altında Roma statutunun qəbulu o deməkdir ki, Rusiyanın dövlət başçısı Vladimir Putin Ermənistana daxil olacağı təqdiqdə, həbslə üzləşəcək. Çünki BCM Putinin və digər Rusiya rəsmilərinin həbsinə order verib.

***

Onu da bildirək ki, Ukraynanın təşəbbüsü ilə gerçəkləşdirilən Malta prosesi də BCM-in başladığı işin bir növ davamı kimi xarakterizə oluna bilər. Hətta, hazırda rəsmi Kiyev məsələyə xüsusi müstəvidə yanaşmaqdadır. Mövcud durum İkinci dünya müharibəsindən sonra nasist Almaniyasının liderləri üzərində qurulmuş Nürnberq prosesini xatırlatmaqdadır. Əlbəttə, Ukraynanın belə bir təşəbbüsdə olmasının dəyərləndirilməsinə yönələn fikir bildirmək məntiqindən uzağıq. Ölkə Rusiya ilə müharibə aparır. Müharibədə isə bütün mümkün vasitələr keçərlidir. Bəs, Ermənistan belə bir riskli platformada nə gəzir?

Bəli, İrəvan Qərbin Kiyevə isti münasibətini, ona dəstək ritorikasını yaxşı görür. Paşinyan iqtidarı elə fon yaradır ki, sanki Ermənistan Qafqazın Ukraynasıdır. A.Qriqoryan da Maltaya bunu uca səslə bəyan etmək üçün gedib. İstəyib ki, ölkəsini, belə demək mümkünsə, demokratiyanın qlamur obrazı qiyafəsində göstərsin. Bu təqdimatın hədəfi Qərbdən dəstək almaqdır.

Ermənistanın hazırda istədiyi budur ki, Qərb Rusiya ilə mübarizədə Ukraynaya dəstək göstərdiyi kimi, ona da yardım əlini uzatsın. Bu səbəbdən hər vəchlə bütün platformalarda Moskva ilə mübarizə apardığına dair gurultulu görüntü formalaşdırmağa çalışır. Eyni zamanda, Azərbaycanı Rusiya ilə əlbir kimi təqdim edir. Bütün bunların isə 44 günlük müharibə nəticəsində itirdiklərini geri qaytarmağa, Qarabağ avantürası üçün baza və mühit formalaşdırmağa hesablandığı gün kimi aydındır.

Əlbəttə, Ermənistanın əsl niyyətini pərdələmək üçün əsas götürdüyü daha bir strateji xətt də var – Avropaya inteqrasiya. A.Qriqoryanın Ukraynanın Prezident Aparatının rəhbəri Andrey Yermakla görüşündə də bu məsələ müzakirə olunub. Mövcud xüsusda Prezident V.Zelenski ilə baş nazir Nikol Paşinyanın oktyabrın 5-də keçirilmiş Avropa Siyasi Birliyinin Üçüncü Zirvə toplantısı çərçivəsindəki görüşünün önəmi vurğulanıb. Yermak – Qriqoryan təmasında, həmçinin ayrıca olaraq A.Akopyanın haqqında söz açdığımız və Rusiyada mənfi reaksiya doğurmuş Kiyev səfərindən məmnunluq da ifadə olunub.

***

Qeyd edək ki, Ukraynanın anti-Rusiya ritorikasına daha çox tərəfdar toplamaq niyyəti anlaşılandır. İrəvan həm də bu məqama siyasi sərmayə yatırmaqla, Kiyevlə yaxınlaşmaq yolu tutmaqdadır. Ancaq Ermənistan iqtidarı anlamır ki, Ukrayna Rusiyaya qarşı çıxsa da, onu Azərbaycanla tərəzinin eyni gözünə qoymayacaq.

Birincisi, rəsmi Kiyev Bakının Qərb üçün önəmini bilir. İkincisi, ölkəmizin balanslı siyasət xəttindən çox yaxşı xəbərdardır. Üçüncüsü isə Azərbaycan Ukraynanın ərazi bütövlüyünü dəstəkləyir. Rəsmi İrəvanın isə xüsusən də mövcud müstəvidə tərəddüdlü davrandığı, qətiyyət nümayiş etdirmədiyi aşkardır. Üstəlik, Ermənistan cəmiyyətində Ukrayna ilə bağlı müsbət ab-hava, demək olar ki, yox səviyyəsindədir. Eləcə də Ukrayna cəmiyyətində Ermənistana münasibətdə antipatiya hökm sürməkdədir.

Belə bir durumda tam aydın görünür ki, İrəvan Kiyevə yarınmaqla ona ürək qızdırmaq yox, beynəlxalq ictimai rəyə özünü Qərblə iç-içə kimi göstərmək niyyəti güdür və bu niyyətin sübutu nöqteyi-nəzərindən anti-Rusiya ovqatını daim diri saxlamaq, yaxud saxladığını nümayiş etdirmək şərtdir.

***

Maltada Ukraynanın təklifi ilə müzakirəyə çıxarılmış “Sülh qətnaməsi”nə gəlincə, sənəddə Kiyevin müharibənin bitməsi və sülh üçün ilkin şərt qismində irəli sürdüyü on bənd yer alıb. Prezident Zelenskinin ilk dəfə ötən ilin noyabrında “Böyük iyirmilik” toplantısı zamanı gündəmə gətirdiyi bu bəndlərdə nüvə və radiasiya təhlükəsizliyi, bütün məhbusların və köçkünlərin azad edilməsi, Ukraynanın ərazi bütövlüyünün bərpası, Rusiya qoşunlarının çıxarılması, zorakılığın dayandırılması və sair məsələlər nəzərdə tutulmaqdadır. A.Yermak isə Maltadakı çıxışında A.Qriqoryana üzünü tutaraq deyib ki, bunlar sizin sülhün həmmüəllifi olmaq üçün dəstəkləyə biləcəyiniz yollardır.

Yeri gəlmişkən, bildirək ki, Ermənistan, belə demək mümkünsə, sülh dəstəkçiləri sırasında tək deyil. Ukrayna rəsmilərinin sözlərinə görə, dünyanın 70 ölkəsindən nümayəndələr Maltaya məhz bu gündəlik ətrafında söz açmaq məqsədilə toplaşıblar. Onlar ümid edirlər ki, müzakirələrdə ilk dəfə iştirak edən ölkələr işğalçı Rusiyaya qarşı kollektiv təzyiqlərə qoşulacaq və Kiyevin təklif etdiyi “Sülh qətnaməsi”nin təminatçısı olaraq çıxış edəcəklər. Bəli, Ermənistan da Qriqoryanın timsalında müzakirəyə ilk dəfə qoşulan ölkədir. Deməli, buradan da tam görünür ki, İrəvan özünün anti-Rusiya xəttinə yeni siyasi müstəvi qazandırmaq əzmindədir. Bəs, istəyinə nail olacaqmı? Müşkül məsələdir.

***Ə.RÜSTƏMOV***
***XQ***

Replika

# Məkrli addım dayandırıldı

**Azərbaycan tərəfi lap əvvəldən bildirmişdi ki, zərərli tullantıları suyu və havanı çirkləndirəcək həmin metallurgiya zavodunun inşa olunacağı ərazi düzgün seçilməyib. Zəhmət çəkin, onun üçün başqa yer tapın. Söhbət Ermənistanın Azərbaycanla sərhəddə yerləşən Vedibasar rayonunun Arazdəyən bölgəsində tikilməkdə olan metallurgiya zavodundan gedirdi. İndi məlum oldu ki, həmin zavod başqa yerdə tikiləcək.**

Ermənistan mediasının məlumatına görə, bunu Ermənistanın iqtisadiyyat naziri Vaan Kerobyan deyib. Nazir açıqlamasında bildirib ki, zavod əvvəlki yerinə yaxın əraziyə köçürüləcək.

“Köçürmə və inşaat işləri davam edir. Tikinti özəl şirkətin vəsaiti hesabına həyata keçirilir. Məsələ ilə bağlı bundan sonra atılacaq addımları investorlar özləri müəyyənləşdirəcəklər. Biz isə coğrafi mövqeyi və regional mühiti nəzərə alaraq onlar üçün maksimum dərəcədə yararlı olmağa çalışırıq”, – nazir sözlərinə əlavə edib.

Qeyd edək ki, metallurgiya zavodunun sahibləri ABŞ-da yaşayan zəngin ermənilərdir. Rəsmi İrəvan bu məsələdə yersiz dirəniş göstərsə də, son qərarı müəssisənin yiyəsi verməli oldu.

Erməni nazir, həmçinin investisiyalar üçün əsas şərtin regionda sülhün olduğunu bildirib. “Biz çalışmalıyıq ki, regiona uzunmüddətli sülh gəlsin və heç kim heç kimə atəş açmasın”, – deyə Kerobyan əlavə edib.

Haqlı sözə nə deyəsən? Əgər okeanın o tayındakı ermənilər sülhün, əməkdaşlığın və inkişafın təməli olduğunu anlayıblarsa, buna da şükür.

***XQ***

# VOMA terror təşkilatı müharibəyə çağırışlar edir

## Paşinyan “sülh” görüntüsü axtarışında “qisas”çı qruplaşmaya, nədənsə, göz yumur

**Bir həftədən sonra Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında imzalanmış və 44 günlük Vətən müharibəsinin başa çatmasını rəsmiləşdirən 10 noyabr tarixli üçtərəfli Bəyanatın həyata vəsiqə qazanmasının üçüncü ili tamam olacaq. Ötən üç ildə ölkəmizin bütün planları ardıcıllıqla, tədricən həyata keçdi. Həmin planların reallaşması yeni qələbələr qazanmağımız demək idi. Nəhayət, sentyabrın 19–20-də keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüz tam təmin olundu, suverenliyimiz bütün ölkə üzərində bərqərar edildi.**

Ermənistan isə Azərbaycan və Türkiyə ilə sərhədlərinin bağlı qalması səbəbindən bölgədə düşdüyü dalan vəziyyətindən çıxmaqda çox da maraqlı görünmür. Rəsmi İrəvan üç ildir ki, üçtərəfli Bəyanatın bölgədə bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa edilməsini nəzərdə tutan doqquzuncu maddəsini yerinə yetirməkdən imtina edir. Bu, az imiş kimi, son vaxtlar Ermənistanda bəzi qüvvələr gərginliyi artırmaqda davam edirlər. Aşkar görünür ki, onlarda revanşizm meyilləri baş qaldırır.

Qarabağ separatçılarının sonuncu “qlavarı” sentyabrın 28-də qondarma rejimin ləğv olunması, onun “strukturlarının” 2024-cü il yanvarın 1-dək buraxılacağı barədə “sənəd”i imzalasa da, İrəvanda kütlənin qarşısına çıxıb “xalqın yaratdığı respublikanı (?) heç kim ləğv edə bilməz” deyir. Separatçılar və onlara, necə deyərlər, “züy tutanlar” 44 günlük müharibənin ağır məğlubiyyətini, regionda yaranmış yeni reallıqları qəbul etmək əvəzinə, Qarabağın itirilməsi ilə barışa bilmir və yeni müharibə arzusundadırlar. Ermənistanda “Sağ qalma sənəti” adlandırılan VOMA terror təşkilatı da oxşar çağırışlar edir. Təşkilatın düşərgələrində gənc oğlan və qızlara, o cümlədən, yetkinlik yaşına çatmayanlara döyüşməyi və öldürməyi öyrədirlər. Qurumun rəsmi saytında təlimlərin hərbi düşərgələrin salındığı Ermənistanın müxtəlif bölgələrində keçirildiyi bildirilir.

VOMA ehtiyatda olan erməni hərbçilər tərəfindən yaradılıb. Onların bir çoxu Birinci Qarabağ müharibəsində və 44 günlük müharibədə iştirak ediblər. Təşkilatın məqsədi tərkibində 60 min nəfər hazırlıq görmüş hərbçinin cəmləşəcəyi ehtiyat ordu yaratmaqdır. Özünün mənfur niyyətini həyata keçirmək üçün VOMA müxtəlif ölkələrdən muzdlular cəlb edir. Təşkilat Ermənistan vətəndaşlarının, həmçinin ABŞ və Avropa ölkələrindəki erməni diasporunun maliyyə dəstəyi sayəsində fəaliyyət göstərir. VOMA özünü Ermənistan dövlətinin müdafiə qabiliyyətini artırmaq və diasporla Ermənistan arasında əlaqəni gücləndirmək məqsədi daşıyan ictimai hərbi-vətənpərvərlik təşkilatı adlandırır. Ancaq bu, təşkilatın əsas missiyasını gizlətmək üçün vasitədir. Onun qurucusu və başçısı Ermənistanda ilk kəşfiyyat-diversiya dəstəsinin rəhbəri olmuş Vova Vartanovdur. O, Birinci Qarabağ müharibəsində iştirak edib. Bundan sonra Vova Ermənistanın müdafiə naziri Vazgen Sarkisyanın müşaviri işləyib. Vartanov bu yaxınlarda yerli mediaya müsahibəsində deyib: “Bizim təşkilatımız 2013-cü ildən fəaliyyət göstərir. 2016-cı ildə hüquqi status almışıq. Əhalimizin döyüş qabiliyyətinin artırılması təşkilatımızın funksiyasına daxildir. Biz istənilən an əlimizə silah götürüb düşmənə qarşı döyüşməyə hazırıq. Döyüş hazırlığı keçmək üçün güc strukturlarından da müraciət edənlər olur. Ermənistanın bütün vətəndaşlarını bizə qoşulmağa çağırıram”.

Qeyd edək ki, bu yaxınlarda Ermənistan mediası VOMA-nın ölkə ərazisində QMBET (günbəz) adlanan çoxlu atəş nöqtələri yaratdığı barədə məlumat yayıb. Belə atəş nöqtələrinin sayı gündən-günə artır. Adı açıqlanmayan təşkilat üzvünün sözlərinə görə, bu yaxınlarda daha bir “günbəz” yaradılıb. Atəş nöqtələrinin yaradılmasını Fransa və ABŞ-dakı erməni diasporu maliyyələşdirir. “Biz yeni ərazideyik. Bu, ərazidəki yeni atəş nöqtəsidir. O, E-4 adlanır. Burada biz daha 5 “günbəz” inşa edəcəyik. Atəş nöqtələrinin yaradılmasını bizim xaricdəki dostlarımız maliyyələşdirəcəklər. Bir “günbəz”in inşasına 1500 dollar sərf olunur. İndiyədək 80 atəş nöqtəsi yaradılıb. 130-u isə inşa olunma mərhələsindədir”, – deyə təşkilat üzvü qeyd edib.

VOMA qruplaşması bu gün Ermənistan ərazisində aktiv fəaliyyət göstərir. Təşkilat üzvləri ölkənin ərazisində düşərgələr yaradır, filiallar açır, taborlar formalaşdırır və atəş nöqtələri inşa edirlər. Bəs bütün bunlar nə üçündür? Təşkilatın rəsmi səhifəsində bu sualın cavabı yazılıb. Onlar qeyd ediblər ki, mübarizə bitməyib. Buradan belə qənaətə gəlmək olar ki, onlar Azərbaycan ərazisində terror aktları və təxribat-diversiya əməlləri törətməyə hazırlaşırlar.

Qeyd edək ki, Qarabağda özünü “müdafiə ordusu” adlandıran və ləğv olunmuş qanunsuz hərbi birləşmənin döyüşçülərinin də Ermənistanda VOMA sıralarına qoşularaq, ərazilərimizə sızaraq müxtəlif təxribatlar törədə biləcəyi ehtimalı mövcuddur. Oktyabrın 11-də MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının 53-cü iclasının iştirakçılarını qəbul edən Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər bu xüsusda maraq doğurur: “Bu gün ərazilərin quldur dəstələrindən təmizlənməsi prosesi gedir. Bizdə olan məlumatlara görə, hələ ərazimizdə gizlənməyə davam edən müəyyən qruplar mövcuddur. Sentyabrın 20-dən sonra Qarabağda hərbi təxribatlar törədildi. Ərazi kifayət qədər böyükdür, dağlıqdır, meşəlikdir, buna görə də bizə ərazini quldur birləşmələrindən tamamilə təmizləmək üçün vaxt lazım olacaq. Bax, prinsip etibarilə, məsələnin tarixçəsi bundan ibarətdir”.



Bu istiqamətdə fikirlərini “Xalq qəzeti”



ilə bölüşən **“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi şərhçi Elxan Şahinoğlu** erməni separatçıların Qarabağda bütün silahları təhvil verdiklərinə şübhə etdiyini bildirib. O qeyd edib ki, separatçıların yüngül çaplı silahların bir qismini meşələrdə əvvəlcədən özləri üçün müəyyənləşdirdikləri yerlərdə qazıb gizlətmələri mümkündür: “Çünki separatçılar təslim olub Azərbaycan ərazisini tərk etsələr də, gələcəkdə yenidən geri qayıdıb silahlı mübarizə ilə bağlı planlar qura bilərlər. Bəziləri hətta “Azərbaycan vətəndaşlığını qəbul edirəm” adı altında geri dönüb sonrakı illər üçün çirkin planları realizə edər. Bu səbəbdən, geri qayıtmaq istəyən ermənilər nəzarət altında olmalıdırlar”.

Elxan Şahinoğlunun fikrincə, Qarabağ meşələrində gizlənən separatçılar da ola bilər: “Ərazi kiçik deyil, separatçılar Azərbaycanı tərk etmədən əvvəl aralarından bir qrupunu meşələrdə yerləşdirə bilərdilər. Antiterror tədbirlərindən sonra hərbçilərimizə arxadan atəş açanlar olub. Bu ehtimalları nəzərdən qaçıra bilmərik. Rusiya tərəfinin sülhməramlı kontingentin bölgəni tərk etməsini yubatmaq istəyindən biri də meşələrdə erməni separatçıların gizlənməsi ilə bağlı ola bilər”.

Qeyd edək ki, Türkiyənin İYİ Partiyasının lideri Meral Akşener də bir müddət öncə parlament fraksiyasının iclasında VOMA-nın terror təşkilatı olduğunu bəyan edib: “Qarabağda Azərbaycan qarşısında duruş gətirə bilməyən Ermənistan ASALA-nın ideoloji bazası əsasında yaradılan VOMA adlı təşkilatla Azərbaycana və Türkiyəyə qarşı asimmetrik savaşa hazırlaşır. Türklərə qarşı döyüş əməliyyatları üçün VOMA müxtəlif yaşlarda olanlara, o cümlədən, azyaşlılara hərbi təlimlər keçir. Açıq döyüşdə məğlub olan bu şəxslər indi xain, məkrli yollara əl atırlar. Biz bilirik ki, Ermənistan hökuməti uzun illər ərzində VOMA-ya maddi, texniki və kadr dəstəyi göstərib”.

Mövzu üzrə söhbətləşdiyimiz **ehtiyatda olan polkovnik Şair Ramaldanov** bildirib ki, terrorçuluq və anti-insani əməllər hayların xislətindədir. Onun sözlərinə görə, tarixdə bu qədər terror aktları törətmiş xalq tapmaq çətindir: “Ermənistandakı bəzi qüvvələr də revanş mifi yaradaraq,



insanları yenə də aldatmağa və hansısa döyüşlərə, müharibəyə çağırırlar. VOMA prinsip etibarilə terrorçu təşkilatdır. Onlar müxtəlif şəxsləri seçərək, terrorçu kimi yetişdirirlər. VOMA, həm də, dünyada erməni terrorizmi üçün “mütəxəssislər” hazırlayan bir qurumdur. Onun digər istiqaməti muzdluların hazırlanması ilə bağlıdır. Onlar müxtəlif sifarişlər alırlar”.

Ş.Ramaldanov qeyd edib ki, VOMA-da terrorçu yetişdirənlərin bəziləri Birinci, bəziləri isə İkinci Qarabağ müharibələrində döyüşənlərdir: “Onlar “dəmir yumruğ”un gücünü gördükdən sonra Qarabağdan qaçıblar və indi bu təşkilatın ətrafında cəmləşərək özlərinə məşğuliyyət tapıblar. Onlar, guya, Ermənistanı hansısa qonşu dövlətdən qorumaq istəyirlər. Ancaq Ermənistanı heç bir qonşu dövlət təhdid etmir. Ermənistana təhlükə yaradan elə VOMA kimi təşkilatlardır”.

Şair Ramaldanov qeyd edib ki, VOMA-nın mövcudluğu hər an diversiya və terror aktlarına qarşı hazır olmağımızı bir daha göstərir: “Biz hər zaman sərrast olmalıyıq. Ancaq Azərbaycanın çox peşəkar təhlükəsizlik orqanları bütün bunlarla hər zaman məşğuldurlar. Qarabağ iqtisadi rayonunda indiyədək terror aktlarının baş verməməsi, ilk növbədə, təhlükəsizlik orqanlarımızın peşəkarlığından xəbər verir”.

Onu da bildirək ki, Azərbaycanın Ermənistanda VOMA kimi təşkilatların mövcudluğundan duyduğu narahatlıq Xarici İşlər naziri Ceyhun Bayramovun Beynəlxalq Ədalət Məhkəməsinin İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında beynəlxalq Konvensiyanın tətbiqi ilə bağlı məhkəmə işləri üzrə qərarla bağlı 2023-cü il fevralın 27-də BMT-nin Baş katibinə ünvanlandığı məktubda da diqqətə çatdırılıb. Məktubda Ermənistanın Beynəlxalq Ədalət Məhkəməsinin 2021-ci il 7 dekabr tarixli qərarını hələ də yerinə yetirmədiyi xatırlanır. Belə ki, Ermənistanın məhkəmənin qərarına zidd olaraq, ərazisində Azərbaycana qarşı etnik zəmində nifrət və ayrı-seçkilik aşılanmasının qarşısını almadığı, VOMA və POGA kimi hərbiləşmiş qruplaşmaları ləğv etmədiyi məktubda qeyd olunur.

***Səxavət HƏMİD***
***XQ***

# Qeyri–neft məhsullarımız xarici bazarlarda yeni alıcılar qazanır

## *İlin əvvəlindən bu sahədə ixrac 2,4 milyard dollara yüksəlib*



**Son illərdə özəl bölmənin hüquqi bazasının formalaşdırılması nəticəsində ölkədə iqtisadi sərbəstlik üçün geniş imkanlar yaranıb. İş adamlarının normal fəaliyyəti təmin olunub, respublikamıza ən müasir texnika və avadanlıqlar gətirilib. Texnoloji proses günün tələbləri səviyyəsində tamamilə yenidən qurulub.**

Bunun nəticəsində Azərbaycanda rəqabətqabiliyyətli, alıcı zövqünü oxşayan məhsulların istehsalı genişlənib. Bu məhsulların daxili bazarda öz yerini getdikcə möhkəmləndirməsi ilə bərabər, bir sıra xarici ölkələrə də ixracı sürətlənib. Azərbaycan məhsulunun xarici bazara çıxarılması və ixrac imkanlarının genişləndirilməsində regional dövlət proqramlarının uğurlu icrası, respublika iqtisadiyyatının dünya iqtisadiyyatına səmərəli inteqrasiyasının gerçəkləşdirilməsi, qeyri-neft sektorunun inkişafına yönələn davamlı tədbirlərin kompleks şəkildə həyata keçirilməsi kimi məsələlər də önəmli rol oynayıb.

Ölkəmizin ixrac potensialının səmərəli rellaşması, daxili bazarda sağlam rəqabət mühitinin formalaşması, istehlakçıların hüquqlarının qorunmasının təmin edilməsi, standartlaşdırma və metrologiya sahələrinin beynəlxalq tələblərə uyğunlaşdırılması milli istehsalçıların xarici bazarlarda mövqelərini möhkəmləndirib. Bundan başqa, Ümumdünya Ticarət Təşkilatının prinsipləri çərçivəsində daxili bazarın qorunmasına ciddi əhəmiyyət verilməsi, haqsız rəqabət hallarına qarşı mübarizənin gücləndirilməsi və rəqabətin inkişafı ilə bağlı tədbirlərin reallaşdırılmasına sahibkarların və istehlakçıların cəlb olunması, istehlak mallarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin gücləndirilməsi də diqqət mərkəzində saxlanılıb.

Son illər regionlardakı mövcud sənaye müəssisələrinin yenidən qurulması və müasir müəssisələrin yaradılması məsələlərinə də böyük əhəmiyyət verilib. Burada kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin bərpası və ixrac potensialının artırılması kimi məsələlər də önə çəkilib. Sənaye sektorunda əsas məqsədə nail olmaq üçün bu sahədə qeyri-neft sektorunun inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi, rəqabətədavamlı sənaye məhsullarının istehsalının dəstəklənməsi və ixracyönümlü istehsal sahələrinin yaradılmasının təşviqi ilə bağlı davamlı layihələr icra olunub. Eyni zamanda, köhnə sənaye müəssisələrində istehsalın texnoloji cəhətdən yenidən qurulması, ixtisaslı kadrların hazırlanması və s. tədbirlər reallaşdırılıb.

Ölkəmizdə ixracın genişləndirilməsi, ixrac mallarının çeşidinin artırılması məqsədilə respublikamız "Ümumiləşdirilmiş Preferensiyalar Sistemi+" Proqramına ("GSP+") qoşulub. Bunun sayəsində respublikamızın Avropa İttifaqı (Aİ) bazarlarına güzəştli şərtlərlə ixrac imkanı yaradılıb ki, bu da ixrac potensialının genişləndirilməsinə və ixrac strukturunun diversifikasiyasına önəmli təsir göstərib.

Göründüyü kimi, regionlarda qeyri-neft sektorunun davamlı inkişafı, yeni müəssisələrin və iş yerlərinin yaradılması, kommunal xidmət və sosial infrastruktur təminatının həcminin, keyfiyyətinin yüksəldilməsi, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması, investisiya siyasətinə mühüm əhəmiyyət verilməsi, iqtisadiyyatın bütün sahələrinə investisiya qoyuluşu imkanlarının genişləndirilməsi, investorlar üçün azad rəqabət mühitinin formalaşdırılması ölkəmizin iqtisadi qüdrətini artırmaqla yanaşı, ixrac potensialının daha səmərəli reallaşdırılmasına şərait yaradıb.

Bütün bu layihələrin uğurla gerçəkləşdirilməsi nəticəsində ixras prosesində davamlı olaraq yüksək göstəricilər qeydə alınıb. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) "İxrac icmalı"nın oktyabr sayında bu barədə ətraflı bəhs olunub. Bununla bağlı müvafiq göstəricini diqqətə çatdırmazdan əvvəl xatırladaq ki, son illər ərzində Vergi Məcəlləsinə edilən düzəlişlər, sənaye məhəllələrinin, texnoparkların, azad iqtisadi zonaların salınması investisiyaların cəlbini və biznes mühitinin kifayət qədər yaxşılaşdırılmasını şərtləndirib.

Azərbaycanın neft strategiyası iqtisadi artımda əsas rol oynasa da, uğurla həyata keçirilən geniş miqyaslı islahatlar nəticəsində qeydə alınan göstəricilərlə qeyri–neft sektorunun payı neft–qaz sənayesini üstələyib. Belə ki, sözügedən icmala əsasən, 2023-cü ilin yanvar–sentyabr ayları ərzində Azərbaycanın ümumi ixracı 26,5 milyard dollar, qeyri–neft sektoru üzrə ixrac isə 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 10,6 faiz artaraq 2,4 milyard dolları təşkil edir.

Cari ilin 9 ayı ərzində elektrik enerjisi 2,7 dəfə, qara metal məmulatlarının ixracı 34,3 faiz, meyvə-tərəvəz ixracı isə 7,1faiz artıb. Hesabat dövründə aqrar və aqrar–sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 8,4 faiz artaraq 641 milyon dollar çatıb. Qeyri–neft/qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar–sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 22,4 faiz artaraq 146 milyon dollar təşkil edib.

Hesabat dövrü ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi (330 milyon dollar) birinci olub. Bu siyahıda pomidor (tomat) (124 milyon dollar) ikinci, qızıl (102 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2023-cü ilin yanvar-sentyabr ayları ərzində Rusiya Federasiyasına 787 milyon dollar, Türkiyəyə 631,8 milyon dollar, Gürcüstana 240 milyon dolları, İsveçrə Konfederasiyasına 112 milyon dollar, Qazaxıstana isə 78 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2023-cü ilin sentyabr ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (65,9 milyon dollar) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə (45 milyon dollar) ikinci və İsveçrə (26 milyon dollar) üçüncü yerdə qərarlaşıb. Hesabat dövründə ixraca yönəldilən qeyri-neft sektoruna aid malların siyahısında qızıl (25,7 milyon dollar) birinci, elektrik enerjisi (15,4 milyon dollar) ikinci və meşə fındığı (10 milyon dollar) üçüncü olub.

"İxrac icmalı"nda, eyni zamanda, 2023-cü ilin oktyabr ayında "Bir pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə həyata keçirilən qeyri-neft ixracının dəyərinin 18,4 milyon dollara çatması qeyd edilib.

İcmalda, həmçinin 2023-cü ilin 9 ayında "Azərkosmos" tərəfindən dünyanın 46 ölkəsinə 14,4 milyon dollar dəyərində peyk telekommunikasiya xidmətləri ixrac olunub. "Azərkosmos"un xidmət ixracından gələn gəlir onun ümumi gəlirlərinin 78 faizini təşkil edib. Cari ilin sentyabr ayında isə bu qurumun dünyanın 45 ölkəsinə 1,8 milyon dollar dəyərində xidmət ixracı qeydə alınıb.

Yeri gəlmişkən, 2023-cü ilin yanvar–sentyabr ayları ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində Birləşmiş Krallıq (4,1 milyon dollar), Lüksemburq (3,1 milyon dollar), BƏƏ (1,2 milyon dollar), Almaniya (815 min dollar) və Nigeriya (572 min dollar) qərarlaşıb.

Yuxarıda qeyd edilənlər və bununla bağlı müsbət göstəricilər hazırda ölkə iqtisadiyyatı üçün yeni istiqamətlərin formalaşmasını deməyə əsas verir. Bu, istiqamətlər idxaldan asılılığın azaldılması, qeyri–neft əmtəə və xidmət ixracı həcminin yüksəldilməsi, qeyri–neft emal sənayesinin inkişafının sürətləndirilməsi, biznesin bank kreditlərinə çıxışının genişləndirilməsi, dövlət investisiyalarının iqtisadi səmərəsinin artırılması, özəl investisiyaların dominant rolunun gerçəkləşdirilməsi, kiçik və orta sahibkarlığın iqtisadi artımın başlıca qüvvəsinə çevrilməsi, şəffaflığın yüksəldilməsi və "kölgə iqtisadiyyatı"nın səviyyəsinin minimuma endirilməsindən ibarətdir. Yeni məqsədlərə doğru yolda əldə edilən ilkin nəticələr isə müsbətdir.

***Vaqif BAYRAMOV***
***XQ***

**Ümummilli lider Heydər Əliyevin siyasi iradəsi və gərgin əməyi ilə həm keçmiş sovetlər dönəmində, həm də müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə bütün sahələrdə olduğu kimi aqrar sahədə də ciddi islahatlar aparılıb, resurslardan səmərəli və məqsədyönlü istifadə təmin olunub, sahənin dayanıqlı inkişafı üçün möhkəm baza yaradılıb.**

# Azərbaycanda aqrar sahə qabaqcıl ölkələr səviyyəsinə yüksəlir

## *9 ayda 9 milyard manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilib*



Prezident İlham Əliyevin rəhbərliyi ilə inamla davam etdirilən uğurlu aqrar siyasət nəticəsində ölkə iqtisadiyyatında kənd təsərrüfatı xüsusi mövqe qazanıb. Bu gün respublikamızda iqtisadiyyatın digər sahələri kimi, aqrar sektorda keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub. Aqrar sahə qeyri-neft sektorunun ən aparıcı sahəsi elan edilib. Kənd təsərrüfatının strateji əhəmiyyətli və iqtisadi cəhətdən səmərəli istehsal sahələrinin inkişaf etdirilməsi prioritet vəzifələrdən biri kimi müəyyənləşdirilib.

Azərbaycanda 2020-ci ildən etibarən aqrar subsidiyalar yeni mexanizm əsasında verilir. Subsidiya siyasəti kənd təsərrüfatına dövlət dəstəyi siyasətinin artırılmasını, ixrac potensialı olan kənd təsərrüfatı məhsullarının istehsalının stimullaşdırılmasını nəzərdə tutur. Fermerlərin texnika, gübrə və damazlıq heyvanla təminatı ilə bağlı dövlət tərəfindən güzəştlər tətbiq edilir. Qəbul olunan qərarlar, imzalanmış fərman və sərəncamlar ölkə iqtisadiyyatının, o cümlədən aqrar sektorun davamlı inkişafına real zəmin yaradır.

Məhz həyata keçirilən tədbirlər nəticəsində bu ilin yanvar–sentyabr aylarında Azərbaycanda 9 milyard manat dəyərində kənd təsərrüfatı məhsulu istehsal edilib. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 3 faiz çoxdur.

Son 1 ildə ölkədə istehsal olunan bitkiçilik məhsullarının dəyəri 2,5 faiz artaraq 5 milyard manat, heyvandarlıq məhsullarının dəyəri isə 3,5 faiz artaraq 4 milyard manat təşkil edib.

Oktyabrın 1-nə kimi tarlalardan qarğıdalı da daxil olmaqla 3 min ton və yaxud ötən ilin eyni dövrünə nisbətən 1,7 faiz çox dənli və dənli paxlalı bitkilər, 182 min ton (0,1 faiz çox) üzüm, 962 ton (17,6 faiz çox) yaşıl çay yarpağı yığılıb.

9 ay ərzində quş əti də daxil olmaqla diri çəkidə 424 min ton ət, 15 min ton yun, 357 ton barama istehsal olunub. Bir il əvvələ nisbətən ət istehsalı 3,2 faiz, süd istehsalı 1,7 faiz, yumurta istehsalı 11,9 faiz, barama istehsalı 4,6 faiz artıb.

***XQ***

# Bank sektorunun vəsaitləri 45,5 milyard manat artıb

**Azərbaycan Banklar Assosiasiyasının sədri Zakir Nuriyev VII Beynəlxalq Bankçılıq Forumunda sentyabrın sonuna bank sektorunun vəsaitlərinin 45,5 milyard manat artdığını, bu göstəricinin ötən ilin müvafiq dövrü ilə müqayisədə 4,3 faiz çox olduğunu bildirib.**

O qeyd edib ki, iqtisadiyyata kredit qoyuluşları 16,7 faiz çoxalaraq 23,3 milyard manata, biznes kreditləri isə 12 faiz artaraq 12,1 milyard manata çatıb. Dövlət fondları nəzərə alınmadan banklar tərəfindən verilən biznes kreditlərinin həcmi 15 faiz artaraq 11,1 milyard manata yüksəlib. Vaxtı keçmiş kreditlərin həcmi isə 534,3 milyon manat təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 20 faiz azalma deməkdir.

Vaxtı keçmiş kreditlərin portfeldəki payı 23 faiz geriləyib. Fiziki şəxslərin əmanətlərinin həcmi 12,4 milyard manat olub. Depozitlərin dollarlaşma səviyyəsi aşağı enib.



***XQ***

# Ələt Azad İqtisadi Zonası – dünya iqtisadiyyatına açılan qapı

**(əvvəli 1-ci səhifədə)**

Sənədə əsasən, "Ələt Azad İqtisadi Zonasının yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 may tarixli fərmanının 3-cü hissəsinə əsasən, Bakı şəhəri Qaradağ rayonunun inzibati ərazisində yerləşən və Ələt Azad İqtisadi Zonasının ərazisi qismində müəyyən edilmiş torpaq sahəsinin bu Sərəncamın əlavəsindəki yerquruluşu planında göstərilmiş, dövlət mülkiyyətinə aid 23,74 hektar təşkil edən hissəsi birdəfəlik, əvəzsiz və daimi istifadə hüququ ilə Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumuna verilib. Dövlət başçısı tərəfindən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə, Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumuna və "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinə bu Sərəncamdan irəli gələn məsələlərin həlli ilə bağlı konkret tapşırıqlar verilib.



Ekspertlər hesab edirlər ki, müasir dövrdə azad iqtisadi zonalar ölkələrin xarici ticarət siyasətində önəmli yer tutur. Məhz buna görə də son illər dünya iqtisadiyyatının spesifik modeli sayılan azad iqtisadi zonaların yaradılması prosesi getdikcə sürətlənir. Azad iqtisadi zona xüsusi rejim altında fəaliyyət göstərən ölkə ərazisinin bir hissəsidir. Belə zonaların yaradılmasında başlıca məqsəd ölkələrin beynəlxalq əmək bölgüsündə baş verən inkişaf proseslərinə fəal surətdə qoşulmaqdır. Bununla yanaşı, həmin zonalar ayrı-ayrı ərazi və regionların iqtisadi inkişafı, mühüm iqtisadi məsələlərin həlli, strateji proqram və layihələrin reallaşdırılması baxımından xüsusi önəm daşıyır.

Yeri gəlmişkən, ilk xüsusi iqtisadi zonalar ötən əsrin ikinci yarısından etibarən ABŞ, Yaponiya, Koreya, Çin və başqa ölkələrdə yaradılmağa başlanılıb. Dünya Bankının hesabatlarına əsasən, hazırda planetimizin 130 ölkəsində 6 minə yaxın xüsusi iqtisadi zona mövcuddur ki, onların da qlobal ixracda çəkisi 200 milyard dollardan artıqdır. Ekspertlərin fikrincə, azad iqtisadi zonalarda güzəştlərin tətbiqi nəticəsində mənfəət norması 30-35 faizdən artıq olur. Hətta Asiyanın azad iqtisadi zonalarında fəaliyyət göstərən transmilli şirkətlər ildə orta hesabla 40 faiz mənfəət əldə edirlər.

Azad bazar iqtisadi münasibətlərinin formalaşdığı Azərbaycanda da bu məsələ getdikcə aktuallığını artırır. Ölkəmizdə bazar münasibətlərinin dərinləşməsi, biznes fəaliyyətinin genişlənməsi istiqamətində belə zonaların yaradılmasının mühüm iqtisadi əhəmiyyəti vardır. Xatırladaq ki, Azərbaycanda azad iqtisadi zonaların yaradılması ideyası və bu sahədə müəyyən təşəbbüslərin irəli sürülməsi müxtəlif illərdə gündəmə gətirilsə də, müəyyən obyektiv səbəblər üzündən proses xeyli ləngiyib. Yalnız 2017-ci ildə Ələt Azad İqtisadi Zonasının yaradılması barədə qərar və bununla bağlı 2018-ci ildə müvafiq qanun qəbul edildikdən sonra bu sahədə real addımların atılmasına başlanılıb. Pandemiyanın dünyada yaratdığı böyük iqtisadi və maliyyə çətinliklərinə baxmayaraq, 2021-ci il iyulun 1-də Prezident İlham Əliyevin iştirakı ilə sözügedən iqtisadi məkanın təməli qoyulub.

Nəhayət, 2023-cü il iyunun 9-da Ələt Azad İqtisadi Zonasının birinci mərhələsi istifadəyə verilib. Azərbaycanın iqtisadi həyatı üçün son dərəcə əlamətdar hadisə sayılan bu tədbirdə Prezident İlham Əliyevin iştirakı isə ölkəmizdə iqtisadi inkişafa göstərilən dövlət qayğısının bariz nümunəsi kimi diqqət çəkir. Təsadüfi deyil ki, Ələt Azad İqtisadi Zonası Prezident İlham Əliyevin Azərbaycanı beynəlxalq səviyyədə rəqabətədavamlı və dayanıqlı, şaxələndirilmiş və ixracyönümlü iqtisadiyyata malik bir ölkə kimi inkişaf etdirməyə yönəlmiş siyasətinin real təməli kimi dəyərləndirilir.

Məlum olduğu kimi, bazar iqtisadiyyatına keçid mərhələsini uğurla başa çatdıran Azərbaycan indi sürətli inkişaf mərhələsini yaşayır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı iqtisadi islahatlar nəticəsində ölkəmiz hazırda regionun əlverişli investisiya məkanına çevrilib. Təkcə onu qeyd etmək kifayətdir ki, müstəqillik illərində ölkəmizə, təqribən, 270 milyard dollar investisiya yönəldilib ki, bunun da yarısını xarici sərmayələr təşkil edir. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı bir qədər əvvəl mətbuata açıqlamasında bildirib ki, Azərbaycanda yaradılmış əlverişli investisiya mühiti xarici investorların ölkəmizə inamını xeyli artırıb. Bu da onu deməyə əsas verir ki, Azərbaycan Ələt Azad İqtisadi Zonasına da kifayət xarici qədər investisiyalar cəlb edə biləcək.

Vüsal Qasımlının sözlərinə görə, ötən müddətdə Azərbaycan investisiya mübahisələri üzrə bir sıra beynəlxalq konvensiyalara qoşulub. Bununla da, ölkəmiz bu sahədə bir sıra öhdəliklər götürüb. Bununla yanaşı, azad ticarətlə bağlı 10-dək sazişə imza Azərbaycan son illər bütün beynəlxalq reytinqlərdə regional liderdir. Onun fikrincə, bu, əcnəbi investorlar üçün çox yaxşı siqnaldır və onları ölkəmizə gəlməyə sövq edir.

Ələt Azad İqtisadi Zonası ölkəmizin gələcək iqtisadi inkişafı üçün müstəsna əhəmiyyət daşıyır. Qanuna əsasən, sözügedən iqtisadi zonaya idxal edilən mallara, işlərə və xidmətlərə görə, gömrük rüsumları və vergilər ödənilməyəcək. V.Qasımlı bildirib ki, Ələt Azad İqtisadi Zonası iqtisadi məqsədlərlə yanaşı, sosial və elmi məqsədlərin də reallaşdırılmasına imkan verəcək, ölkəmizin ticarət dövriyyəsinin artmasına səbəb olacaq. Bundan əlavə, investisiya axınının artması regionlarda yeni iş yerlərinin yaradılmasına, milli iqtisadiyyatın dünya iqtisadi sisteminə inteqrasiyasını sürətləndirəcək, ixtisaslı kadrların təhsil və peşə təcrübələrinin artırılması imkanlarını genişləndirəcək.

Yaxın gələcəkdə Ələt Azad İqtisadi Zonasında yüksək texnologiyalar cəlb etməklə idxalı əvəzləyən, ixrac yönümlü malların istehsalı təmin olunacaq. Sözügedən zonanın beynəlxalq qlobal dəyər zəncirlərinə qoşulmaq baxımından fəaliyyətləri təşkil etməyə istiqamətləndiyini bildirən V.Qasımlının dediyinə görə, sənaye inqilabları vaxtı Böyük Britaniya, daha sonra isə Çin beynəlxalq emalatxana funksiyasını yerinə yetirmişdir. Bu baxımdan, kiçik miqyasda da olsa, Ələt Azad İqtisadi Zonasının da belə bir imkanı var. Belə ki, xarici investorların Avropa, Mərkəzi Asiya, Yaxın Şərq, eləcə də İran və Rusiya bazarlarına çıxış nöqteyi-nəzərindən burada emal dəyərini artırmaq, bəzi məhsulların üzərinə əlavə dəyər gətirməklə Ələt Azad İqtisadi Zonasını beynəlxalq emalatxanaya çevirmək mümkündür. Vüsal Qasımlı hesab edir ki, iri investorlar da məhz həmin bazarlara çıxmaq baxımından Ələtdə regional səviyyəli emalatxana qura bilərlər.

Ələt Azad iqtisad Zonası infrastruktur baxımından da çox cəlbedicidir. Vüsal Qasımlının sözlərinə görə, Şimal–Cənub və Şərq–Qərb beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən sözügedən zonanın yaxınlığında Bakı Beynəlxalq Dəniz Ticarət Limanı fəaliyyət göstərir. Ərazidən avtomobil və dəmir yolları keçir. Bundan əlavə, Heydər Əliyev adına Beynəlxalq Aeroport məsafə baxımından çox da uzaqda deyil. Bütün bunlar onu deməyə əsas verir ki, Ələt Azad İqtisadi Zonası Azərbaycanın nəqliyyat logistika qovşağı kimi mövqeyini bir qədər də gücləndirəcək.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

TÜRK DÜNYASI

# Ərzurum – Anadolunun Qafqaz qapısı



I Yazı

Gürcüstandan Türkiyənin məşhur və qədim şəhərlərindən olan Ərzuruma – azərbaycanlılar üçün tarixən yaxın və doğma olan bu diyara Türkközü gömrük məntəqəsindən də getmək olardı. Amma qardaş ölkənin su anbarları və tünellər məskəni kimi tanınan Artvin, Ərdahan bölgələri haqqında eşitdiklərim məni bu yerlərdən keçib getməyə həvəsləndirdi. Ərzurumadək gördüklərim gerçək bir nağılın səhifələri oldu.

## Ərzuruma gedən yollar

Hopa – Artvin yolu boyunca Çoruh çayı üzərindəki Muratlı, Borçka, Dərinər, Yusifeli və Artvin bəndləri yaratdığı gözəlliklərlə yanaşı, bu yerlərdə qurulmuş su elektrik stansiyaları ilə də ölkə üçün önəmlidir. "Çoruh boyunbağları" adlandırılan bu SES-lərdə istifadəyə verildiyi gündən, ümumilikdə, 42 milyard 144 milyon kilovat-saat enerji istehsal edilib. Məlumat üçün bildirək ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə 2022-ci ilin noyabr ayının 22-də açılışı olan Yusufeli su anbarı Türkiyənin ən böyük hidroqurğusudur. 275 metr hündürlüyü ilə dünyanın beşinci yüksək bəndində istifadəyə verilmiş elektrik stansiyası ölkə iqtisadiyyatına hər il 6 milyard dollar gəlir gətirir.

Yol uzandıqca gördüklərim heyrətimi bir az da artırırdı. Artvin Türkiyədə Rizə və Trabzona görə daha az kəşf edilmiş, təbiət müxtəlifliyi baxımından isə daha zəngin bir bölgədir. Birinci Borçka tunelinə girəndə qərara aldım ki, keçdiyim tunelləri sayım. Uzunluğu ən azı 200 metrədək olan tunellərin sayını 25-dən sonra itirdim. Rahatca keçdiyim bu ikitərəfli tunellər yadıma Zəngəzur dəhlizini saldı. Düşündüm ki, Naxçıvanı Azərbaycanla birləşdirən 40 kilometrlik məsafəni belə tunellərlə bir az da qısaltmaq olar.

Sonra oyrəndim ki, Qara dənizi Ərzuruma birləşdirən 150 kilometrlik avtomobil yolu üzərində 115 tunel inşa edilib. Demək olar ki, hamısı Artvin ərazisindədir. Bu tunellər arasında Canqurtaran keçidində inşa edilmiş və 2018-ci ildə istifadəyə verilmiş tunel ən uzunu və əhəmiyyətlisidir. Təkcə 5 min 228 metr uzunluğuna görə yox, həm də yolu 12 kilometr qısaltdığına və payız-qış mövsümündə aylarla bağlanan yolları tarixə qovuşdurduğuna görə bu tunel misilsizdir.

Adından da göründüyü kimi, Canqurtaran tunelləri iki çıxış və iki girişi ilə bölgənin həyatına can verən "boru"ya bənzəyir. Bu tunel sıralamada Rizənin Ekizdərə ilə Ərzurumun İspir rayonları arasındakı inşa edilmiş Türkiyənin 1-ci, dünyanın 3-cü ən uzun 14,3 kilometrlik Ovit tunelindən sonra yer alır. Hopa – Ərzurum yolundakı 115 tunelin ümumi uzunluğu isə 56 kilometrdir. Nəhayət ki, bu uzun tunelləri və Yusifeli, Uzundərə, Ağbaba... daha sonra isə Tortum və Gözəlobanı keçib Ərzuruma çatdım.

## Min illərin Ərzurumunda 2 gün

Yüz illər əvvəl Aşıq Kərəmdən, ötən əsrin 80-ci illərində isə şair Məmməd Aslan Ərzurumun qarlı-çovğunlu gədiyini aşıb mənzilə yetişmişdilər. Onlardan sonra həmin yolu keçmək, Ərzurumu görmək mənim üçün də xoş bir arzu idi. Lakin daha üstün hədəfim Türk dünyasının bu məşhur şəhərdə yaşayıb-işləyən tanınmış ziyalısı Əli Kafkasiyalı ilə görüşmək, bu ulu şəhərlə onun bələdçiliyi ilə tanış olmaq, alim dostumla bir çox önəmli mövzularda söhbətlərimizi davam etdirmək idi.

Bu məşhur elm adamı ilə tanışlığımın cəmi bir illik tarixçəsi olsa da, onun Azərbaycana bağlılığının tarixi babalarının sovet dönəmində Qazaxdan Türkiyəyə köç etməsindən başlanır. O zamandan bu ailə üçün qucaq açan qoca Ərzurum minlərlə azərbaycanlı kimi onun üçün də Vətən olub. Bu barədə söhbət düşəndə dedi:

– Ərzurum taleyimdə, sadəcə, bir şəhər deyil, Vətəndir. Tarixin və dövrün qalası olan şəhərin ətrafında 50-dən çox istehkamın izlərini nə ruzigarın qar-çovğunu, nə də zamanın haqsızlıqları silə bilib. Bu yadigarlar indi də tarixin tör-töküntüləri kimi yox, əzəmətli izləri kimi qalmaqdadır. Bu şəhər dörd bir yandan ətrafındakı 50 qala ilə qorunub. Şəhərin bu qədər ciddi qorunması həm də onun strateji əhəmiyyətinin, bütün Anadolunun qapısı olmasının təsdiqidir. Ərzurumun qorunması təkcə bir şəhərin deyil, bütün ölkənin düşmən işğalından qurtuluşu kimi dəyərləndirilib. Elə bu səbəbdən də Ərzurum Anadolunun Şərqdən giriş qapısı olub.

Bizans, Səlcuqlular, Elxanilər, Osmanlılar dönəminin yadigarlarını və tarixi dəyərlərini qoruyan Ərzurum dəniz səviyyəsindən 2 min metr yüksəklikdə yerləşir. Bəlkə, buna görədir ki, iqlimi çox sərtdir, bu, insanların görkəmindəki ciddilikdən də sezilir. Soyuq Sibirlə müqayisə edilən Ərzurumda ilin 70 – 80 günü qar yerdə qalır. Yay fəslində istilik 35 dərəcəyə çatır, qışda isə mənfi 30 dərəcəyə qədər azalır. Maraqlıdır ki, yayın cırhacırında Ərzurum otellərində kondisioner görmədim. Dedilər ki, burada kondisionerli otel axtarmayın. Bunun səbəbini gecə yun örtüyə bərk-bərk bürünəndə anladım.

Tarixin kəşməkəşlərində müxtəlif sivilizasiyalardan keçmiş Ərzurum türk-islam dəyərlərinə sadiqliyi ilə diqqətimi cəlb etdi. İstanbul, İzmir, Bodrum, Antalya, lap elə Əskişəhər və Bursada gördüyüm ənənəvi Anadolu burada xeyli fərqli biçimdədir. Mərkəzi Anadoludakı müasir qiyafəli türklüyü burada eyni şəkildə görmək olmur. Hətta o yerlədəki başıörtüsüz qadınlarla burada hər addımda rastlaşmaq olmur.

## Cümhuriyyətin pərvazlandığı məkan

Ərzurumun gədiyini – Dəvəboynu aşırımını keçən kimi Ərzurum qalası ilə üz-üzə gəlirik. Qaladan geniş bir vadiyə gedən yollar və sakitcə uyuyan Ərzurum ovuc içində imiş kimi görünür. Dəfələrlə əldən-ələ keçən şəhəri və ətraf bölgələri Birinci Dünya müharibəsi dövründə yenidən rus və erməni silahlı dəstələri işğal edib və 1917-ci ilin yayınadək bu yerlər düşmən əlində qalıb. Ərzurumun işğalı ilə bölgədəki erməni qüvvələr xeyli möhkəmlənib və buradan ətrafdakı müsəlman əhaliyə qarşı hücumları genişləndiriblər. Dəhşətli hadisələr, amansız türk qırğınları bir-birini əvəz edib.

1918-ci ilin əvvəllərində türk qoşunları Ərzurumu ruslardan geri alıb və qala



Osmanlı–Rus müharibəsində Kazım Qarabəkir paşanın rəhbərlik etdiyi ordunun istehkamı olub. Azərbaycan Xalq Cümhuriyyəti rəhbərlərinin Osmanlı ordusunun Qafqaz bölümünə rəhbərlik edən Kazım Paşanın yanına yardım üçün göndərdiyi Seyidov soyadlı azərbaycanlı da burada vuruşub. O da maraqlıdır ki, Nuru Paşanın rəhbərliyi ilə Osmanlı dövlətinin Azərbaycana hərbi kömək barədə əmri də bu qalada verilib.

Qalanın içərisindəki kazarmanın divarlarının qalınlığı bir metri keçsə də, top mərmilərinin zərbəsindən xeyli dağıdılmış haldadır. Deyilənə görə, Osmanlı ordusu güclü hücuma məruz qaldığı zaman geri çəkilib və düşmənin yararlana bilməməsi üçün qala bürclərini də partladıblar. Müsahibim Əli bəy divardakı qara ləkələrinin "türk şəhidlərinin qanı" olduğunu bildirir.

Şəhər əhalisi 1918-ci il savaşında ordu ilə bərabər döyüşüb. Ərzurum qalasında Nənə Xatunun məzarı üzərində şəhidlərin xatirəsinə ucaldılan abidə kompleksi var. Rus ordusunun hücumu zamanı şəhərin müdafiəsində Nənə Xatun adlı 18 yaşlı gəlin kişilərlə çiyin-çiyinə döyüşüb. Əli bəy danışır ki, uzun illər sonra Türkiyəyə gələn rus jurnalistlər Nənə Xatunla da görüşmək istəyiblər. Nənə Xatunun yaşlı olduğundan, qulaqları da yaxşı eşitmədiyindən elə anlayır ki, ruslar yenidən şəhəri işğal ediblər. Cavab verir ki, o vaxt onları qovduq, indi necə gəldilər...

Ərzurum qalasından ayrılıb şəhərə üz tutanda sağ tərəfdə yerləşən "Qars qapısı" şəhidliyinin girişindəki türbə diqqətimi cəlb etdi. Bu, "Daşnaksutyun" partiyasının qətlinə hökm verdiyi Camal Paşanın məzarıdır. 50 yaşında Tiflisdə erməni terrorunun qurbanı olub. Mustafa Kamal Atatürkün izni ilə dostu, Osmanlı ordusunun Qafqaz komandanı Kazım Qarabəkir paşa onun nəşini Ərzuruma gətirib və burada əsgəri qaydada dəfn etdirib. Amma tarixin ironiyasına baxın ki, 1922-ci ilin 21 iyulunda Tiflisdə ermənilər tərəfindən qətlə yetirilən Camal paşanın dos-doğmaca nəvəsi Həsən Camal "1915: Erməni soyqırımı" kitabı ilə Ermənistanın sevimlisi oldu.

1919 – 20-ci illərdə Ərzurum Türkiyə milli hərəkatının mərkəzlərindən biri olub. Atatürkün rəhbərliyi ilə türk xalqının yadelli işğala qarşı mübarizəsinin təşəkkülündə və Qurtuluş savaşında mühüm hadisə olan, Türkiyə Cümhuriyyətinin əsaslarını yaradan Ərzurum Konqresi (23 iyul–7 avqust 1919-cu il) burada keçirildi, türk milləti öz istiqlalından və dövlətindən imtina etməyəcəyi barədə milli iradəni burada dünyaya nümayiş etdirdi. Ciddi müzakirələrin aparılması,



əsaslı təkliflərin, konkret yol xəritələrinin təqdim olunması ilə 14 gün davam edən Ərzurum Konqresi Ərzurum, Sivas, Van, Bitlis, Diyarbəkir və Elazığdakı erməni silahlı birləşmələrinin təhlükəsini, eləcə də yunanların Trabzon, Rizə, Gümüşhanə, Ordu və Girəsuna olan əsassız iddialarını dəf etmək üçün tədbirlər görmək məqsədilə toplansa da, gələcək Türkiyə Cümhuriyyətinin qurulmasının mübarizə yolları məhz burada müəyyən edildi.

Əli bəy Ərzurum şəhərinin mərkəzində bir binanı göstərdi və əlavə etdi ki, konqres erməni Mkırdıç Sanasaryanın tikdirdiyi bu məktəbin binasında keçirilib.

Bundan əvvəl ermənilər burada dünya ermənilərinin birliyini planlayan tədbir keçiribmişlər. Ərzurum Konqresinin burada keçirilməsi Dünya Erməni konqresinin təşkilatçılarına cavab idi.

## Qoca, uca şəhər

Tarixi-memarlıq abidələri ilə zəngin olan şəhərin 5-ci əsrin qala divarları, 12-ci əsrdə tikilən Qala məscidi, Saat qülləsi, Ulu Came, XIII əsrə aid Qoşaminarəli mədrəsə, Çobandərə körpüsü, XVI əsrin yadigarı Ləläpaşa məscidi, karvansaralar, hamamlar Ərzurumun tarixi pasportlarıdır. Burada Türkiyənin məşhur təhsil ocaqlarından olan Atatürk Universiteti (1957), Ərzurum Texniki Universiteti (2010), Dövlət Teatrı, Atatürk Evi (1984-ci ildən muzey) fəaliyyət göstərir. Ərzurumda 3 yerli televiziya və 11 radio kanalının verilişləri yayımlanır, 15 qəzet nəşr olunur.

Ərzurum Türkiyənin dördüncü böyük vilayətidir. Şəfalı bulaqların, isti su qaynaqlarının sayı-hesabı yoxdur. Şəhər Türkiyənin məşhur qış turizmi mərkəzidir. Palantökən silsilə dağlarındakı xizək mərkəzi (həmçinin Palantökən kurortu) dünyaın ən uzun və dik yamacları sayılır. Xizək yolunun uzunluğu 8 kilometrdir. Böyük Əjdər zirvəsinin 3 min 100 metrliyinə qalxan kanat yolu var. Uzundərə rayonunda sıldırım qayalarla əhatələnmiş Tortum gölü və hündürlüyü 48 metr olan Tortum şəlaləsi yerli və xarici turistləri cəlb edən tarixi yer və istirahət mərkəzlərindəndir.

Ərzurum geotermal bulaqlar, müalicəvi və mineral sularli ilə də zəngindir. Yaxın Şərqin böyük çayı olan Fərat və Azərbaycanda ad qazanan Araz da başlanğıcını buradan götürür. Ərzurum Qafqaz yellərinin əsdiyi qədim türk yurdu, Türkiyə ilə Azərbaycan arasında tarixi-mənəvi körpüdür.

Azərbaycanın Qarsdakı baş konsulluğunun təşəbbüsü ilə Ərzurum Böyükşəhər Bələdiyyəsi şəhərdə prospektlərdən birinə "Azərbaycan", ərazidəki böyük parka isə ümummilli lideri Heydər Əliyevin adı verilib.

***Namiq ƏHMƏDOV***
***XQ***

**Bakı–Ərzurum–Bakı**

BEYNƏLXALQ HƏYAT

# Yaxın Şərq: Qaçqın düşərgəsində partlayış

**Oktyabrın 31-də Qəzzanın şimalındakı Cəbəliyyə qaçqın düşərgəsinə endirilən hava zərbələri nəticəsində azı 100 nəfər həyatını itirib. Ərazidəki çox sayda binalar dağıdılıb. Yaralıların da çox olduğu qeyd olunur. Məlumatı BBC yayıb.**

İsrail hökuməti bu əməliyyatı dinc sakinləri deyil, yaraqlıları məhv etmək niyyətilə həyata keçirdiyini bildirib. Təl-Əviv rəsmisi vurğulayıb ki, Qəzzadakı Cəbəliyyə qaçqın düşərgəsinə endirilən zərbə nəticəsində HƏMAS-ın girov saxladığı azı 7 nəfər ölüb.

Görünən budur ki, qurunun oduna yaş da yanır. Ərazidə orta hesabla bir terrorçunun məhv edilməsi bəzən dəfələrlə çox dinc sakinin həyatı bahasına başa gəlir. Bu amil hər bir sağlam düşüncəli insanı narahat edir.

Qlobal media hər gün, hər saat Qəzzadan bir-birindən kədərli rəqəmləri yaymaqla məşğuldur. İsrail Müdafiə Qüvvələri son 24 saat ərzində Qəzza ərazisindəki tank əleyhinə və yeraltı raket buraxılış sistemləri, həmçinin HƏMAS-ın yeraltı tunellərindəki hərbi komplekslər



də daxil olmaqla, 300-ə yaxın hədəfi vurduğunu bildirib.

Hazırda İsrail əsgərləri və tankları Qəzzada hərbi mövcudluğunu genişləndirərək Qəzzanın şimalına doğru irəliləyirlər. Təl-Əviv hər vəchlə bu ərazini yerli sakinlərdən təmizləməyə çalışır. Artıq yüz minlərlə sakinin evlərini tərk etdiyi bildirilir. Fələstinli köçkünlərin bir qismi Qəzza şəhəri ətrafına toplaşıb. Onların çoxunun zəruri ərzaq və dərman ləvazimatlarına kəskin ehtiyacı yaranıb.

Məlumdur ki, HƏMAS-ın Qəzza zolağının altında geniş tunel şəbəkələri mövcuddur və burada silah, ərzaq və digər ləvazimatları saxladığı güman edilir. İsrail HƏMAS-ı mülki binalardan sipər kimi istifadə etməkdə ittiham edir və bildirir ki, təkcə dünən sutka ərzində İsrailin aviazərbələri nəticəsində HƏMAS-ın bir neçə yaraqlısı öldürülüb. İsrail, həmçinin Qəzza zolağının şimalında iki əsgərinin həlak olması ilə bağlı məlumat verib.

Dünən HƏMAS-ın nəzarətində olan Qəzzada Fələstin Səhiyyə Nazirliyinin rəsmisi bildirib ki, hava hücumları nəticəsində əksəriyyəti qadın və uşaqlar olmaqla, 8300-dən çox insan həlak olub. Bəzi mənbələr, bu rəqəmin daha böyük olduğunu iddia edirlər. İsrail tərəfdən isə azı 1400 vətəndaşın həyatını itirdiyi bildirilir.

Bəli, Yaxın Şərqdə son həftələr ərzində barışmaz düşmənçilikdən qaynaqlanan vəziyyət olduqca ağır, kritik həddə çatıb. Dünya liderləri rəsmi Təl-Əvivi hərbi əməliyyatları dayandırmağa çağırırlar. Lakin üfüqdə sülh işartıları görünmür. Dünən İsrailin baş naziri Binyamin Netanyahu Qəzza zolağında atəşkəs elan edilməsi çağırışlarını rədd edib.



Netanyahu mətbuat konfransında deyib ki, atəşkəs çağırışları "İsrailin HƏMAS-a təslim olması, terrora və barbarlığa yenilməsi çağırışlarıdır. Bu, baş verməyəcək, Bu gün İsrail üçün müharibə vaxtıdır.

Baş nazir, həmçinin, HƏMAS-ın oktyabrın 7-də qəfil hücumunun ölkə kəşfiyyatı tərəfindən önlənməməsi ilə əlaqədar artan istefa çağırışlarını da rədd edib. O, ölkəsinin HƏMAS-ın hərbi və siyasi potensialını sistemli şəkildə məhv etməkdə qərarlı olduğunu bildirib.

İsrail hökumətinin başçısı birinci mərhələnin HƏMAS yaraqlılarının hücumunun dayandırılması, ikinci mərhələnin isə hava zərbələrindən ibarət olduğunu deyib. Netanyahu Qəzzada əməliyyatın üçüncü mərhələsinin başlandığını bildirib.

"Üçüncü mərhələ Qəzza zolağına qurudan hücumun genişləndirilməsidir. İsrailin Müdafiə Qüvvələri bunu ölçülmüş, qətiyyətli, sistematik şəkildə addım-addım hərəkət edərək edir", - deyə Netanyahu bildirib.

Dünən İsrail Müdafiə Qüvvələrinin sözçüsü Daniel Haqari isə açıqlayıb ki, hazırda Qəzzanın şimalında yerüstü hərbi əməliyyatların miqyası genişlənməkdə davam edir. O, eyni zamanda, İsrail hərbçilərinin Livandakı "Hizbullah" hərəkatının infrastrukturuna aviazərbələr endirdiyi barədə məlumat verib.

Bundan əlavə, İsrail ordusu İordan çayının qərbində yerləşən Ramallah şəhəri yaxınlığındakı Arura qəsəbəsində HƏMAS sözçüsü Saleh Əl-Aruriyə məxsus evi dağıdıb.

Bu arada Misir hökumətinin Qəzza zolağı ilə sərhəddə yerləşən "Rəfah" keçid məntəqəsi yaxınlığında tank və zirehli texnika yerləşdirdiyi barədə xəbərlər yayılıb. "Times of Israel" nəşri yazır ki, keçid məntəqəsində ağır hərbi texnikanın görünməsi Qahirənin on minlərlə fələstinli qaçqının mümkün axınından ehtiyat etdiyi bir vaxta təsadüf edir.

Xatırladaq ki, "Rəfah" Misirlə Qəzza zolağı arasında yeganə sərhəd keçid məntəqəsidir. Nə Misir, nə də İordaniya fələstinli qaçqınları qəbul etmək istəyir. Bu məqam ərəb dünyasının narazılığına səbəb olur.

HƏMAS ilə İsrail arasında buvaxtadək görünməmiş gərginliyin eskalasiyası Ankaranı, əlbəttə, ciddi narahat edir. Türkiyə rəsmiləri dəfələrlə münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində həllinin vacib olduğunu vurğulayıblar. Qardaş ölkə bu istiqamətdə diplomatik səylərini günbəgün artırır.

Yeri gəlmişkən, dünən Ankarada Türkiyənin xarici işlər naziri Hakan Fidanla iranlı həmkarı Hüseyn Əmir Abdullahiyan arasında görüş olub. Diplomatlar bir çox ikitərəfli və regional məsələləri, xüsusilə Qəzzadakı gərgin durumu və ondan çıxış yolalrını geniş müzakirə ediblər.

Görüşdən sonra keçirilən birgə mətbuat konfransında nazirlər Yaxın Şərqdəki durum barədə fikir mübadiləsi apardıqları açıqlayaraq İsrail rəsmilərini, eləcə də Qərb dövlətlərini regionda gərginliyi azaltmaq üçün təcili tədbirlər görməyə çağırıblar.

Ankara təkcə sözdə deyil, əməldə də iş görür. Belə ki, Türkiyə dövləti növbəti dəfə Qəzza sakinlərinə humanitar yardım göstərmək əzmindədir. Səhiyyə naziri Fəxrəddin Qoca jurnalistlərə bildirb ki, Türkiyə yaxın günlər ərzində Qəzza üçün "Rəfah" sərhəd məntəqəsinə yaxın ərazidə və Misirin "Əl Ariş" hava limanında 20 səhra xəstəxanası quracaq.

F.Koca, həmçinin qeyd edib ki, Ankara özünün Aralıq dənizindəki "gəmi xəstəxanası"nın da Qəzza sahillərinə göndərilməsi üçün icazə gözləyir. Bir çox ərəb ölkələrinin ziyalıları bildirirlər ki, onların dövlətləri bu taleyüklü günlərdə Türkiyənin qətiyyət və prinsipiallığından nümunə götürsəydilər yaxşı olardı.

Yeri gəlmişkən, HƏMAS-İsrail müharibəsi BMT-nin nə qədər "dişsiz" bir quruma çevrildiyini bir daha üzə çıxardı. Belə ki, oktyabrın 21-dən bəri BMT Yaxın Şərqdəki vəziyyətlə bağlı qətnamə qəbul etmək üçün bir neçə dəfə toplaşsa da, dünya diplomatları hələ də konsensusa gələ bilməyiblər. Düşünürəm ki, əlavə şərhə ehtiyac yoxdur!

***Məsaim ABDULLAYEV***
***XQ***

# Türk dünyası teatrı Azərbaycan səhnəsində




**Dünən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında I Beynəlxalq TÜRKSOY Teatr Festivalının təntənəli açılış mərasimi olub.**

Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli bildirib ki, festival Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100, Azərbaycan milli teatrının yaradılmasının 150, TÜRKSOY-un 30 illik yubileylərinə və Şuşanın bu il “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilməsinə həsr olunub. Oktyabrın 31-də Şuşada start götürən tədbirlər silsiləsi türk dövlətlərinin mədəni inteqrasiyası prosesinə növbəti töhfədir. Artıq Şuşada TÜRKSOY-a üzv ölkələrin dövlət teatrları rəhbərləri şurasının 9-cu toplantısı keçirilib.

Nazir qarşıdakı illərdə də davamlı olaraq Türk dünyasında bu festivalın təşkil ediləcəyinə inamını ifadə edib.

TÜRKSOY-un Baş katibi Sultan Raev festivalın əhəmiyyətindən söz açaraq qeyd edib ki, bu layihə 6 türk dövlətini və onların teatr sənətçilərini bir araya gətirib: “Festivalın əsas məqsədi bir-birimizi daha da yaxından tanımaq və incəsənətimizi daha da inkişaf etdirməkdir. Teatr sənəti bunu yaşadır və gələcək nəsillərə ötürür”.

Bildirilib ki, noyabrın 4-dək davam edəcək səhnə təqdimatlarında TÜRKSOY-a üzv ölkələrdən – Özbəkistandan Səmərqənd Musiqili Dram Teatrı, Qırğızıstandan Kasımalı Jantoşev adına İssıkgöl Musiqili Dram Teatrı, Qazaxıstandan Türküstan Musiqili Dram Teatrı, Türkiyədən İstanbul Dövlət Teatrı və Məhdimqulu adına Türkmənistan Dövlət Musiqili Dram Teatrının kollektivləri iştirak edir.

Sonra İlyas Əfəndiyevin “Hökmdar və qızı” pyesi əsasında hazırlanmış “Qarabağnamə” tamaşası təqdim olunub. Səhnə əsərində XVIII əsrdə Qarabağ xanlığının mərkəzi olan Şuşada baş vermiş tarixi hadisələrdən bəhs olunur.

*

Açılışdan əvvəl eyni ünvanda keçirilən mətbuat konfransında festival barədə media təmsilçilərinə ətraflı məlumat verilib.

Mədəniyyət nazirinin müşaviri Oleq Əmirbəyov ilk dəfə təşkil edilən ümumtürk teatr bayramının məram və məqsədlərindən söz açıb, festivalın işinə uğurlar arzulayıb. O qeyd edib ki, Teatr fəaliyyət göstərən teatrların yaradıcılıq inteqrasiyasını təmin etməkdir.

Münsiflər heyətinin rəhbəri, professor İsrafil İsrafilov 30 illik fəaliyyəti dövründə TÜRKSOY-un ilk dəfə belə bir layihə həyata keçirdiyini söyləyib. O əlavə edib: “Qarşıdakı günlərdə bir-birindən maraqlı tamaşalara şahidlik edəcəyik. Ən yaxşı tamaşaları münsiflər heyəti ilə birgə dəyərləndirəcəyik. Ümid edirik ki, bu cür festivalların təşkili Türk dünyasında teatrların inkişafına müsbət təsir göstərəcək”.



Festivalı türkdilli xalqların zəngin mədəni müxtəlifliyini nümayiş etdirən canlı platformadır. TÜRKSOY-un baş katibi Sultan Raev isə bildirib ki, festivalın məqsədi türk dünyası teatr sənətçilərini bir araya gətirmək, bu ölkələrdə

Azərbaycanın TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı isə 6 ölkədən festivalın müsabiqə proqramına daxil edilən tamaşalar barədə məlumat verib.

**Fidan SALMANOVA**
**XQ**

# Naxçıvan Teatrı TÜRKSOY Festivalında

**Şuşada və Bakıda I Beynəlxalq TÜRKSOY Teatr Festivalı keçirilir. Festival çərçivəsində Akademik Milli Dram Teatrının səhnəsində Naxçıvan Dövlət Milli Dram Teatrı Viktor Hüqonun “Edama məhkumun son günü” tamaşasını təqdim etdi.**

Səhnə əsərinin rejissoru teatrın baş rejissoru Mirqabil Əkbərovdur. Əsas rolda teatrın həm rejissoru, həm aktyoru, Əməkdar artist Səməd Canbaxşıyev oynayır. Tamaşada gənc aktyorlar – Prezident mükafatçısı Mehri Nəbiyeva və Məmməd Mehdiyev də rol alıblar. Bu əsər festivalın müsabiqə hissəsinə daxil deyil, qonaq teatr statusunda oynanılır.

**Naxçıvan Dövlət Milli Dram Teatrının direktoru, Xalq artisti Rza Xudiyev XQ-yə açıqlamasında bildirdi ki, bu, truppanın Bakıya çoxdan gözlənilən səfəridir:**

– Uzun müddət idi regionlara, o cümlədən paytaxta gələ bilmirdik. Artıq qastrol səfərlərinə start vermişik. 2 gün əvvəl eyni tamaşa ilə Sumqayıt Dövlət Dram Teatrının qonağı olduq. Yay aylarında isə Türkiyənin İzmir və bir ay sonra İstanbul şəhərlərində keçirilən teatr festivalında iştirak etmişik. Ötən ay Mədəniyyət Nazirliyinin xətti ilə Gəncə Dövlət Dram Teatrında çıxış etdik.

Xatırladaq ki, sözügedən tamaşanın premyerası iyun ayında Naxçıvan Dövlət Milli Dram Teatrında olub. Pyes yeni quruluşda, modern üslubda hazırlanıb. İrihəcmli əsəri rejissor cəmi 1 saat 10 dəqiqəyə sığışdırıb.

**Müsahibimiz Naxçıvan teatrının repertuarında olan digər tamaşalardan da söhbət açdı:**

– Teatrımızın repertuarında Hüseyn Cavidin “Topal Teymur”, M.F.Axundovun “Lənkəran xanının vəziri”, Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş “Xilaskar”, Qoqolun “Müfəttiş”, Vaqif Səmədoğlunun “Mamo kişinin



yuxuları” tamaşaları aparıcı yer tutur. Noyabr ayında isə Molyerin “Skapenin kələyi”, Elçinin “Şekspir” tamaşalarının premyerası gözlənilir.

***Q.RAMİLƏ***
***XQ***

# Azərbaycan filmi ilk dəfə “Qoyya” yarışına qoşulub



**İlqar Nəcəfin “Suğra və oğulları” bədii filmi “Ən yaxşı Avropa filmi” nominasiyasında “Qoyya” mükafatı uğrunda müsabiqəyə qoşulub. İspaniya Kino Sənəti və Elmləri Akademiyasının təsis etdiyi “Qoyya” “Oskar”, “BAFTA”, “Sezar”la yanaşı, kino akademiyalarının ən nüfuzlu mükafatlarındandır.**

Alexandra Amnebar, Pedro Almodovar, Karlos Saura kimi nüfuzlu kinorejissorlar bu mükafatın qalibi olublar.

Qeyd edək ki, İlqar Nəcəfin “Suğra və oğulları” filmi “Ən yaxşı Avropa filmi” kateqoriyasında Şarlot Velsin “Günəşdən sonra” (Britaniya) Castin Trietin ”Payızın anatomiyası” (Fransa), Asimina Proedrounun “Saman tayalarının arxasında” (Yunanıstan), Karmen Jakuerin “İldırım” (İsveçrə), Marko Martinin “Böyük Yarmut: Müvəqqəti rəqəmlər” (Portuqaliya), Şarlot Vandermerşin və Felika Van Groeningenin “8 dağ” ( İtaliya), Juraj Lerotiçin “Təhlükəsiz saray” (Xorvatiya), İlker Çatakın “Müəllimlər zalı” (Almaniya) və Löik Tansonın “Sonuncu küllər” (Lüksemburq) filmləri ilə yarışacaq.

Həmyerlimizin filmi Busan Beynəlxalq Film Festivalında (Cənubi Koreya), Hindistan, İsveçrə, ABŞ və Almaniyanın nüfuzlu kino ekranlarında nümayiş olunub. Asiya və Sakit Okean ölkələri Kino Akademiyasının (Asiya “Oskar”ı) mükafatına “Ən yaxşı ssenari” kateqoriyasında nominant olub. Filmdə baş rolları Günəş Mehdizadə, İlqar Cahangir, Rasim Cəfər, Aydan Həsənzadə ilə yanaşı, uşaq aktyorlar Hümbət Əhmədzadə, Paşa Məmmədli ifa ediblər. Filmin ssenari müəllifləri İlqar Nəcəf, Asif Rüstəmov və Roelof Jan Minnebo (Niderland), quruluşcu operatoru Avropa Kinoakademiyasının üzvü Ayhan Salar (Almaniya), səs rejissoru Mixael Menzkedir (Almaniya).

***R.QURBANLI***
***XQ***

## XQ-nin kitab rəfi

### “Səhra savaşı”+13 hekayə




***Londonda yazıçı Vaqif Sultanlının “Kulikovo döyüşü” adlı roman və hekayələrdən ibarət kitabı nəşr olunub.***

Bu nəşr Vaqif Sultanlının ingilisdilli oxuculara təqdim olunan ilk kitabı deyil. Ötən illərdə yazıçının “İnsan dənizi”, “Ölüm yuxusu”, “Tərs axın”, “İlan əfsanəsi”, “Kor düyün”, “Səhra savaşı” kitabları İngiltərə və Amerikada çap olunub, həmçinin digər ölkələrdə təkrar yayımlanıb. Vaqif Sultanlının tərtibatında bir neçə elmi antologiya da ABŞ oxucularına təqdim edilib.

“Kulikovo döyüşü” kitabına isə müəllifin “Səhra savaşı” romanı və 13 hekayəsi daxil edilıb. Kitaba ad olaraq seçilən “Kulikovo döyüşü” hekayəsində tarixlə müasirlik özünəməxsus şəkildə çarpazlaşdırılıb, Türk etnosunun keçmişi, bugünü və gələcək taleyi ilə bağlı düşüncələr əksini tapıb.

“Rossendale Books” nəşriyyatının yayınladığı kitabı ingilis dilinə professor Abbas Qurbanoğlu, Cavid Abbaslı və Pərvanə Paşa çeviriblər.

### “Könüllər oxşayar sözü aşığın”

***Azərbaycan Aşıqlar Birliyinin xəttilə buraxılmış növbəti kitab Şirvan aşıq mühitinin ustad sənətkarı Cavid Əmiraslanovun yaradıcılığına həsr olunub.***

“Könüllər oxşayar sözü aşığın” adlanan kitabda müəllifin gəraylı, qoşma, təcnis, müxəmməs, deyişmə və digər janrlarda qələmə aldığı şeirləri toplanıb. Nəşrin redaktoru Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu, rəyçisi filologiya üzrə fəlsəfə doktoru, dosent Altay Məmmədlidir.

Cavid Səfəralı oğlu Əmiraslanov 1939-cu ildə İsmayıllı rayonunun Pirəqanım kəndində anadan olub. Mə-




lahətli səsi və özünəməxsus ifa tərzi ilə seçilir, sinədəftər olması ilə məşhurdur. Onun oğlu Bəxtiyar Əmiraslanov Birinci Qarabağ müharibəsində şəhid olub. Ustad aşığın vətənpərvərlik mövzusunda şeirləri şəhidlərimizin ölməz ruhuna ehtiramla yazılıb.

### Q uy da işıqlı dünyaya”




***Tarixi romanlar müəlifi Ülviyyə Tahir bu dəfə oxucuların görüşünə “Quyudan işıqlı dünyaya” adlı fərdi inkişaf kitabı ilə gəlib.***

Yeni nəşr milli motivlər əsasında yazılmış fərdi inkişaf kitabıdır. “Məlikməmməd nağılı” və təhtəlşüurumuzda şifrələnmiş digər xalq yaradıcılığı nümunələri bizə nə söyləyir, necə yol göstərir? Eyni zamanda, ədəbiyyatımızda şeirlər, əsərlər və dram, televiziya tamaşalarımızda bizə nələr ötürülüb ki, azərbaycanlı kimliyimiz formalaşıb? Şərqdə ilk respublikanı quranların motivasiya mənbəyi haradan idi?

Ülviyyə Tahirin kitabı bu kimi suallar əsasında və oxucuların marağına səbəb olacağı ümidilə yazılıb.

***Ə.ƏLİYEV***
***XQ***

# “Konvergent xəbər istehsalı” yeni dərs vəsaitidir

**Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin multimedia və elektron kommunikasiya kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru Leyla Məmmədovanın “Konvergent xəbər istehsalı” adlı dərs vəsaiti çap olunub.**




Nəşrin müəllifi “XQ”yə bildirib ki, dərs vəsaiti Azərbaycanda media konvergensiya sahəsində nəşr olunan ilk kitabdır. Nəşr universal jurnalistlərin yaradıcılıq imkanlarının genişlənməsi, peşəkarlıq axtarışlarını zənginləşməsi, konvergent redaksiyaların fəaliyyət mexanizminin yaradılması, konvergent jurnalistin iş prinsipləri, informasiyanın istehsalında yeni hibrid multimedia janrlarının tətbiq edilməsi üçün baza rolunu oynayır. Beynəlxalq media və təhsil sahələrində, faktiki olaraq, konvergensiya, süni intellekt, immersiv texnologiya müasir jurnalist təhsilinin təlim innovativ modelinin hazırlanmasında aparıcı faktordur. Bu baxımdan nəşrin nəzəri-praktik əhəmiyyəti böyükdür.

“Konvergent xəbər istehsalı”nın nəşrində əsas məqsəd media kommunikasiya sahəsində, jurnalistikada və jurnalistin fəaliyyətində baş verən konvergensiya prosesinin nəzəri əsaslarını izah etmək, konvergent jurnalistikada peşəkar fəaliyyət üçün biliklər verməkdir. Nəşrin təcrübi faydası isə informasiya-kommunikasiya texnologiyaları və onlardan praktiki istifadə bacarıqları, konvergent redaksiya heyətinin tərkibində işləməyi, universal jurnalistin fəaliyyət mexanizmini öyrətməkdir.

Kitab jurnalistika fakültəsinin tələbələri və müxtəlif media subyektləri, o cümlədən çoxformatlı və çoxplatformalı məzmun hazırlayan konvergent jurnalistlər üçün nəzərdə tutulub.

***XQ***

# Bakıda Təhsilin İnkişafı Forumu keçirilib




**Dünən Bakıda Elm və Təhsil Nazirliyi və Təhsilin İnkişafı Fondunun təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Təhsilin İnkişafı Forumu keçirilib.**



"İnnovasiya ekosisteminin yaradılması", "Universitet – sənaye tərəfdaşlığı", "Gələcək üçün təhsil" panellərindən ibarət olan forumda peşəkar moderator və spikerlər iştirak ediblər.

Panellər zamanı təhsil və iqtisadiyyatın inteqrasiyası, təhsil və əmək bazarı, sənaye ilə tərəfdaşlıq strategiyası, sənayenin təhsildən gözləntiləri, əlavə dəyərin yaradılması, ekosistemin inkişafında bankların rolu, tədqiqat və inkişaf ekosistemi, ömürboyu təhsil, əmək bazarının dəyişən tələbləri, süni intellekt və təhsil mövzularından bəhs olunur.

"Təhsildən tərəqqiyə" devizi ilə təşkil olunan forumda iştirakçılarla işgüzar əlaqələrin qurulması, birgə layihələrin planlaşdırılması, innovasiya ekosisteminin yaradılması, dövlət-özəl tərəfdaşlığı, təhsil və iqtisadiyyatın inteqrasiyası kimi mövzular üzrə müzakirələr aparılacaq, iştirakçıları maraqlandıran suallar yerli və beynəlxalq mütəxəssislər tərəfindən cavablandırılıb.

Elm və Təhsil naziri Emin Əmrullayev forumda çıxışında bildirib ki, ekosistemdə özəl sektorun vacibliyi mütləqdir. Məlumdur ki, özəl müəssisələrin əsas işlərindən biri də mənfəətlərini optimallaşdırmaqdır. Burada innovasiya və tədqiqat zəruridir. İnnovasiya elə bir sahədir ki, bir qurum bunu təkbaşına edə bilməz. Bu baxımdan, həm dövlət və həm də özəl sektor mütləq əməkdaşlıq etməlidir. Koordinasiyanın qurulması baxımından bu vacibdir.

"SABAH.HUB"ın icraçı direktoru Rəhim Bayramlının moderatorluğu ilə keçirilən paneldə Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, "BP Azerbaijan" şirkətinin Xəzər regionunda xarici əlaqələr və kommunikasiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli, "NEQSOL Holding"in baş direktoru Yusif Cabbarov, Azərbaycan Beynəlxalq Bankı İdarə Heyətinin sədri Abbas İbrahimov, Sumqayıt Texnologiyalar Parkının baş insan resursları inzibatçısı Şölə Əliyeva spiker qismində çıxış ediblər.

Panel çərçivəsində təhsil və əmək bazarı, sənaye ilə tərəfdaşlıq strategiyası, sənayenin təhsildən gözləntiləri, əlavə dəyərin yaradılması, ekosistemin inkişafında bankların rolu, təhsil ilə iqtisadiyyatın inteqrasiyası, tədqiqat və inkişaf ekosistemi mövzuları ətrafında müzakirələr aparılıb.

ADA Universitetinin prorektoru Fariz İsmayılzadənin moderatorluğu ilə keçirilən paneldə Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov, Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev, Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli, "212" şirkətinin baş direktoru Numan Numan, TED Universitetinin Tədqiqat, texnologiya və innovasiyalar bölməsinin direktoru Sanem Yalçıntaş spiker qismində çıxış ediblər.

Panel çərçivəsində ömürboyu təhsil, əmək bazarının dəyişən tələbləri, süni intellekt və təhsil mövzularından bəhs olunub.

Qeyd edək ki, "Təhsildən tərəqqiyə" devizi ilə təşkil olunan forum "NEQSOL Holding", "British Petroleum" şirkəti, SOCAR, Sumqayıt Texnologiyalar Parkı, Azərbaycan Beynəlxalq Bankı, "Azersun Holding" və "BestComp Group"un sponsorluğu ilə keçirilib.

**XQ**

# Gəncədə Türkiyə Cümhuriyyətinin 100 illiyi qeyd edilib



**Gəncədə Türkiyə Respublikasının yaranmasının 100 illik yubileyi ilə əlaqədar tədbir keçirilib. Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki Baş konsulu Recep Öztop, Müdafiə nazirinin müavini, Quru Qoşunları komandanı, general-leytenant Ənvər Əfəndiyev, AMEA Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev, ADAU-nun rektoru Zəfər Qurbanov, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, QMİ Qazılar Şurasının üzvü Hacı Tahir Abbasov, Milli Məclisin deputatları, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilat rəhbərləri, ictimaiyyət nümayəndələri və ziyalılar iştirak ediblər.**

Türkiyənin işğaldan azad edilməsi, Cümhuriyyətin qurulması və hər iki ölkənin ərazi bütövlüyü uğrunda canlarını fəda edən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan və Türkiyə respublikalarının dövlət himnləri səsləndirilib.

Recep Öztop Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Cümhuriyyətin 100-cü ildönümü münasibətilə Türkiyənin xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə göndərdiyi məktubu oxuyub. Konsul Türkiyə Cümhuriyyətinin yaranma tarixindən və Azərbaycan–Türkiyə qardaşlığından bəhs edib.

Niyazi Bayramov Cümhuriyyət elan edilməsinin 100-cü ildönümü münasibətilə tədbir iştirakçılarını və qardaş Türkiyə xalqını təbrik edib. Qeyd edib ki, bununla əlaqədar olaraq Gəncə şəhərində 3 gün müddətində silsilə tədbirlər həyata keçirilib. Şəhər rəhbəri Türkiyə Respublikasına davamlı sülh, firavanlıq, yeni nailiyyətlər və çiçəklənmə arzulayıb.

**XQ**

**Gəncə**

# Samux şəhidləri yad olundu




**Antiterror əməliyyatlarında həlak olan hərbçilər – Lək kənd sakini Qasımov Sənan Fərman oğlu, Bağbanlar kənd sakini Həsənov Həsən Zabit oğlunun qırx mərasimində, eləcə də 44 günlük Vətən müharibəsinin şəhidi Rüstəmov Pərviz Tufan oğlunun şəhadətinin ildönümündə rayon ictimaiyyəti iştirak edib.**



Şəhidlərin məzarları üzərinə gül dəstələri qoyulub, ruhlarına dualar oxunub, şagirdlər vətənpərvərlik mövzusunda şeirlər söyləyiblər. Şəhidlərin keçdikləri döyüş yolundan, qəhrəmanlıqlarından bəhs edilib, Azərbaycan Ordusunun Qarabağdakı antiterror əməliyyatlarında qazandığı uğurlardan, ərazi bütövlüyümüzün təmin edilməsindən danışılıb.

Rayon icra hakimiyyətinin başçısı Firdovsi Əliyev vurğulayıb ki, Vətən naminə canını qurban vermiş şəhidləri xalqımız heç zaman unutmayacaq, onlar əbədi xatirə kimi qəlblərdə yaşayacaqlar.

Şəhidlərin ailə üzvləri onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Azərbaycan Ordusunun Qarabağdakı qeyri-qanuni silahlı birləşmələrə qarşı apardığı lokal xarakterli antiterror əməliyyatlarında həlak olan gizir Həsənov Həsən Zabit oğlu 8 mart 1995-ci il tarixdə Samux rayonunun Bağbanlar kəndində anadan olub. Subay idi. Bu il sentyabrın 21-də Gəncə şəhər İmamzadə Kompleksində dəfn edilib.

Vətən müharibəsi şəhidi Rüstəmov Pərviz Tufan oğlu 6 may 1992-ci il tarixdə Samux şəhərində anadan olub, 15 oktyabr 2020-ci il tarixdə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Subay idi. 30 oktyabr 2020-ci il tarixdə Samux şəhərində dəfn edilib. Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək igidlik və mərdlik göstərdiyinə, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Pərviz Rüstəmov Azərbaycan Respublikasının Prezidentinin müvafiq sərəncamları ilə "Azərbaycan bayrağı" ordeni, "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

**Hamlet QASIMOV,**
**XQ-nin bölgə müxbiri**

**Samux**

# Fransalı hüquq müdafiəçiləri: Qarabağda etnik təmizləmə olmayıb

**Fransanın "Coordination des Associations et des Particuliers pour la Liberté de Conscience" ("CAP Freedom of Conscience" - CAP-LC) hüquq müdafiə təşkilatı Azərbaycan tərəfindən Qarabağın erməni sakinlərinə qarşı etnik təmizləmə aparılmadığını təsdiqləyib.**



Bu barədə CAP-LC-nin "Avropa Hüquq və Ədalət mərkəzinin" Azərbaycanın Avropa Şurasında üzvlüyünün dayandırılmasını tələb edən petisiyasına cavabında deyilir.

Təşkilatın apardığı monitorinqin nəticələrinə əsasən vurğulanır ki, dinc əhaliyə qarşı təhlükənin olmadığını Ermənistanın baş naziri Nikol Paşinyan özü də təsdiqləyib.

CAP-LC-nin bəyanatında qeyd olunub ki, Azərbaycan hakimiyyəti Qarabağda qalmaq istəyən ermənilər üçün təhlükəsizlik zəmanətlərini elan edib və geri qayıtmaq istəyənlər üçün xüsusi elektron vasitəni istifadəyə verib: "Veb-portalda (http://reintegration.gov.az) bir neçə dildə, o cümlədən erməni dilində Qarabağın erməni sakinlərinin Azərbaycan cəmiyyətinə reinteqrasiyasının sosial, iqtisadi və hüquqi aspektləri haqqında məlumatlar var".

Müəlliflərin qənaətinə görə, obyektiv təhlil onu göstərir ki, insanların buradan məcburi şəkildə köçürülməsi, onların geri qayıtmasının qarşısının alınması və "etnik təmizləmə" ilə bağlı iddialar əsassızdır.

Xatırladaq ki, BMT-də məşvərətçi statusu olan "Cap Freedom of Conscience" 1995-ci ildə yaradılıb. Avropanın bu qeyri-hökumət təşkilatı din və inanc azadlığı hüququnun qorunması ilə məşğuldur. Təşkilat ayrı-seçkiliyin bütün formaları ilə mübarizə aparır, bu barədə Avropanın, eləcə də digər beynəlxalq qurumlara məlumat verir.

**XQ**

# Xaçaturyanın məhkəməsi noyabrın 6-da davam etdiriləcək

**Qanunsuz erməni silahlı birləşmələrinin üzvləri tərəfindən 1991-ci il dekabrın 22-də Xocalı rayonunun Meşəli kəndində soyqırımı törətməkdə təqsirləndirilən Xaçaturyan Vaqif Çerkezinin cinayət işi üzrə noyabrın 1-də növbəti məhkəmə iclası keçirilib.**



Məhkəmədə zərərçəkmiş şəxslərin ifadələri dinlənilib. Onlar V.Xaçaturyanın Meşəlidə və ətraf ərazilərdə öz dəstəsi ilə törətdiyi cinayətlərdən danışıblar. Qeyd edilib ki, Meşəli kəndinə daxil olan Vaqif Xaçaturyanın da olduğu erməni birləşmələri azərbaycanlıların evlərini yandırıblar. Zərərçəkmişlər və hadisə şahidləri kənddə mülki əhaliyə qarşı ermənilər tərəfindən qətliam törədildiyinə şahid olduqlarını bildiriblər. Nəticədə Meşəlinin əhalisi məcburi köçkün düşüb, kənd isə məhv edilib.

Məhkəmənin növbəti iclası noyabrın 6-da keçiriləcək.

Qeyd edək ki, Vaqif Xaçaturyan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103-cü (soyqırımı) və 107-ci (əhalini deportasiya etmə və ya məcburi köçürmə) maddələri ilə təqsirləndirilir.

**XQ**

# LPO “Muğan Bank” ASC-də qorunan əmanətlər üzrə kompensasiyaların verilməsi barədə məlumat

**Bakı Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının 2-3(103)-54/2023 nömrəli 24 oktyabr 2023-cü il tarixli qərarı ilə “Muğan Bank” ASC müflis elan edilmiş və Əmanətlərin Sığortalanması Fondu adıçəkilən Bankın ləğvedicisi təyin edilmişdir. Həmçinin, "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq “Muğan Bank” ASC-də sığorta hadisəsi günü 24 oktyabr 2023-cü il müəyyən edilmişdir.**

Məlumat üçün bildiririk ki, kompensasiyaların ödənilməsi 27 noyabr 2023-cü il tarixdən başlayaraq həyata keçiriləcəkdir. "Əmanətlərin sığoratalanması haqqında" Azərbaycan Respublikası Qanunun 28.3-cü maddəsinə əsasən Əmanətlərin Sığortalanması Fondu əmanətçilərin ərizələrini kompensasiya ödənişi haqqında bildirişin ilk dəfə dərc edildiyi gündən başlayaraq bir il ərzində qəbul edir. Kompensasiyaların ödənilməsi üçün sənəd qəbulunun yeri barədə əlavə məlumat veriləcəkdir.

AZƏRBAYCAN ƏMANƏTLƏRİN SIĞORTALANMASI FONDU

Kompensasiyaların ödənilməsi prosesi haqqında ətraflı məlumatı Əmanətlərin Sığortalanması Fondunun saytından əldə edə bilərsiniz.

***www.adif.gov.az***

# Azərbaycan Turizm və Menecment Universiteti

*aşağıda qeyd olunan vakant vəzifəni tutmaq üçün müsabiqə elan edir*

## Kafedra müdiri:

***“Turizm biznesi” kafedrası***

Sənədlər elan qəzetdə dərc olunan gündən bir ay ərzində təqdim edilməlidir.

Müsabiqədə iştirak etmək üçün tələb olunan sənədlər:

1. Azərbaycan Turizm və Menecment Universitetinin rektorunun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi.
3. Tərcümeyi-hal.
4. Kafedranın profilinə uyğun olaraq ali təhsil, alimlik dərəcə və elmi ad haqqında sənədlərin təsdiqlənmiş surətləri.
5. Elmi və elmi-metodiki işlərin siyahısı.
6. Kafedra müdirinin müvafiq struktur bölmənin inkişafı ilə bağlı platforması.
7. 4x6 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil.
8. Şəxsiyyət vəsiqəsinin və dövlət sosial sığorta şəhadətnaməsinin surəti.

Sənədləri bir ay ərzində (şənbə, bazar və bayram günləri istisna olmaqla) saat 10.00-17.00-dək Azərbaycan Turizm və Menecment Universitetinin İnsan resursları şöbəsinə təqdim etmək lazımdır. Ünvan– AZ1072. Bakı şəhəri, K.Rəhimov küçəsi, 822/23-cü məhəllə, 103 nömrəli otaq.

Yaranan suallarla bağlı Azərbaycan Turizm və Menecment Universitetinin İnsan resursları şöbəsinə müraciət etmək olar. Tel: 564-42-33 (dax. 115)

Məlumat ATMU-nun web səhifəsində də ( www.atmu.edu.az) yerləşdirilmişdir.

**Qeyd:** kafedra müdiri vəzifəsinə namizədin göstəriciləri vəzifə tələblərinə uyğun gəlmədikdə və ya ərizənin verilmə müddəti bitdikdə sənədlərin qəbulundan imtina olunur.

***Rektorluq***

# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

# Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

*boş olan vəzifələri tutmaq üçün müsabiqə elan edir*

## İQTİSADİYYAT VƏ İDARƏETMƏ FAKÜLTƏSİ

***“İqtisadiyyat” kafedrası üzrə***

Professor - 2 ştat
Professor - 0,5 ştat
Dosent - 9 ştat
Dosent - 0,5 ştat
Baş müəllim - 1 ştat

***“İctimai idarəetmə və sosial innovasiyalar” kafedrası üzrə***

Kafedra müdiri - 1 ştat
Professor - 1 ştat
Dosent - 1 ştat
Baş müəllim - 1 ştat
Müəllim - 1 ştat

***“Riyaziyyat və statistika” kafedrası üzrə***

Professor - 1 ştat
Dosent - 1 ştat
Baş müəllim - 3 ştat

## MALİYYƏ VƏ MÜHASİBAT FAKÜLTƏSİ

***“Maliyyə və audit” kafedrası üzrə***

Professor - 4 ştat
Dosent - 4 ştat
Baş müəllim - 1 ştat (2 yer olmaqla 0,5 ştat)
Baş müəllim - 0,75 ştat

## BİZNES VƏ MENECMENT FAKÜLTƏSİ

***“Biznes və logistika” kafedrası üzrə***

Professor - 2 ştat
Dosent - 5 ştat
Dosent - 0,5 ştat
Baş müəllim - 1 ştat
Müəllim - 1 ştat
Müəllim – 0,5 ştat

## MÜHƏNDİSLİK FAKÜLTƏSİ

***“Mühəndislik və tətbiqi elmlər” kafedrası üzrə***

Professor - 6 ştat
Professor - 0,75 ştat
Dosent - 7 ştat
Baş müəllim - 8 ştat
Müəllim - 1 ştat

## RƏQƏMSAL İQTİSADİYYAT FAKÜLTƏSİ

***“Rəqəmsal texnologiyalar və tətbiqi informatika” kafedrası üzrə***

Professor - 1 ştat
Baş müəllim - 3 ştat

## TÜRK DÜNYASI İQTİSAD FAKÜLTƏSİ

***“İqtisadiyyat və işlətmə” kafedrası üzrə***

Müəllim - 1 ştat

## RUS İQTİSAD MƏKTƏBİ

***“Tətbiqi iqtisadiyyat” kafedrası üzrə***

Professor - 2 ştat
Dosent - 9 ştat
Dosent - 1,5 ştat (3 yer olmaqla 0,5 ştat)

## UNEC BİZNES MƏKTƏBİ

***“Biznesin idarə edilməsi” kafedrası üzrə***

Professor - 0,5 ştat
Baş müəllim - 1 ştat

## BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ

***“İqtisadi və texnoloji elmlər” kafedrası üzrə***

Professor - 8 ştat
Dosent - 3 ştat

## ÜMUMİ FƏNLƏRİN TƏDRİSİNİN TƏŞKİLİ DEPARTAMENTİ

***“Karyera planlaşdırılması və inkişafı” kafedrası üzrə***

Kafedra müdiri- 1 ştat

***“Azərbaycan dili” kafedrası üzrə***

Dosent - 2 ştat
Dosent - 0,75 ştat
Baş müəllim - 3 ştat
Baş müəllim - 0,75 ştat

***“Humanitar fənlər” kafedrası üzrə***

Professor - 4 ştat
Dosent - 6 ştat
Baş müəllim - 1 ştat
Müəllim - 3 ştat
Müəllim - 0,5 ştat

## XARİCİ DİLLƏR DEPARTAMENTİ

***“Xarici Dillərin Tədrisi Mərkəzi” üzrə***

Professor - 2 ştat
Dosent - 3 ştat
Baş müəllim - 23 ştat
Baş müəllim - 4 ştat (8 yer olmaqla 0,5 ştat)
Baş müəllim - 0,75 ştat
Müəllim - 11 ştat
Müəllim - 0,5 ştat

Qeyd olunan vəzifələri tutmaq üçün müsabiqədə yalnız mövcud əsasnamənin tələblərinə uyğun gələn namizədlər iştirak edə bilərlər.

Müsabiqədə iştirak üçün aşağıdakı sənədlər təqdim edilməlidir:

1. Ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi.
3. Tərcümeyi-hal.
4. Ali təhsil (baza təhsili), elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri.
5. Elmi və elmi-metodiki işlərin siyahısı.
6. Kafedra müdirinin struktur bölmənin inkişafı ilə bağlı platforması.

Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan dərc edildiyi gündən başlayaraq 30 gündür.

Müsabiqədə iştirak etmək üçün təqdim olunan ərizələr elmi katib tərəfindən qeydiyyata alındıqdan sonra təqdim edilməlidir.

Müsabiqədə iştirak etmək üçün sənədlər ərizə ilə birlikdə ümumi şöbəyə və ya unec@unec.edu.az ünvana təqdim olunmalıdır.

Ünvan: AZ1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6, 224-cü otaq, II mərtəbə, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC).

Telefon– 492-73-72

# “Azərişıq” ASC “0.4 kV elektrik xətlərində sabit və dəyişən gərginliyi ölçən tək xətt üzrə elektrik axını olan elektron cihazların” satın alınması məqsədilə

# AÇIQ TENDER ELAN EDİR

Tender 1 (bir) Lot üzrə keçirilir.

Lot-1 0.4 kV elektrik xəttlərində sabit və dəyişən gərginliyi ölçən tək xətt üzrə elektrik axını olan elektron cihazların satın alınması.

İştirak haqqı 1500 manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Təşkilat: “Azərişıq” ASC
H/h: AZ83AIIB33020029441802068118
VÖEN: 9900069391
Benefisiarın Bankı: “Kapital Bank”ın Gənclik filialı
Kod: 200189
VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
SWIFT Code: AIIBAZ2X

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üçün göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib edilmiş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Əliyev küçəsi 130 nömrəli ünvanda yerləşən “Azərişıq” ASC-nin inzibati binasından ala bilərlər.

Əlaqələndirici şəxs - Emil Əliyev (telefon: 440-39-93 daxili (29-18))
emil.aliyev@azerishiq.az

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.
3. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi və qeydiyyatdan keçdiyi ölkə.
4. İddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış.
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.
7. İddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayışı.
8. İddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd.
9. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.
10. İddiaçının fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar.
11. İddiaçının potensial imkanları haqqında texniki-iqtisadi məlumatlar.
12. Rəhbər şəxs və ya şəxslərin təyin olunması haqqında sənəd (əmr).
13. İddiaçı şirkətin rəhbərinin, habelə işlərini idarə edənlərin satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində məhkum olunmamaları haqqında arayış.
14. İddiaçının son 3 ildə oxşar işlə bağlı yerinə yetirilmiş ən azı 5 (beş) milyon manatlıq müqavilə haqqında məlumat.
15. İddiaçının son 3 il ərzində idxal olunmuş elektron ölçü cihazlarının müqaviləsi və yaxud müvafiq təsdiq edici gömrük sənədləri haqqında məlumat.
16. İddiaçının istehsalçı və yaxud rəsmi nümayədəliklə partnyorluq müqaviləsi haqqında məlumat.

Qeyd: tələb olunan sənədlər tam təqdim edilmədiyi halda, iddiaçının ixtisas göstəriciləri meyarlarına uyğun gəlmədiyi hesab edilərək müsabiqədən kənarlaşdırılacaqdır.

Tender təklifi; (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).

Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı; (təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildəki məlumatlar Azərbaycan dilinə tərcümə edilməlidir). Arayışların verilmə tarixi cari ay və il üçün qoyulması məcburidir Hüquqi və digər sənədlərin yalnız əsli, əsli olmadığı halda surəti notarial qaydada təsdiq edilməlidir.Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun həyata keçiriləcəkdir (https://etender.gov.az/). İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 11 dekabr 2023-cü il saat 15.00-a, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 19 dekabr 2023-cü il saat 15-00-a qədər Bakı şəhəri, Mirzəağa Əliyev küçəsi 130 nömrəli ünvana təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim edilən zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 20 dekabr 2023-cü il saat 15-00-da Bakı şəhəri, Mirzəağa Əliyev küçəsi 130 nömrəli ünvanda “Azərişıq” ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştitrak edə bilərlər.

***“AZƏRİŞIQ” ASC-NİN TENDER KOMİSSİYASI***

# “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

*ASCO-nun tabeliyindəki idarələrə tələb olunan tikinti materiallarının satın alınması məqsədilə*

# MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il noyabrın 7-si saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində,2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan– Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.

# “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC

*"ZIĞ"Gəmi Təmiri- Tikintisi Zavodunun 2 saylı yanalma körpüsündəki kranaltı yolların əsaslı təmiri xidmətinin (mal-material və işçi qüvvəsi ilə birlikdə) satın alınması üçün*

# MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il noyabrın 7-si saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində,2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1047.

Ünvan- Bakı, M.Useynov küçəsi 2.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 240 (30356) 2 noyabr 2023-cü il, cümə axşamı

# Ümumtürk əlifbası – ortaq irsə ümumi açar

**Qazaxıstanın Almatı şəhərində "Ümumtürk əlifbasının inteqrasiyada rolu: elmi və sosial aspektlər" adlı beynəlxalq konfrans keçirilib. Tədbir Türk Dövlətləri Təşkilatı (TDT) katibliyinin dəstəyi ilə Astanadakı Türk Akademiyası tərəfindən Atatürk adına Mədəniyyət, dil və tarix üzrə Ali Şura yanında Türkiyə Dilçilik Cəmiyyəti və Əl-Fərabi adına Qazaxıstan Milli Universiteti ilə birgə təşkil olunub.**



Konfransda Qazaxıstandan başqa, Azərbaycan, Türkiyə, Qırğızıstan və Özbəkistanın tanınmış linqvist alimləri, bu sahənin ekspertləri, aparıcı elm təşkilatlarının nümayəndələri, dövlət strukturlarının təmsilçiləri, Qazaxıstan parlamentinin deputatları, ölkədəki diplomatik missiyanın üzvləri iştirak edib.

Azərbaycanı konfransda Milli Məclisin deputatı, akademik Nizami Cəfərov təmsil edib.

Tədbir iştirakçıları əvvəlcə Əl-Fərabi Muzeyinə, həmçinin "Böyük çölün yeddi tərəfi" sərgisinə baxıblar.

Konfrans Qazaxıstan Prezidenti Qasımcomərd Tokayevin iştirakçılara təbriki ilə açılıb.

Türk dövlətləri nümayəndələrinin, Türk Dövlətləri Təşkilatının və Türk Dövlətləri Parlament Assambleyasının yüksək səviyyəli nümayəndələrinin iştirak etdiyi konfransda Türk Akademiyasının Prezidenti, akademik Şahin Mustafayev 2021-ci ildə TDT dövlət başçılarının səkkizinci Zirvə görüşündə qəbul olunan "Türk dünyasının baxışı-2040" sənədində qeyd olunduğu kimi, ümumi əlifba və terminologiya yaradılması üzrə Türk dövlətləri akademik cəmiyyətlərinin fəaliyyətlərinin əlaqələndirilməsi ilə bağlı Türk Akademiyasının gördüyü işlər haqqında məlumat verib. Akademiyanın prezidenti bildirib ki, bu günə qədər aparılan tədqiqatlar göstərir ki, ümumi əlifbanın yaradılması prosesində dil xüsusiyyətləri böyük əhəmiyyət kəsb etsə də, sosial-mədəni amillər də nəzərə alınmalıdır.

Ş.Mustafayev qeyd edib ki, Türk dövlətlərinin akademik dairələri vahid əlifbanın sosial-mədəni mahiyyətini diqqətdə saxlamalıdırlar.

Müzakirələrdə Nizami Cəfərov ümumi Türk əlifbası ilə bağlı fikirlərini bölüşüb.

Sonra konfrans "Əlifba, dil və bənzərlik" və "Əlifba inteqrasiya istiqaməti kimi" plenar sessiyalarda davam edib.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***
**Almatı**

## İdman xəbərləri

### Minifutbol yığmamız dörddəbir finalda



**Minifutbol üzrə yığmamız dünya çempionatında daha bir qələbə qazanıb.**

Birləşmiş Ərəb Əmirliklərində təşkil olunan yarışda 1/8 finalda Portuqaliya seçməsi ilə üz-üzə gələn millimiz inamlı oyun nümayiş etdirərək rəqibi 3:0 hesabı ilə məğlub edib. Yığmamızın heyətində qolları Mirmehti Rzayev, Elvin Əlizadə və Rəvan Kərimov vurublar.

Qeyd edək ki, Azərbaycan millisinin ¼ finaldakı rəqibi Bolqarıstan- İngiltərə qarşılaşmasının qalibi olacaq.

### "Xarı Bülbül Şuşa"nın növbəti rəqibi

**Çağırış Kubokunda "Xarı Bülbül Şuşa" klubunun növbəti oyunlarının təqvimi müəyyənləşib.**




Şuşa təmsilçisi növbəti mərhələdə Yunanıstanın "Panatinaikos" komandası ilə görüşəcək. Komandalar arasında ilk oyun noyabrın 21-də Gənclər və İdman Nazirliyinin Voleybol Mərkəzində keçiriləcək. "Xarı Bülbül Şuşa"nın səfərdəki cavab matçı noyabrın 29-da olacaq.

Qeyd edək ki, komandamız ilk turda Slovakiyanın "TJ Spartak MYJAVA" klubunu məğlub edərək 1/16 finala yüksəlib.

### Karateçilərimiz 4 medal qazanıblar

**Azərbaycan Koşiki Karate-do Federasiyasının kudo yığması Avropa çempionatında 3 qızıl və 1 gümüş medal qazanıb.**



Litvanın Kaunas şəhərində keçirilən yarışa millimiz 5 idmançı (Vüsal Əliyev, Kənan İsmayılzadə, Sevinc Mövsümzadə, Rəşad Quliyev, Elbrus Səmədov) ilə qatılıb. Təmsilçilərimizdən Vüsal Əliyev, Sevinc Mövsümzadə, Elbrus Səmədov qızıl medala layiq görülüblər. Komandamızın digər üzvü Kənan İsmayılzadə isə gümüş medal qazanıb.

***Leyla SABİRQIZI***
***XQ***



# "Xiaomi"nin "yaddaşsız" yaddaşı güclənir

"Xiaomi" şirkəti yaddaş kartından istifadə etmədən smartfonların yaddaşını artırmağın yolunu tapıb. Hələlik bu "hiylə" "Xiaomi 14" smartfonlarında işləyir. Ancaq sonradan digər qadcetlər üçün də əlçatan olacaq.

"Xiaomi 14" seriyalı smartfonların bu yaxınlarda elanı ən yüksək səviyyəli texniki xüsusiyyətlərinə görə böyük gündəm yaratmışdı. Bununla belə, təqdimat zamanı bəzi funksiyalar, o cümlədən "UltraSpace" barədə çox az danışıldı.

"UltraSpace" fləş kartlardan istifadə etmədən yaddaşı bir qədər artırmaq üçün nəzərdə tutulmuş "Xiaomi"nin yeni texnologiyasıdır. Məsələn, 256 GB yaddaşa malik "Xiaomi 14 Pro" əslində 264 GB, 512 GB-lıq "Xiaomi 14" və "Xiaomi 14 Pro" isə 528 GB yaddaşa sahib olacaq.

Hər bir fləş yaddaş çipində cihazın sürətini artırmaq üçün istifadə olunan "Over-Provisioning" üçün ayrılmış bir sahə var. "Xiaomi" mühəndisləri yeri boşaltmağın bir yolunu tapıblar.

Hələlik bu texnologiya yalnız "HyperOS" sistemli "Xiaomi 14" seriyalı smartfonlarda işləyir.

"HyperOS"un "MIUI" ilə müqayisədə əsas dəyişikliyi ondan ibarətdir ki, yeni konseptdəki smartfon bütün "Xiaomi" cihazları, yeni saatlar, televizorlar, marşrutlaşdırıcılar və hətta elektrik avtomobili üçün pult olacaq. Onların hamısı öz parametrləri ilə pərdədə görünəcək. Əvvəllər "HyperOS" dəstəyi almalı olan qadcetlərin böyük siyahısı onlayn yayımlanırdı.

***Ayan NƏCƏF,***
***tələbə-jurnalist***
***XQ***

# "WhatsApp"da qrup imkanları

**"WhatsApp" messencerinin iOS üçün yeni beta versiyası indi 31-ə qədər istifadəçi ilə qrup zəngləri yaratmaq imkanı təklif edir. Məlumata görə, "WhatsApp"ın yeni versiyasında 23.21.72 nömrəsi var. Tətbiq yalnız beta test iştirakçıları üçün "App Store"dan endirilə bilər.**




Messencerdə əvvəllər 32 hesaba qrup zəngləri olub. Bununla belə, əvvəlki versiyada funksiya zəng təşəbbüskarına müstəqil olaraq yalnız 15 kontakt əlavə etməyə imkan verirdi.

Bildirilir ki, yeni funksiya qrup zənglərini əhəmiyyətli dərəcədə təkmilləşdirir və istifadəçilərə, sadəcə, bir neçə toxunuşla daha çox insana tez qoşulmağa imkan verir. Eyni zamanda, onları sonradan zəngə əlavə etmək ehtiyacını aradan qaldırır.

Bundan bir qədər əvvəl oxşar variant 2.23.19.16 nömrəli "Android" üçün "WhatsApp"ın beta versiyasında tətbiq olunmuşdu.

Gözlənilir ki, yaxın gələcəkdə yenilənmiş qrup zəngləri "Meta İT" korporasiyasının messencerinin buraxılış versiyasında da mümkün olacaq.

***Fidan YAQUBLU***
***XQ***

# Meymun da qız qaçırıb

**Bu hadisə bir neçə gün əvvəl Çinin Quizhou əyalətində olub. Valideynlərinin ağacın altında tək qoyduğu qızı meymun qaçırıb. Daha sonra polis yaxınlıqdakı meşədə axtarışlara başlayıb. Hüquq-mühafizə orqanlarının əməkdaşları qızı uçurumun yaxınlığında tapıblar.**



Bu barədə "Asia One" portalı məlumat yayıb. Qızın bədənində meymunun barmaq izlərinə bənzəyən bir neçə cızıq olub. Polis bildirib ki, hadisə ilə əlaqədar olaraq, sakinlərin təhlükəsizliyini təmin etmək üçün ərazidə patrul xidməti aparılacaq.

***XQ***

## Sənət inciləri

# "Lənkəran qızlarının rəqsi"

**Görkəmli Xalq rəssamı Maral Rəhmanzadənin 1970-ci ildə ərsəyə gətirdiyi "Lənkəran qızlarının rəqsi" tablosu "Azərbaycan qadınları" silsiləsinə daxil olan əsərlərdəndir. Rəsmdə 3 rəqs edən qız təsvir olunub.**



Azərbaycan qadınına xas gözəlliyin, zərifliyin tərənnüm edilməsi Maral Rəhmanzadə yaradıcılığının əsasını təşkil edir desək, yanılmarıq. O, öz tablolarında qadınlarımızı çinar qaməti, əzəməti, vüqarlı əks etdirib. Bu rəsm əsərində isə qızların məğrur duruşları ilə zərifliyi, incəliyi vəhdət təşkil edir.

Tabloda bir çox parlaq boyalardan istifadə edilib. Rənglərin uğurlu seçiminin nəticəsidir ki, əsər tamaşaçını yormur. Deyə bilərik ki, rənglər qızların zərifliyi ilə səsləşir.

***Leyla HADİ,***
***tələbə-jurnalist***

# Avstraliya "DÇ–2034"dən imtina edib

**Avstraliyanın 2034-cü ildə keçiriləcək dünya çempionatına evsahibliyindən imtina etməsi barədə xəbərlər yayılıb. Bunu Beynəlxalq Futbol Federasiyasının (FIFA) prezidenti Canni İnfantino da təsdiqləyib.**




Belə ki, Avstraliya Futbol Federasiyasının açıqlamasında imtina faktı təsdiqlənib və ölkənin bunun əvəzinə, qadın futbol turnirlərinin təşkilinə diqqət yetirəcəyi vurğulanıb.

Qeyd edək ki, oktyabrın 31-i sözügedən nüfuzlu turnirin təşkili ilə bağlı ərizələrin qəbulu üçün son gün idi. FIFA-nın rotasiya şərtlərinə əsasən, 2034-cü ildəki mundiala yalnız Asiya və Okeaniya ölkələri evsahibliyi edə bilər.

Xarici mediada həmin turnirin Səudiyyə Ərəbistanında keçiriləcəyi açıqlanıb. Bu ölkənin 11 il sonrakı dünya çempionatının təşkilatçısı kimi rəsmi təsdiqi isə 2024-cü ilin dördüncü rübündə baş tutmalıdır.

***Elçin ABBASOV***
***XQ***

✓ *"STAR PARK" ASC-yə məxsus emissiya prospekti itdiyi üçün etibarsız sayılır. VÖEN – 1000039041.*

## Hava

# Bakıda hava yağmursuz, dağlıq ərazilərdə yağışlı olacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən noyabrın 2-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Gecə və səhər bəzi yerlərdə zəif duman, az çiskin olacaq. Mülayim cənub-qərb küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 13-17°, gündüz 20-25° isti olacaq. Atmosfer təzyiqi 764 mm civə sütunundan 761 mm civə sütununa enəcək, nisbi rütubət gecə 80-90, gündüz 60-70 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin günün birinci yarısında bəzi dağlıq ərazilərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 9-13°, gündüz 21-26° , dağlarda gecə 5-10°, gündüz 13-18° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

# ALLAH RƏHMƏT ELƏSİN

Dövlət İmtahan Mərkəzinin rəhbərliyi və kollektivi mərkəzin əməkdaşı Elşən Əkbərova atası və qardaşı

ƏLƏKBƏR VƏ ZAHİD ƏKBƏROVLARIN

vəfatlarından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4793
SİFARİŞ 2841
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır
00:00